RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN



№ 139 (10159) 6 avqust 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan önə keçir

### Ölkəmiz öz qətiyyətli siyasəti ilə türk dövlətləri arasında birliyi möhkəmləndirən aparıcı gücə, strateji mərkəzə çevrilib



Azərbaycanın türk dünyasında aparıcı rolunu son günlərdə cərəyan edən mühüm geosiyasi proseslərdə aydın şəkildə görmək mümkündür. Dövlətimizin başçısının iyulun 30-da Qırğızıstana dövlət səfəri və Çolpon-Ata şəhərində keçirilən yüksəksəviyyəli danışıqlar, eləcə də Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının növbəti iclası türk birliyinin dərin geoiqtisadi və strateji məzmun kəsb edən müstəviyə keçdiyini sübut edir. Səfər çərçivəsində Azərbaycan ilə Qırğızıstan arasında Müttəfiqlik Münasibətləri haqqında Bəyannamənin və bir sıra mühüm sənədlərin imzalanması ikitərəfli əlaqələri keyfiyyətcə yeni mərhələyə qaldırdı.

5

# AĞIR DAŞLI AZƏRBAYCAN



Azərbaycanın daşı ağırdır!

Kimin başına düşsə, altından çıxa bilmir!

Bunu sözgəlişi xatırlatdıq!

Söhbət isə hərbi-siyasi məsələlərdən, beynəlxalq hüquq və ədalətdən, bütövlükdə ikili standartlardan gedir!

Bəs görəsən Azərbaycanın daşı niyə bu qədər sanballı və ağırdır!

Axı, Azərbaycan bir o qədər də böyük ölkə deyil, ərazisi 86,6 min kvadratkilometr, əhalisi isə on milyon nəfərdir.

Azərbaycan gördüyü möhtəşəm işlərə, əlimyandıda olan digər dövlətlərə göstərdiyi köməyə, öz gücü ilə reallaşdıraraq dünyanın bir çox dövlətlərinə böyük faydalar gətirən transmilli layihələrə, irəli sürdüyü təşəbbüslərə görə ağır daşlıdır!

Bütün bunların müəllifi isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir!

İndi isə daşımızı ağır edən səbəblərə və gördüyümüz işlərə keçək.

Müstəqilliyimizin ilk illəri çox ağır və keşməkeşli oldu.

Dövlətə maymaq, qorxaq, təcrübəsiz və səriştəsizlərin başçılıq etməsi ölkəni fəlakətlər girdabına yuvarlatdı, Azərbaycanı parçalanmaq, əvvəllərdəki kimi kiçik xanlıqlara bölünmək həddinə çatdırdı.

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtması labüd fəlakətlərin qarşısını aldı.

Azərbaycana qənim kəsilən qüvvələr iki dəfə dövlət çevrilişinə cəhd göstərdilər, Heydər Əliyevə sui-qəsdlər təşkil etdilər.

Lakin Ulu Tanrı rəhbərimizi qorudu, xalq isə arxasında möhkəm dayandı!

Ulu Öndər Heydər Əliyev dövlət çevrilişi cəhdlərini puça çıxardı, Azərbaycanda möhkəm və dönməz sabitlik yaratdı.

* Qanunsuz silahlı birləşmələr ləğv edildi.

* Əhalidəki külli miqdarda silah-sursat yığıldı.

* Müstəqilliyimiz əbədiliyə və dönməzliyə çevrildi.

* İqtisadiyyatın gələcək inkişafını təmin edəcək "Əsrin müqaviləsi" neft kontraktını imzalatdı.

* Azərbaycanın inkişafını müəyyənləşdirən siyasi kurs yaratdı.

Tale bundan artığına imkan vermədi!

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev başlanmış işləri uğurla davam etdirdi, müstəqil Azərbaycanı yeni zirvələrə ucaltdı!

❖ ❖ ❖

Bədxahlarımız əleyhimizə kampaniya aparmağa, hansısa qərəzli sənəd qəbul etməyə hər an fürsət gəzirlər!

Əllərinə tutarlı fakt düşməyəndə isə özlərindən uydururlar.

Menendesin "yurdu boş qalmayıb".

Bu gün erməni diasporunun pul kisəsindən gizli yolla maliyyələşən ABŞ-dəki bəzi konqresmenlər şəxsi maraqları naminə dövlət siyasətinin əleyhinə getməkdən belə çəkinmirlər.

ABŞ Prezidenti Donald Trampın şahidliyi və dəstəyi ilə 8 avqust 2025-ci ildə Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri N.Paşinyan arasında sülhə xidmət edən mühüm sənədlərin imzalanması, Azərbaycanın 44 günlük müharibədə möhtəşəm zəfər çalması dünya erməniliyini, xüsusən ABŞ-dəki erməni diasporunu qətiyyən qane etmir.

Lakin qatar çoxdan gedib, Azərbaycan öz torpaqlarını silah gücünə geri qaytarıb!

Erməni diasporu isə suyu bulandırmağa can atmaqdadır!

Korrupsiya və rüşvətxorluq halları dövlətin maraqlarını arxa plana keçirir...

Məhz bunun nəticəsidir ki, 22 iyul 2026-cı ildə ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi Azərbaycandakı erməni hərbi canilərinin azad olunmasına çağırış edilməsinə dair H.R. 9087 nömrəli qanun layihəsi qəbul etmişdir.

Menendes nəyə nail oldusa, xələfləri də ona nail olacaqlar!

* Azərbaycan dövləti heç zaman heç kəsin sözü və ya "sənədi" ilə milli maraqlarından keçmir!

* Azərbaycan öz problemini özü həll edərək kimsədən minnət götürmür!

* Heç kəsdən də qorxub çəkinmir!

4

## Bakı ilə Roma arasında qarşılıqlı güvən artır





"Cənub qaz dəhlizi"nin Avropa qolu olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə nəql edilən təbii qaz İtaliyanın enerji təhlükəsizliyində əsas rol oynayır və Azərbaycan bu ölkənin ən böyük qaz təchizatçılarından biridir. Başqa sözlə, İtaliyaya milyardlarla kubmetr "Şahdəniz" təbii qazı nəql olunur və bu, həmin ölkənin qaz balansında ikinci yeri tutur. Lakin enerji sahəsində əməkdaşlıq bunlarla bitmir, illər keçdikcə daha da genişlənir və enerji sektorunun digər sahələrinə şaxələnir. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) hazırda İtaliyada yeni investisiya layihələri və ya əlavə aktivlərin əldə olunması ilə bağlı məsələləri formalaşdırılan investisiya planı çərçivəsində qiymətləndirir. Mövcud layihələrin icrası isə plan üzrə davam etdirilir.

7

## Azərbaycanda söz və fikir azadlığı tam təmin olunub

### Milli mətbuatımızın inkişafının təməli 1998-ci il avqustun 6-da senzuranın ləğvi ilə qoyulub



Müstəqilliyin ilk illərində ölkədə mövcud olan hərbi və inzibati nəzarət azad sözün inkişafına böyük maneələr törədirdi. 1992-ci ilin aprelində tətbiq edilən hərbi nəzarət və 1993-cü ildə informasiya yayımına qoyulan məhdudiyyətlər mətbuatın sərbəst fəaliyyətini iflic etmişdi. Nəhayət, 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv olundu. Bununla da postsovet məkanında ilk dəfə məhz Azərbaycan mətbuat üzərindəki dövlət nəzarətinə tamamilə son qoydu. Bu fərman böyük siyasi iradənin nəticəsi kimi tarixdə qaldı.

8



## Etibarlı tərəfdaş və strateji mərkəz

Ölkəmiz regional daşımaların fəal iştirakçısı olmaqla bərabər, bir çox halda qlobal əhəmiyyətli təşəbbüslərin də müəllifidir. "Şərq-Qərb" və "Şimal-Cənub" tranzit dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan həm yaxın qonşuları, həm də kənar region dövlətləri ilə balanslaşdırılmış münasibətlər quraraq hər bir iştirakçıya fayda verən unikal əməkdaşlıq modeli formalaşdırıb. Xüsusilə Orta dəhlizin əhəmiyyətinin sürətlə artması, Çinlə strateji tərəfdaşlığın dərinləşməsi və Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin tamamilə yeni müstəviyə keçməsi ölkəmizin tranzit missiyasına yeni məzmun qazandırır. Ənənəvi marşrutların risklərlə üzləşdiyi bir vaxtda Azərbaycan üzərindən keçən təhlükəsiz və dayanıqlı yollar bütövlükdə Avrasiya məkanı üçün strateji qarant rolunu oynayır.

8

## Cənubi Qafqazda yeni geosiyasi reallıqlar: sülh sazişi regionun gələcəyini necə dəyişəcək




Bu gün Cənubi Qafqazın qarşısında tarixi seçim dayanır - region yenidən geosiyasi rəqabətin sərt toqquşma xəttinə, yoxsa öz coğrafiyasının yaratdığı imkanlardan istifadə edərək sülh, nəqliyyat, enerji və iqtisadi əməkdaşlıq məkanına çevriləcək? Azərbaycanın irəli sürdüyü sülh gündəliyi ikinci istiqamətə aparan yolun siyasi əsaslarını artıq ortaya qoyub. İndi əsas məsələ bu yeni reallığın bütün region dövlətləri tərəfindən nə dərəcədə düzgün qiymətləndiriləcəyidir. Bu şəraitdə Azərbaycanın sülh təşəbbüsünün məzmunu xüsusi anlaşılır. Bakı sülhü yalnız iki ölkə arasında münasibətlərin normallaşmasından savayı, həmçinin bütün regionun gələcəyinə təsir edəcək daha geniş proses kimi nəzərdən keçirir. Siyasi razılaşma sərhəddə sabitlik yaradacaqsa, açılan yollar həmin sabitliyi iqtisadi dividendlərə çevirəcək, ölkələr arasında iqtisadi əlaqələr gücləndikcə isə yeni müharibəyə başlamağın həm siyasi, həm də iqtisadi zərərini tərəflər daha düzgün qiymətləndirə biləcəklər. Beləliklə, sülh özünü qoruyan bir sistemə çevriləcək.

6

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 14-cü, 17-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217; № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; 2026, № 1, maddələr 18, 19; 2026, № 3, maddələr 202, 212; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə "388-388-2," rəqəmlərindənsonra "388-4," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 388-4-cü maddə əlavə edilsin:

**"388-4. Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı tələblərin pozulması**

388-4.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.13-cü maddəsində qeyd edilən məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə və ya təqdim edilməsi müddətinin pozulmasına, yaxud natamam və ya təhrif edilmiş məlumatın təqdim edilməsinə görə -

vəzifəli şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.

388-4.2."İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-5.5-ci maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərdiyi sorğuların yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformasının provayderi tərəfindən 5 (beş) iş günü ərzində cavablandırılmamasına, yaxud natamam və ya təhrif edilmiş məlumatların təqdim edilməsinə görə -

vəzifəli şəxslər yeddi min manatdan səkkiz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi beş min manatdan otuz min manatadək məbləğdə cərimə edilir.

388-4.3. Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarından təhlükəsiz istifadə ilə bağlı tələblərin pozulmasına, yəni:

388-4.3.1.fərdi rəqəmsal hesabın yaradılması zamanı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.2-ci və 13-4.4-cü maddələrində müəyyən edilmiş texniki üsulların tətbiq edilməməsinə və ya həmin Qanunun 13-4.2 - 13-4.5-ci maddələrinin tələbləri pozulmaqla tətbiq edilməsinə;

388-4.3.2. 16-18 yaş arası istifadəçilərin fərdi rəqəmsal hesablarına münasibətdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.11-ci maddəsində göstərilən texniki və təhlükəsizlik tədbirlərinin təmin edilməməsinə;

388-4.3.3. 16-18 yaş arası istifadəçilərin həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həllərin tətbiq olunmamasına, yaxud zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saat ərzində yayılmasının qarşısının alınmamasına;

388-4.3.4.toplanılmış fərdi məlumatların sosial şəbəkə platformaları provayderlərinin informasiya sistemində saxlanılmasına, həmin məlumatların üçüncü şəxslərə ötürülməsinə və ya fərdi məlumatlardan yaşın yoxlanılması məqsədi istisna olmaqla, kommersiya, hədəfli reklam (konkret istifadəçiyə yönələn) və ya digər məqsədlər üçün istifadə edilməsinə;

388-4.3.5. fərdi rəqəmsal hesabı olan şəxsin yetkinlik yaşına çatanadək yerləşdirdiyi məlumatların, paylaşdığı məzmunun və fərdi məlumatlarının özünün, yetkinlik yaşına çatmadığı halda qanuni nümayəndəsinin və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında silinməsinin təmin edilməməsinə görə -

vəzifəli şəxslər səkkiz min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər otuz beş min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

388-4.4. Bu Məcəllənin 388-4.1 - 388-4.3-cü maddələrində nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər doqquz min manatdan on min manatadək məbləğdə, hüquqi şəxslər qırx beş min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.**"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18, № 7, maddə 769; 2025, № 7, maddə 626; 2026, № 1, maddə 17; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci maddənin birinci hissəsinin otuz dördüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda otuz beşinci - otuz səkkizinci abzaslar əlavə edilsin:

**"sosial şəbəkə platforması** - istifadəçilərə fərdi rəqəmsal hesab yaratmaq, digər istifadəçilərlə virtual əlaqə qurmaq və rəqəmsal məzmunu (mətn, foto, video, audio və s.) fərdi və (və ya) kütləvi şəkildə paylaşmaq imkanı verən, əsas funksiyası istifadəçilər arasında rəqəmsal qarşılıqlı əlaqəni təmin etməkdən ibarət olan informasiya sistemi;

**yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platforması** (bundan sonra -**platforma**)-yaş məhdudiyyəti nəzərə alınmaqla,rəqəmsal məzmunun (mətn, foto, video, audio və s.) kütləvi şəkildə paylaşılması vasitəsilə istifadəçilər arasında rəqəmsal qarşılıqlı əlaqəni (təhsil, səhiyyə və ya peşəkar-işgüzar münasibətlərin qurulması istisna olmaqla) təmin edənin formasiya sistemi;

**yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformasının provayderi** (bundan sonra - **provayder**) - platformanın texnoloji infrastrukturunu formalaşdıran, onun fəaliyyət prinsiplərini və istifadəçi qaydalarını müəyyən edən, rəqəmsal məzmunun (mətn, foto, video, audio və s.) paylaşılması alqoritmlərinə və istifadəçi məlumatlarının emalı prosesinə birbaşa nəzarət edən, habelə həmin platformanın idarə olunmasına cavabdeh olan hüquqi və ya fiziki şəxs;

**fərdi rəqəmsal hesab** - fiziki və ya hüquqi şəxsin platformada qeydiyyatı zamanı yaradılan, onun identifikasiyasını, ona məxsus məlumatların yerləşdirilməsini, idarə olunmasını və paylaşılmasını, digər istifadəçilərlə əlaqə qurulmasını, habelə xidmətlərdən fərdiləşdirilmiş qaydada istifadə edilməsini təmin edən, unikal identifikasiya və giriş məlumatları (istifadəçi adı, parol, çoxfaktorlu autentifikasiya vasitələri və s.) ilə qorunan, istifadəçiyə aid hüquq və öhdəliklərin tətbiq olunduğu rəqəmsal səhifə.";

2.2. 13-4-cü maddə 13-6-cı maddə hesab edilsin və aşağıdakı məzmunda 13-4-cü və13-5-ci maddələr əlavə edilsin:

**"Maddə 13-4. Şəxslərin platformada qeydiyyatına dair tələblər**

13-4.1. 16 yaşı tamam olmamış şəxslərin platformada fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilmir. Platformaların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

13-4.2. Provayder platformada fərdi rəqəmsal hesabın yaradılması zamanı yaş məhdudiyyətinə nəzarəti təmin etmək üçün aşağıdakı texniki üsulların ardıcıl tətbiqini təmin etməlidir:

13-4.2.1. şəxsin yaşının bəyan edilməsi;

13-4.2.2. şəxsin bəyan edilən yaşının dəqiqləşdirilməsi, habelə 16-18 yaş arası uşağın qanuni nümayəndəsinin fərdi rəqəmsal hesabın yaradılmasına razılığının alınması üçün bank kartı, elektron poçt ünvanı və mobil telefon nömrəsi üzrə məlumatların təqdim edilməsi.

13-4.3. Bu Qanunun 13-4.2.2-ci maddəsində qeyd edilən məlumatlar əsasında provayder şəxsin, habelə 16-18 yaş arası uşağın qanuni nümayəndəsinin elektron poçt ünvanına və mobil nömrəsinə sorğunun göndərilməsi, habelə ona məxsus bank kartından pul vəsaitinin çıxılması (geri qaytarılması şərtilə) vasitəsilə bəyan edilmiş yaşın yoxlanılmasını həyata keçirir.

13-4.4. Provayder fərdi rəqəmsal hesabın yaradılması zamanı şəxsin yaşının müəyyən edilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı əsasında bu Qanunun 13-4.2-ci maddəsində nəzərdə tutulmayan və Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında nəzərdə tutulmuş insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına səbəb olmayan, istehlakçıların hüquqlarının müdafiəsi, dövlət sirrinin, fərdi məlumatların mühafizəsi və informasiya təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə zidd olmayan texniki üsulları tətbiq edə bilər.

13-4.5. Bu Qanunun 13-4.2-ci və 13-4.4-cü maddələrində nəzərdə tutulmuş texniki üsullarla aparılan yoxlama nəticəsində istifadəçinin yaşının 16 və ya yuxarı olduğu müəyyən edildikdə, fərdi rəqəmsal hesabın yaradılması təmin edilir.

13-4.6. 16-18 yaş arası uşağın fərdi rəqəmsal hesabında provayder tərəfindən yerləşdiriləcək məzmunların və reklamların dairəsi, habelə onun platformadan istifadə saatları uşağın qanuni nümayəndəsi tərəfindən idarə edilir. Belə nəzarətin həyata keçirilməsi üçün provayder platformada zəruri funksionallığı təmin etməlidir. Qanuni nümayəndələr 16-18 yaş arası uşaqların fərdi rəqəmsal hesablarına həmin funksionallıq əsasında aktiv nəzarət edilməsinə, habelə onların sosial şəbəkə platformalarından bu Qanunun tələblərinə uyğun şəkildə istifadə etməsinə cavabdehdirlər.

13-4.7. Provayder şəxsin sosial şəbəkə platformasındakı davranışının mütəmadi olaraq təhlil edilməsini, bəyan edilən yaşı ilə bağlı əsaslı şübhələr olduqda bu Qanunun 13-4.2-ci və 13-4.4-cü maddələrinin tələblərinə uyğun olaraq təkrar yaş yoxlanılmasını təmin etməlidir. Bu zaman yaş tələbinin pozulması halları aşkar edildikdə həmin şəxsin fərdi rəqəmsal hesaba girişi dərhal məhdudlaşdırılmalıdır. Məhdudiyyət tətbiq edilmiş hesabların idarə edilməsi platformaların daxili qaydalarına uyğun olaraq tənzimlənir.

13-4.8. İstifadəçi yaşının yoxlanılması məqsədilə provayder topladığı fərdi məlumatlarla bağlı aşağıdakı tədbirləri həyata keçirə bilməz:

13-4.8.1. onları öz informasiya sistemində saxlamaq və ya üçüncü şəxslərə ötürmək;

13-4.8.2. onlardan yaşın yoxlanılması istisna olmaqla, kommersiya, hədəfli reklam (konkret istifadəçiyə yönələn) və ya digər məqsədlər üçün istifadə etmək.

13-4.9. Provayder bu Qanunun 13-4.8-ci maddəsində qeyd olunan yoxlama prosesi başa çatdıqda dərhal toplanılmış fərdi məlumatların silinməsini təmin etməlidir.

13-4.10. Provayder fərdi rəqəmsal hesabı olan şəxsin yetkinlik yaşına çatanadək yerləşdirdiyi məlumatların, paylaşdığı məzmunun və fərdi məlumatlarının özünün, yetkinlik yaşına çatmadığı halda qanuni nümayəndəsinin və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında, həmçinin daxili qaydalarında müəyyən edilmiş hallarda öz təşəbbüsü ilə silinməsini təmin etməlidir.

13-4.11. Provayder 16-18 yaş arası uşaqların fərdi rəqəmsal hesablarına münasibətdə platformadan istifadə ilə bağlı aşağıdakı texniki və təhlükəsizlik tədbirlərini təmin etməlidir:

13-4.11.1. istifadəçinin seçimi əsasında təhlükəsiz istifadə rejiminin və gücləndirilmiş konfidensiallıq tənzimləmələrinin müəyyən edilməsi;

13-4.11.2. fərdi rəqəmsal hesablarda bütün standart konfidensiallıq tənzimləmələrinin müəyyən edilməsi və geolokasiya məlumatlarının əlçatanlığının, o cümlədən ictimaiyyətə açıqlanmasının məhdudlaşdırılması;

13-4.11.3.fərdi rəqəmsal hesablarda onların fiziki və psixi sağlamlığına zərər vuran və ya asılılıq yaradan məzmunların, o cümlədən məlumat və reklamların yerləşdirilməsinin qarşısının alınması, habelə manipulyativ dizayn üsullarından (sonsuz sürüşdürmə, videomaterialların avtomatik səsləndirilməsi və s.) istifadənin qadağan edilməsi;

13-4.11.4. fərdi rəqəmsal hesablarda "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsində qeyd edilmiş məlumatların yerləşdirilməsinin qarşısının alınması.

13-4.12. 16-18 yaş arası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır.

13-4.13. Provayder hər təqvim ili üzrə bu Qanunun 13-4.10-cu və 13-4.11-ci maddələrində nəzərdə tutulmuş tələblərin icrası, habelə fərdi rəqəmsal hesabın yaradılmasından imtina hallarının statistikası barədə illik məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) növbəti ilin yanvarın 15-dək təqdim etməlidir.

13-4.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) platformalardan bu Qanunun tələblərinə uyğun istifadənin, belə istifadə zamanı uşaqların hüquqlarının müdafiəsinin və zərərli məzmunlardan qorunmasının təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə tədbirlərini həyata keçirirlər.

**Maddə 13-5. Provayderin Azərbaycan Respublikasında fəaliyyəti**

13-5.1. Azərbaycan Respublikasının ərazisindəki istifadəçilərə xidmətlər təklif edən provayder fiziki şəxs olduqda vergi uçotuna, hüquqi şəxs olduqda isə (xarici hüquqi şəxsin isə filial və ya nümayəndəliyi yaradılaraq) "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmalıdır.

13-5.2. Provayder dövlət qurumlarının onunla asan və operativ əlaqə saxlamasına imkan verən əlaqə mərkəzi yaratmalı, bu barədə ictimai məlumatlandırmanı həyata keçirməli və əlaqə mərkəzinə rəsmi dövlət dili ilə müraciət imkanını təmin etməlidir.

13-5.3. Xarici hüquqi şəxs olan provayderin Azərbaycan Respublikasının ərazisində yaratdığı filial və ya nümayəndəlik Azərbaycan Respublikasının ərazisində provayderin adından sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz.

13-5.4. Xarici hüquqi şəxs olan provayder Azərbaycan Respublikasının ərazisində yaratdığı filial və ya nümayəndəliyə onu dövlət orqanları (qurumları) ilə, fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil etmək, hüquqlarını və qanuni mənafelərini qorumaq səlahiyyəti, eyni zamanda fəaliyyəti üçün zəruri resurslar verir.

13-5.5. Provayder müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 13-4-cü maddəsində qeyd edilən tələblərin təmin edilməsi ilə bağlı göndərdiyi sorğuları 5 (beş) iş günü ərzində cavablandırmalı, sorğu edilən məlumatları tam və dürüst formada təqdim etməlidir.

13-5.6. Bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbi bu Qanunun 13-4.1-ci maddəsində qeyd edilən siyahıya daxil edildikdən (siyahı qanuni qüvvəyə mindikdən) sonra 6 (altı) ay ərzində yerinə yetirməyən provayderə münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşağıdakı tədbirlər həyata keçirilir:

13-5.6.1. provayderə yazılı xəbərdarlıq edilir;

13-5.6.2. xəbərdarlıqdan sonra 30 (otuz) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə provayderə 100 (yüz) min manat məbləğində maliyyə sanksiyası tətbiq edilir;

13-5.6.3. bu Qanunun 13-5.6.2-ci maddəsində nəzərdə tutulan maliyyə sanksiyasının tətbiq edilməsindən 30 (otuz) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə provayderə 300 (üç yüz) min manat məbləğində əlavə maliyyə sanksiyası tətbiq edilir;

13-5.6.4. bu Qanunun 13-5.6.3-cü maddəsində nəzərdə tutulan maliyyə sanksiyasının tətbiq edilməsindən 30 (otuz) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə dövlət orqanları (qurumları), habelə Azərbaycan Respublikasında vergi ödəyicisi olan fiziki və ya hüquqi şəxslər tərəfindən müvafiq platformada reklam yerləşdirməsinin qadağan edilməsi ilə bağlı qərar qəbul edilir;

13-5.6.5. bu Qanunun 13-5.6.4-cü maddəsi ilə qadağanın tətbiq edildiyi tarixdən sonra 90 (doxsan) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə müvafiq platformanın internet trafik həcminin 20 (iyirmi) faiz azaldılması üçün məhkəməyə müraciət təmin edilir;

13-5.6.6. bu Qanunun 13-5.6.5-ci maddəsində göstərilən müraciət əsasında qəbul edilən məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra 60 (altmış) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə müvafiq platformanın internet trafik həcminin 50 (əlli) faiz azaldılması təmin edilir;

13-5.6.7. bu Qanunun 13-5.6.6-cı maddəsində göstərilən tədbirin tətbiqindən sonra 60 (altmış) gün ərzində bu Qanunun 13-5.1-ci maddəsində göstərilmiş tələbin yerinə yetirilməməsinə görə müvafiq platformanın internet trafik həcminin 90 (doxsan) faiz azaldılması təmin edilir.

13-5.7. Bu Qanunun 13-5.1-ci maddəsinin tələbləri (bu Qanunun 13-5.6.6-cı maddəsində qeyd edilən məhdudiyyət tətbiq edilənədək) yerinə yetirildiyi halda bu Qanunun 13-5.6.2-ci və 13-5.6.3-cü maddələrində göstərilən maliyyə sanksiyaları dörddəbir məbləğində tətbiq olunur (maliyyə sanksiyaları ödənildiyi halda dörddəüç hissəsi geri qaytarılır) və bu Qanunun 13-5.6.4-cü, 13-5.6.5-ci, 13-5.6.6-cı və 13-5.6.7-ci maddələrində göstərilən məhdudiyyətlər 24 (iyirmi dörd) saat ərzində aradan qaldırılır.

13-5.8. Bu Qanunun 13-5.6.5-ci maddəsində göstərilən müraciətə məhkəmə 5 (beş) gün müddətində baxır və qərar qəbul edir. Qərar qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

13-5.9. Bu Qanunun 13-5.6.2-ci və 13-5.6.3-cü maddələrində göstərilən maliyyə sanksiyalarının ödənilməsi üzrə bu Qanunun 13-5.7-ci maddəsində qeyd edilən güzəşt provayderlərə həmin sanksiyalar tətbiq olunduqdan sonra 6 (altı) ay ərzində icra edildikdə şamil olunur.";

2.3. 13-6-cı maddə üzrə:

2.3.1. adına "yerləşdirilməsi" sözündən sonra "və platformanın fəaliyyəti ilə bağlı tələblərin pozulması" sözləri əlavə edilsin;

2.3.2. mətninə "istifadəçiləri" sözündən sonra "və provayderlər" sözləri əlavə edilsin.

**Maddə 3.** "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2220 (Cild I); Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 10.4-cü maddə əlavə edilsin:

"10.4. Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında 16 yaşına çatmış şəxslərin qeydiyyatı, habelə texniki və təhlükəsizlik tədbirlərinin tətbiqi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

**Maddə 4. Keçid müddəalar**

4.1. Bu Qanunun 4.2-ci maddəsi nəzərə alınmaqla, bu Qanun dərc edildiyi gündən on iki ay sonra qüvvəyə minir.

4.2. Provayderlər bu Qanun qüvvəyə minənədək yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında (və həmin platformalarda yaradılan fərdi rəqəmsal hesablarda) yaş həddinin müəyyən edilməsi ilə bağlı rəqəmsal həllərin tətbiqi üçün texniki imkanları təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

4.3. Provayderlər bu Qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-4.1-ci, 388-4.2-ci və 388-4.3.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 388-4.1-ci və 388-4.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 388-4.3.5-ci maddəsində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.1-ci maddəsinin ikinci cümləsində, 13-4.4-cü, 13-4.10-cu, 13-4.13-cü, 13-4.14-cü, 13-5.5-ci və 13-5.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 13-5.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti (həmin Qanunun 13-5.6.4-cü maddəsinə münasibətdə) və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (həmin Qanunun 13-5.6.1-13-5.6.3-cü, 13-5.6.5-13-5.6.7-ci maddələrinə münasibətdə) nəzərdə tutulur;

1.6. həmin Qanunun 13-4.1-ci maddəsinin ikinci cümləsində, 13-4.13-cü və 13-5.5-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 13-4.4-cü maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti birlikdə həyata keçirirlər;

1.8. həmin Qanunun 13-4.10-cu maddəsində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Qanunun 13-4.14-cü maddəsində "orqanlar (qurumlar)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzərdə tutulur;

1.10. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanunun 4.2-ci və 4.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.11. həmin Qanunun 4.2-ci və 4.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının siyahısını beş ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Media və Yayım Şurasına tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanunu qüvvəyə mindikdən sonra "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.14-cü maddəsinə uyğun olaraq, yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarından həmin Qanunun tələblərinə uyğun istifadənin, belə istifadə zamanı uşaqların hüquqlarının müdafiəsinin və zərərli məzmunlardan qorunmasının təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə tədbirlərini həyata keçirsin.

5. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390 (Cild I); 2024, №7, maddə 808) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "abzaslarında" sözündən sonra ", 13-4.1-ci maddəsinin ikinci cümləsində, 13-4.4-cü, 13-4.10-cu, 13-4.13-cü, 13-4.14-cü, 13-5.5-ci, 13-5.6-cı maddələrində" sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 2.1-3-cü bəndəlavə edilsin:

"2.1-3. həmin Qanunun 13-5.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti (həmin Qanunun 13-5.6.4-cü maddəsinə münasibətdə) və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (həmin Qanunun 13-5.6.1-13-5.6.3-cü, 13-5.6.5-13-5.6.7-ci maddələrinə münasibətdə) nəzərdə tutulur;";

5.3. aşağıdakı məzmunda 2.3-1-2.3-3-cü bəndlər əlavə edilsin:

"2.3-1. həmin Qanunun 13-4.4-cü maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti birlikdə həyata keçirirlər;

2.3-2. həmin Qanunun 13-4.10-cu maddəsində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.3-3. həmin Qanunun 13-4.14-cü maddəsində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzərdə tutulur;";

5.4. 2.4-cü bəndə "Qanunun" sözündən sonra "13-4.1-ci maddəsinin ikinci cümləsində, 13-4.13-cü, 13-5.5-ci maddələrində," sözləri əlavə edilsin.

6. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123, № 3, maddələr 221, 223, 226, № 4, maddə 306; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 7 iyul tarixli 715 nömrəli və15 iyul tarixli 722 nömrəli fərmanları) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.1-ci bəndə "393-1.4," rəqəmlərindən əvvəl "388-4.1, 388-4.2, 388-4.3.5," rəqəmləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 4.29-2-ci və 4.29-3-cü bəndlər əlavə edilsin:

"4.29-2. həmin Məcəllənin 388-4.1-ci və 388-4.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

4.29-3. həmin Məcəllənin 388-4.3.5-ci maddəsində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;".

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036;2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226, № 4, maddə 307; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 2 iyun tarixli 676 nömrəli,19 iyun tarixli 686 nömrəli və 15 iyul tarixli 722 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 26-cı hissədə "və 370-2-ci" sözləri ", 370-2 və 388-4-cü(bu Fərmanın 31-13-cü hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

7.2. aşağıdakı məzmunda 31-13-cü hissə əlavə edilsin:

"31-13. Məcəllənin 388-4.3.4-cü və 388-4.3.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından - bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

8. Bu Fərmanın 1-ci və 5-7-ci hissələri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 431-VIIQD nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" 2007-ci il 6 iyun tarixli 586 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26, № 4 (I kitab), maddə 333, № 12 (I kitab), maddə 1136) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 6.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"6.5. Dövlət mülkiyyətində olan və vahidinin (dəstinin) ilkin dəyəri 5000 (beş min) manatdan yuxarı olan əsas vəsaitlərin ayrı-ayrı dövlət orqanları və dövlət mülkiyyətində olan hüquqi şəxslər arasında bir-birinə verilməsi (əsas vəsaitlərin eyni dövlət qurumunun tabeliyindəki dövlət mülkiyyətində olan hüquqi şəxslər arasında bir-birinə verilməsi halı istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar, o cümlədən "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinə uyğun olaraq birinci instansiya məhkəmələrinin maliyyə və digər maddi-texniki təminatı ilə bağlı məsələləri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin həll etdiyi hallar istisna olmaqla, Dövlət Xidmətinin rəyi alındıqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul olunan qərarlar əsasında həyata keçirilir. Dövlət mülkiyyətində olan və vahidinin (dəstinin) ilkin dəyəri 5000 (beş min) manat və ondan aşağı olan əsas vəsaitlərin ayrı-ayrı dövlət orqanları və dövlət mülkiyyətində olan hüquqi şəxslər arasında bir-birinə verilməsi Dövlət Xidmətinin yazılı razılığı alındıqdan sonra həmin dövlət orqanlarının və dövlət mülkiyyətində olan hüquqi şəxslərin qərarları əsasında həyata keçirilir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinə uyğun olaraq birinci instansiya məhkəmələrinin maliyyə və digər maddi-texniki təminatı məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən birinci instansiya məhkəmələrinə əsas vəsaitlərin verilməsi Dövlət Proqramının 6.9-cu bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.".

2. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938; 2025, № 2, maddə 119, № 3, maddə 225, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"nin 3.0.33-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.0.33. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət orqanlarına, tabeliyindən və sahə mənsubiyyətindən asılı olmayaraq, dövlət mülkiyyətində olan hüquqi şəxslərə məxsus əsas vəsaitlərin normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada balansdan balansa verilməsinə razılıq (rəy) vermək və silinməsinə dair rəy vermək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2026-cı il*

# "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 578 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 254** **Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 578 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 10 aprel tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 306 (Cild I); 2026, № 2, maddə 189) ilə təsdiq edilmiş "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitinin idarə olunması, uçotunun aparılması və istifadəsi Qaydaları"nın 1.2-ci bəndində "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 dekabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1769) ilə təsdiq edilmiş "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. İnformasiya sistemi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla) fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"na (bundan sonra - Qayda) əsasən "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Fond) Nizamnaməsinə uyğun olaraq sahibkarlıq subyektlərinə müvəkkil təşkilatlar vasitəsilə təqdim olunan dəstək mexanizmlərinin həyata keçirilməsi ilə bağlı prosedurların elektron qaydada icra olunmasını təmin edən sistemdir.";

2.2. 2.1.4-cü yarımbənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.3. 6.2-ci bənddə və 8.1.19-cu yarımbənddə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 19 dekabr tarixli 207 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 255** **Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 19 dekabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1253 (Cild I); 2025, № 7, maddə 712) ilə təsdiq edilmiş "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Məlumat bankının Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Məlumat bankının "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 257** **Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 636 (Cild I); 2024, № 1, maddə 75, № 5 (II kitab), maddə 586, № 12 (II kitab), maddə 1460; 2025, № 11, maddə 1103) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nın 2.15-ci bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi Qaydası"nın və "Rəqabət orqanı tərəfindən təmərküzləşmələrin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 258** **Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Rəqabət orqanı tərəfindən təmərküzləşmələrin qiymətləndirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# İcra olunan layihələr sübut edir ki, Azərbaycan öhdəliklərə məsuliyyətlə yanaşır

**"Azərbaycan dövlətinin həyata keçirdiyi regional yol və nəqliyyat layihələri ölkənin üzərinə götürdüyü öhdəliklərə nə qədər məsuliyyətlə yanaşdığını nümayiş etdirir. Xüsusilə dəmir yolu xətlərinin və avtomobil yollarının qısa müddət ərzində yüksək icra səviyyəsinə çatdırılması Azərbaycanın böyük infrastruktur layihələrini planlı, ardıcıl və səmərəli şəkildə həyata keçirdiyini göstərir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Novruzəli ASLANOV** söyləyib.

O bildirib ki, Zəngəzur layihəsi üzrə hazırda əsas istiqamətlər üzrə aparılan işlərin sürətlə davam etdirilməsi ölkənin nəqliyyat imkanlarının genişləndirilməsinə, regionların inkişafına və yeni iqtisadi bağlantıların yaradılmasına mühüm töhfə verir. Layihələrin 2027-ci ilin əvvəlinədək Ermənistan sərhədinə qədər çatdırılmasının planlaşdırılması Azərbaycanın bu prosesə strateji yanaşdığını və qarşıya qoyulan hədəfləri vaxtında yerinə yetirmək iradəsini ortaya qoyur. Bu, eyni zamanda Azərbaycanın nəqliyyat sahəsində son illər əldə etdiyi mühüm uğurların göstəricisidir. Ölkəmiz müasir yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində böyük layihələr həyata keçirərək regional və beynəlxalq nəqliyyat bağlantılarında mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib.

"Yeni avtomobil yollarının, dəmir yolu xətlərinin və logistika imkanlarının inkişafı Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində etibarlı tərəfdaş kimi rolunu artırır. Bu uğurlar ölkənin iqtisadi potensialının, texniki imkanlarının və strateji inkişaf baxışının nəticəsidir. Nəqliyyat infrastrukturunun inkişafı yalnız yol və dəmir yolu xətlərinin çəkilməsi ilə məhdudlaşmır, eyni zamanda Azərbaycanın regional əməkdaşlıq və iqtisadi inteqrasiya proseslərinə verdiyi töhfəni göstərir. Bu layihələr bölgədə yeni imkanların yaranmasına, ticarət əlaqələrinin genişlənməsinə və insanların rahat hərəkətinin təmin olunmasına xidmət edir.

Azərbaycanın öz ərazisində bütün zəruri infrastrukturu sürətlə qurması onun həm maliyyə imkanlarını, həm texniki potensialını, həm də yüksək idarəçilik qabiliyyətini nümayiş etdirir. Ölkə üzərinə düşən öhdəlikləri ardıcıl şəkildə yerinə yetirərək regional nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaş kimi çıxış edir.

Bu baxımdan həyata keçirilən bu layihələr Azərbaycanın iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Müasir nəqliyyat şəbəkəsinin formalaşdırılması ölkənin regional mövqeyini daha da gücləndirir, yeni iqtisadi perspektivlər yaradır və Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsində rolunu artırır", - deyə deputat əlavə edib.

# Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsi Xəzər vasitəsilə davam edə bilər

**Bakının Mərkəzi Asiya dövlətləri ilə əlaqələri son illər ənənəvi diplomatiyadan daha geniş çərçivədə inkişaf edib. Qazaxıstan və Özbəkistanla müttəfiqlik münasibətləri qurulub və regionun digər dövlətləri ilə strateji tərəfdaşlıqlar möhkəmlənir. Qırğızıstanla münasibətlər artıq yeni səviyyəyə çatıb. Siyasi bəyannamələr nəqliyyat, enerji, investisiya, rəqəmsal texnologiya və ticarət sahələrində konkret layihələrlə dəstəklənir.**



Bu barədə AZƏRTAC-a **beynəlxalq münasibətlər və beynəlxalq hüquq üzrə ekspert, Kahramanmaraşdakı Sütçü İmam Universitetinin professoru Toğrul İSMAYIL** bildirib.

Onun sözlərinə görə, bu proseslər, sadəcə, ikitərəfli əməkdaşlıq məsələsi deyil, tədricən region dövlətlərini birləşdirən qarşılıqlı əlaqələr şəbəkəsi yaranır. Bu, yeni regional siyasətin əsas xüsusiyyətidir.

Professor qeyd edib: "Bu prosesdə türk amilinin əhəmiyyətini qiymətləndirməmək olmaz. Ortaq tarix, dil və mədəniyyət Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında etimad üçün unikal təməl yaradır. Türk Dövlətləri Təşkilatı da siyasi, iqtisadi və humanitar qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayır. Lakin davam edən prosesləri təkcə mədəni və tarixi yaxınlıqla izah etmək olmaz. Bu gün baş verən yaxınlaşma obyektiv geosiyasi və geoiqtisadi maraqlara daha çox əsaslanır. Mərkəzi Asiya dövlətləri nəqliyyat marşrutlarının şaxələndirilməsində, qlobal bazarlara çıxışın genişləndirilməsində, investisiyaların cəlb edilməsində və enerji təhlükəsizliyinin gücləndirilməsində maraqlıdır. Azərbaycan isə nəqliyyat, enerji və logistika mərkəzi kimi rolunu genişləndirməkdə maraqlıdır. Bu maraqlar üst-üstə düşür. Buna görə də mədəni yaxınlıq təməl yaradır, geoiqtisadiyyat isə onu real strateji sistemə çevirir".

Qırğız Respublikasının bu baxımdan xüsusi yerə malik olduğunu əlavə edən Toğrul İsmayıl qeyd edib ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsi Mərkəzi Asiyanın nəqliyyat coğrafiyasını əhəmiyyətli dərəcədə dəyişdirmək potensialı daşıyır. O vurğulayıb: "Bu layihə perspektivdə Xəzər dənizi, Azərbaycan və daha da irəliyə - Türkiyə və Avropaya doğru genişləndirilə bilər. Nəticədə uzun müddət Mərkəzi Asiyanın dərinliklərində yerləşən dövlət kimi qəbul edilən Qırğızıstan Qərb bazarlarına daha çox birbaşa çıxış əldə edəcək. Bu, həmçinin Azərbaycan üçün yeni imkanlar açır. Bakı Mərkəzi Asiyanın böyüyən nəqliyyat şəbəkəsinin qərb uzantısına çevrilir. Zəngəzur marşrutu bu sistemin daha da vacib elementi ola bilər. Əgər Orta dəhliz Xəzər dənizi boyunca şərq-qərb oxunu təşkil edərsə, Zəngəzurdan keçən nəqliyyat marşrutlarını birləşdirmək Azərbaycan, onun Naxçıvan bölgəsi, Türkiyə və Avropa regionu arasındakı əlaqəni daha da gücləndirə bilər. Bu marşrutlar birlikdə daha davamlı və şaxələndirilmiş nəqliyyat sistemi yarada bilər".

Türkiyəli professor əlavə edib ki, bir sadə geosiyasi prinsipi anlamaq vacibdir; müasir dünyada hər hansı bir dövlətin əhəmiyyəti təkcə coğrafi mövqeyi deyil, həm də onun tranzit imkanları ilə müəyyən edilir. Məhz buna görə də Azərbaycanın geosiyasi əhəmiyyəti tədricən Cənubi Qafqazın hüdudlarından kənara çıxır.

"Cəmi bir neçə onillik əvvəl Azərbaycanın beynəlxalq siyasətdəki rolu enerji resursları və Cənubi Qafqazdakı strateji mövqeyi ilə daha çox müəyyən edilirdi. Bu gün həmin rol xeyli genişlənir. Azərbaycan həmçinin Avropa üçün enerji tərəfdaşı, Xəzər regionunda mühüm dövlət, Orta dəhlizin nəqliyyat mərkəzi, Mərkəzi Asiyanın tərəfdaşı və Şərq ilə Qərb arasında əlaqə vasitəsidir. Beləliklə, coğrafi mövqe tədricən yeni nəsil geosiyasi resursa çevrilir", - deyə Toğrul İsmayıl sözlərini yekunlaşdırıb.

# Bakıda "Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı" keçiriləcək

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) və Türk Dövlətləri Təşkilatının (TDT) birgə təşkilatçılığı ilə sentyabrın 16-da "Gülüstan" sarayında "Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı" keçiriləcək.**

İİTKM-dən AZƏRTAC-a bildirilib ki, "Türk Dövlətləri Təşkilatında iqtisadi əməkdaşlığın davamlı məsləhətləşmələr və birgə tədqiqatlar vasitəsilə gücləndirilməsi" mövzusuna həsr olunmuş konfrans qlobal iqtisadi sistemdə baş verən transformasiyalar fonunda türk dövlətləri arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, ortaq tədqiqat platformalarının yaradılması və institusional əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır.

Tədbir yüksəksəviyyəli beynəlxalq platforma kimi dövlət qurumlarının nümayəndələrini, aparıcı analitik mərkəzlərin rəhbərlərini, akademik dairələri, beynəlxalq təşkilatların təmsilçilərini, maliyyə institutlarını və biznes ictimaiyyətini bir araya gətirəcək. Konfransın məqsədi yalnız elmi və analitik müzakirələrin təşkili deyil, həm də türk dünyasında uzunmüddətli tədqiqat şəbəkələrinin formalaşdırılması, ekspertlər arasında davamlı dialoqun inkişaf etdirilməsi və siyasət qərarlarının elmi əsaslarla dəstəklənməsinə töhfə verməkdir.

Konfrans proqramına uyğun olaraq üç əsas panel təşkil olunacaq. Birinci paneldə Orta dəhlizin regional inteqrasiya və infrastruktur əsaslı inkişafın katalizatoru kimi rolu, ikinci paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasında ticarət-iqtisadi əlaqələrin mövcud vəziyyəti və inkişaf potensialı, üçüncü paneldə isə dayanıqlı inkişaf naminə innovasiya, iqtisadi transformasiya, rəqəmsallaşma və süni intellekt əsaslı inkişaf modelləri müzakirə ediləcək. Panel sessiyalarında Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin aparıcı beyin mərkəzlərinin rəhbərləri, tanınmış alimlər və beynəlxalq ekspertlər çıxış edəcəklər.

"Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı"nın nəticələrinin türk dünyasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə, ortaq iqtisadi məkanın formalaşmasına, tədqiqat və innovasiya əməkdaşlığının genişlənməsinə, eləcə də "Türk Dünyası Vizyonu-2040" sənədində müəyyən edilmiş strateji hədəflərin həyata keçirilməsinə töhfə verəcəyi gözlənilir.

# AĞIR DAŞLI AZƏRBAYCAN



**Azərbaycanın daşı ağırdır!**

**Kimin başına düşsə, altından çıxa bilmir!**

Bunu sözgəlişi xatırlatdıq.

*Söhbət isə hərbi-siyasi məsələlərdən, beynəlxalq hüquq və ədalətdən, bütövlükdə ikili standartlardan gedir.*

❖ ❖ ❖

**Bəs görəsən Azərbaycanın daşı niyə bu qədər sanballı və ağırdır!**

*Axı Azərbaycan bir o qədər də böyük ölkə deyil, ərazisi 86,6 min kvadratkilometr, əhalisi isə 10 milyon nəfərdir.*

**Azərbaycan gördüyü möhtəşəm işlərə, əlimyandıda olan digər dövlətlərə göstərdiyi köməyə, öz gücü ilə reallaşdıraraq dünyanın bir çox dövlətinə böyük faydalar gətirən transmilli layihələrə, irəli sürdüyü təşəbbüslərə görə ağır daşlıdır!**

**Bütün bunların müəllifi isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir!**

İndi isə daşımızı ağır edən səbəblərə və gördüyümüz işlərə keçək.

Müstəqilliyimizin ilk illəri çox ağır və keşməkeşli oldu.

*Dövlətə maymaq, qorxaq, təcrübəsiz və səriştəsizlərin başçılıq etməsi ölkəni fəlakətlər girdabına yuvarlatdı, Azərbaycanı parçalanmaq, əvvəllərdəki kimi kiçik xanlıqlara bölünmək həddinə çatdırdı.*

**Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtması labüd fəlakətlərin qarşısını aldı.**

*Azərbaycana qənim kəsilən qüvvələr iki dəfə dövlət çevrilişinə cəhd göstərdilər, Heydər Əliyevə sui-qəsdlər təşkil etdilər.*

**Lakin Ulu Tanrı rəhbərimizi qorudu, xalq isə arxasında möhkəm dayandı!**

**Ulu Öndər Heydər Əliyev dövlət çevrilişi cəhdlərini puça çıxardı, Azərbaycanda möhkəm və dönməz sabitlik yaratdı.**

* Qanunsuz silahlı birləşmələr ləğv edildi.

* Əhalidəki külli miqdarda silah-sursat yığıldı.

* Müstəqilliyimiz əbədiliyə və dönməzliyə çevrildi.

* İqtisadiyyatın gələcək inkişafını təmin edəcək "Əsrin müqaviləsi" neft kontraktını imzalatdı.

* Azərbaycanın inkişafını müəyyənləşdirən siyasi kurs yaratdı.

Tale bundan artığına imkan vermədi!

❖ ❖ ❖

**Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev başlanmış işləri uğurla davam etdirdi, müstəqil Azərbaycanı yeni zirvələrə ucaltdı!**

*Ulu Öndər Heydər Əliyevin əzmi, müdrikliyi və uzaqgörənliyi sayəsində ənənəvi marşrutdan yan keçən əsas neft boru kəməri Bakı-Tbilisi-Ceyhanın çəkilişi ilə Azərbaycan karbohidrogen ehtiyatlarını birbaşa dünya bazarına çıxarmaq imkanı qazandı.*

Bakı-Tbilisi-Ceyhan bu gün də uğurla fəaliyyət göstərir.

**Cənab İlham Əliyevin prezidentliyi dövründə isə Bakı-Tbilisi-Qars dəmir yolu işə salındı.**

Sonra Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri işə düşdü.

Bir qədər keçmiş bu kəmərin imkanları yeni qolların çəkilməsi sayəsində genişləndirildi, "Cənub qaz dəhlizi"nə çevrildi.

Hazırda 10-u Avropa İttifaqı üzvü olmaqla bu kəmər 16 dövlətə Azərbaycan qazı aparır.

**Boru kəmərləri vasitəsilə qaz ixracı sayəsində Azərbaycan dünyada birincidir!**

*Çindən başlayaraq Mərkəzi Asiyadan keçməklə yükdaşımaların Qərbə çatdırılmasına xidmət edən, daha təhlükəsiz sayılaraq xeyli vaxta və vəsaitə qənaət imkanı yaradan Orta dəhlizin işə salınmasına da az qalıb.*

Bu marşrutun da müəllifi Azərbaycandır!

**Cənab İlham Əliyev Azərbaycanı dünyaya həm də idman ölkəsi kimi tanıtdı!**

* Ölkəmiz I Avropa Oyunlarının ən yüksək səviyyədə təşkili və keçirilməsi sayəsində tarix yazdı.

* IV İslam Həmrəyliyi Oyunları yaddaşlara əbədi həkk olundu.

* "Formula-I" yarışlarının Azərbaycanda keçirilməsi artıq ənənə halını almışdır.

*Azərbaycan həm də beynəlxalq tədbirlərin uğurla baş tutduğu və müntəzəm keçirildiyi bir məkana çevrilib.*

**Bütün bu nailiyyətlərin zirvəsində isə II Qarabağ müharibəsində qazandığımız möhtəşəm Zəfər dayanır!**

**44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 illik işğala son qoyuldu!**

Düşmən ordusu darmadağın etdirilərək diz çökdürüldü, kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamağa vadar edildi!

Hələ bu harasıdır!

23 aprel 2023-cü ildə Azərbaycan Ordusu daha bir unikal əməliyyatla Həkəri çayı üzərində körpüdə yerləşən düşmən postunu ələ keçirdi, şər yoluna çevrilən Laçın qapısını birdəfəlik bağladı.

*Beləliklə, ərazi bütövlüyümüz təmin olundu, 19-20 sentyabrda bir neçə saat ərzində başa çatan antiterror tədbirləri nəticəsində isə dövlət suverenliyinə və konstitusiya əsaslarının bərpasına nail olundu.*

* Ərazimizdə yerləşən Ermənistan ordusunun tör-töküntüləri və terrorçu dəstələri ağ bayraq qaldıraraq diz çökdülər, bizdən aman dilədilər!

* Azərbaycan təslim olan hərbçilərin və qanunlarımız əsasında yaşamağa razılıq verən mülki vətəndaşların qalmalarına şərait yaratsa da, onlar bundan imtina edərək könüllü şəkildə ölkəmizi tərk etdilər.

* Azərbaycan Ordusu Ermənistan vətəndaşlığında olan bu insanların sağsalamat getmələrinə normal şərait yaratdı.

* Qondarma "dqr"də müxtəlif vəzifələr tutan, azərbaycanlılara qarşı soyqırımlarında iştirak edən, terrorçu dəstələri yaradaraq onları silahlandıran və maliyyələşdirən, əsir düşən mülki vətəndaşlarımıza qarşı qəddarlıq göstərən və qətlə yetirən, habelə digər cinayətlərdə iştirak edənləri isə açıq məhkəmə iclaslarında mühakimə edərək layiqli cəzalarına çatdırdılar.

*Müharibədə qalib gəlsə də, sülh təklifləri ilə çıxış edərək sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı da məhz Azərbaycandır.*

**Azərbaycan qalib və qürurlu dövlətdir!**

*Heç zaman heç kəsdən nəsə istəmir, heç bir qurumdan kredit almaq üçün boyun əymir!*

Əksinə, bütün beynəlxalq qurum və təşkilatlar onu öz sıralarında görmək istəyirlər.

**Azərbaycan TDT-nin yaranmasının və ona yeni nəfəs verilməsinin, fəaliyyətinin genişləndirilməsinin təşəbbüskarlarından və təşkilatçılarından biridir.**

Bütün dünya TDT-nin institusional inkişafında mühüm keyfiyyət dəyişikliyinin baş verməsinin, artıq təşkilatın ideoloji və mədəni platformadan real geosiyasi aktora çevrilməsinin şahididir.

**Cənab İlham Əliyev açıq bəyan etmişdir:**

*"Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".*

Həm də mühüm vəzifə irəli sürmüşdür.

"Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik."

**Azərbaycan "xristian evi" sayılan Avropa İttifaqına üzv olmaq barədə heç düşünmür də!**

Nə onu gözləməyənlərin olduğu yerə gedir, nə də kimsənin qapısında boyun bükməyi özünə sığışdırır!

Əvəzində onu öz sıralarında görmək istəyənlərlə əməkdaşlıq qurur.

Azərbaycanın rəsmi üzvü olduğu mötəbər beynəlxalq və regional təşkilatlara bir daha diqqət çəkirik:

* Birləşmiş Millətlər Təşkilatı;
* Qoşulmama Hərəkatı;
* İslam Əməkdaşlıq Təşkilatı;
* İqtisadi Əməkdaşlıq Təşkilatı;
* D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı;
* Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı;
*Asiya Dövlət Başçılarının Məşvərət Görüşü;
*Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM).

Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin iclasındakı nitqində açıq şəkildə bildirmişdir:

*"Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər?"*

❖ ❖ ❖

**Müstəqilliyin ilk illərində dünyada ədalətin olduğuna, beynəlxalq qurum və təşkilatların beynəlxalq hüququn norma və prinsipləri əsasında işlədiyinə inanırdıq.**

Sən demə...

*İlk zərbəni ABŞ-dən aldıq!*

**Hərbi təcavüzə məruz qalan, torpaqları Ermənistan ordusu tərəfindən işğal edilən Azərbaycana qarşı ABŞ-nin birbaşa dövlət yardımını qadağan edən Azadlığı Müdafiə Aktına 907-ci düzəliş qəbul edildi.**

*Necə deyərlər - yanan da biz olduq, yaman da.*

**İllər sonra isə - 2001-ci ilin yanvarında böyük ümidlərlə Avropa Şurasına üzv olduq.**

*Münaqişəni sülh yolu ilə həlli vəzifəsini yerinə yetirəcək ATƏT-in Minsk qrupu yaradılanda isə sevincimiz yerə-göyə sığmadı!*

Bəs necə?!

Avropa bu işi beynəlxalq hüquq əsasında görəcəyinə söz verərək ayrıca bir təşkilat yaradır!

Pah atonnan!

Necə də sevinməyəsən!

**Üç böyük dövlət - ABŞ, Fransa və Rusiya bu işə girişir.**

Amma neyləyəsən...

Uzun illər davam edən "turist səfərləri" tut arağı və donuz kababı ilə yekunlaşırdı.

*Hələ dünyanın "ən böyük və nüfuzlu" qurumu sayılan BMT-ni demirik.*

*1993-cü ildə Ermənistan silahlı qüvvələrinin "qeyd-şərtsiz" Azərbaycan ərazilərindən çıxarılması barədə - 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul etdi.*

Yenə də sevindik.

Dedik daha dünyada bundan böyük təşkilat yoxdur!

Bir ildə 4 qətnamə qəbul edibsə, məsələ bitir!

Azərbaycana gələndə isə...

**Bəzən qətnamələrin mürəkkəbi qurumamış əməli işə keçən "ən nüfuzlu qurum" düz 27 il səbir göstərərək əlini ağdan-qaraya vurmadı!**

Belə "fəaliyyəti"nin nəticəsidir ki, artıq adi təşkilatlardan birinə çevrilib və çəkilib bir qırağa!

**Çünki ağzına baxan yoxdur!**

*Ədalətsiz müharibələr də gedir, insan hüquqları da kütləvi şəkildə ayaqlanır, beynəlxalq hüququ isə xatırlayan, saya salan qalmayıb!*

**Cənab İlham Əliyev üzərinə qoyulan vəzifənin öhdəsindən gələ bilməyən, "sülh danışıqları" adı altında oyun oynayan ATƏT-in Minsk qrupunun fərsiz bir qurum tək tarixin arxivinə verilməsinə nail oldu!**

Qalan qurumlar isə... necə deyərlər "it əl çəkir, motal əl çəkmir!"

❖ ❖ ❖

**44 günlük Zəfər müharibəsinin əsl qəhrəmanına çevrilən Müzəffər Ali Baş Komandan İlham Əliyev "Qarabağ məsələsi birdəfəlik və əbədi həll olunub" deyə bəyan edib!**

Həm də bu problemi Azərbaycan öz gücü, öz imkanları sayəsində çözüb!

*Ermənistanın Baş naziri N.Paşinyan da İrəvanda keçirilən "Avropa Şurası Birliyi"nin 8-ci Zirvə toplantısındakı çıxışında artıq Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olduğunu, son iki ildə heç bir tərəfdən tələfat baş vermədiyini xatırlatdı, hər iki ölkə arasında sülhü gücləndirmək və institusionallaşdırmaq məqsədilə tərəflərin sıx şəkildə çalışdığını söylədi.*

**İşğal illərində BMT-nin 4 qətnaməsini yada salaraq "özgə torpaqlarından çıx" deməyən, 1 milyondan çox məcburi köçkünə çevrilərək çoxsaylı hüquqları pozulan Azərbaycan vətəndaşlarını yada salmayan, işğal etdiyi ərazilərdə urbisid, ekosid və genosid törədən Ermənistana qarşı bir qətnamə belə qəbul etməyən, onu beynəlxalq hüquqa əməl etməyə çağırmayan Avropa Parlamenti isə öz problemini özü həll edən Azərbaycana qarşı açıq qərəzini gizlətmir.**

*Korrupsiya və rüşvətxorluq bataqlığında boğulan, üzvləri dəfələrlə rüşvətxorluqda ittiham edilən, lobbiçiliyi gəlir mənbəyinə çevrilən bu qurum anti-Azərbaycan fəaliyyətini ilbəil gücləndirir.*

**2021-ci ilin mayından 2026-cı ilin 30 aprelinə qədər Avropa Parlamenti Azərbaycana qarşı 14 qərəzli və iftira dolu qətnamə qəbul edib.**

*Avropa Parlamenti əsas vəzifələrini unudaraq - ksenefobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, Azərbaycanı hədəfə götürərək bizə qarşı böhtan kampaniyası aparır.*

**Səbəb isə budur ki, öz gücümüzə ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edib, separatçılığa son qoyaraq xalqımıza qarşı müxtəlif cinayətlər törədənləri ədalət məhkəməsinə cəlb etmişik.**

*Bütün bu qərəzə və yumşaq desək düşmənçiliyə cavab olaraq Azərbaycan Parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı - Azərbaycan Parlamenti Əməkdaşlığı Komitəsinin işində iştiraka son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib.*

Milli Məclisin qərarında deyilir:

1. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun.

3. Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

❖ ❖ ❖

**Bəli, Azərbaycan öz qəti və kəskin qərarını verdi!**

*Biz qalib və qürurlu dövlət olduğumuza görə heç kəsdən yalançı iradlar qəbul etmək niyyətində deyilik!*

Azərbaycanla Ermənistan arasında yaranan və sülhə aparan əlaqə və əməkdaşlığın genişləndiyi, yeni münasibətlərin formalaşdığı bir zamanda Avropa Parlamenti bu qətnaməsi ilə əslində özünü gülünc vəziyyətə salmış olur:

* Azərbaycan birtərəfli qaydada Ermənistanı blokadadan çıxarıb.

* Artıq Rusiyadan və Ukraynadan alınan taxıl, gübrə və digər məhsullar Azərbaycan dəmir yolları vasitəsilə Ermənistana daşınır.

* Azərbaycan Ermənistana benzin və yanacaq satır.

* Baş nazir N.Paşinyan Qarabağı könüllü tərk etmiş Ermənistan vətəndaşlarının geri dönüşünü müzakirə məsələsi hesab etmir.

* Sərhədlərin delimitasiya və demarkasiyası aparılır.

* Bir müddət əvvəl Azərbaycanın rəsmi nümayəndə heyəti İrəvana gedərək Ermənistan rəsmiləri ilə görüşüb.

* Sülhə aparan saziş layihəsinin mətni isə ABŞ-də paraflanıb.

**Avropa Parlamentinin qərəzli gözləri nədənsə bütün bunları görmək istəmir!**

* Halbuki işğalın davam etdiyi 27 ildə bir dəfə də olsun Ermənistanı ədalətə və beynəlxalq hüquqa əməl etməyə çağırmayıb, cinayət əməllərini qınayan qətnamə çıxarılmasına təşəbbüs belə göstərməyib!

* Avropa Parlamenti indiyədək bir dəfə də olsun Ermənistan tərəfindən həqiqi mina xəritəsinin verilməməsi səbəbindən günahsız insanların öldüyünü və ömürlük əlil olduğunu dilinə belə gətirməyib, onların sayı isə 500-ə yaxındır.

* Yaxud 4 minədək itkin düşmüş vətəndaşın taleyi barədə susub, onların basdırıldıqları kütləvi məzarlıqların yerinin göstərilmədiyinə münasibət bildirməyib.

* Bütün bunlar Avropa Parlamentinin Azərbaycana münasibətdə qərəzli və riyakar mövqe tutduğunu sübut etmirmi?

*II Qarabağ müharibəsi dövründə Azərbaycan qanunları əsasında Azərbaycanda yaşamaq istəməyən hayları "qaçqına" bənzədərək onların "hüquqları"nı müdafiə etmək üçün indi yaxa cıranlar, 27 il məcburi köçkün həyatı yaşayan Azərbaycan vətəndaşlarının nə hüquqlarını müdafiə etdilər, nə də geriyə qaytarılmalı olduqları barədə hər hansı sənəd çıxardılar!*

İkili standartlardan yaranan bu ikili yanaşma, əslində, qərəzdən və riyakarlıqdan xəbər vermirmi?

**Lobbi qruplarının korporativ maraqlarının əsirinə çevrilən Avropa Parlamenti "Avropa dəyərlərinin qoruyucusu" funksiyasını itirdiyinin də fərqində deyil!**

❖ ❖ ❖

Bədxahlarımız əleyhimizə kampaniya aparmağa, hansısa qərəzli sənəd qəbul etməyə hər an fürsət gəzirlər.

*Əllərinə tutarlı fakt düşməyəndə isə özlərindən uydururlar.*

Menendesin "yurdu boş qalmayıb".

**Bu gün erməni diasporunun pul kisəsindən gizli yolla maliyyələşən ABŞ-dəki bəzi konqresmenlər şəxsi maraqları naminə dövlət siyasətinin əleyhinə getməkdən belə çəkinmirlər.**

*ABŞ Prezidenti Donald Trampın şahidliyi və dəstəyi ilə 8 avqust 2025-ci ildə Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri N.Paşinyan arasında sülhə xidmət edən mühüm sənədlərin imzalanması, Azərbaycanın 44 günlük müharibədə möhtəşəm zəfər çalması dünya erməniliyini, xüsusən ABŞ-dəki erməni diasporunu qətiyyən qane etmir.*

**Lakin qatar çoxdan gedib, Azərbaycan öz torpaqlarını silah gücünə geri qaytarıb!**

Erməni diasporu isə suyu bulandırmağa can atmaqdadır!

Korrupsiya və rüşvətxorluq halları dövlətin maraqlarını arxa plana keçirir...

*Məhz bunun nəticəsidir ki, 22 iyul 2026-cı ildə ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi Azərbaycandakı erməni hərbi canilərinin azad olunmasına çağırış edilməsinə dair H.R. 9087 nömrəli qanun layihəsi qəbul etmişdir.*

Menendes nəyə nail oldusa, xələfləri də ona nail olacaqlar!

*** Azərbaycan dövləti heç zaman heç kəsin sözü və ya "sənəd"i ilə milli maraqlarından keçmir!**

* Azərbaycan öz problemini özü həll edərək kimsədən minnət götürmür!

* Heç kəsdən də qorxub çəkinmir!

**Cənab İlham Əliyevin dediyi kimi:**

*"Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".*

**Bəxtiyar SADIQOV**



# Möhkəmlənən strateji tərəfdaşlıq, dərinləşən iqtisadi inteqrasiya

## Azərbaycan-Qırğızıstan münasibətləri keyfiyyətcə yeni dövrə qədəm qoyur

**Qlobal güc mərkəzləri arasında rəqabətin kəskinləşdiyi, ənənəvi təhlükəsizlik arxitekturasının və qlobal logistik marşrutların ciddi transformasiyaya uğradığı müasir dünya nizamında Mərkəzi Asiya və Xəzər hövzəsi artıq geniş geosiyasi fəaliyyət məkanına çevrilməkdədir. Şərqlə qərbi, şimalla cənubu birləşdirən bu strateji coğrafiyada sabitliyin, dayanıqlı inkişafın və müstəqil xarici siyasətin təmin olunması artıq regional çərçivələri aşaraq qlobal əhəmiyyət kəsb edir.**

Belə bir həlledici tarixi dönəmdə türk dünyasının iki mühüm geopolitik sütunu - Azərbaycan və Qırğızıstan, sadəcə, prosesləri izləyən tərəflər deyil, yeni Avrasiya reallığının aktiv memarları və inteqrasiya proseslərinin lokomotivləri kimi çıxış edirlər. Əsrlərin sınağından keçmiş ortaq tarixi yaddaş, sarsılmaz mənəvi köklər və səmimi qardaşlıq telləri üzərində ucalan Bakı-Bişkek münasibətləri artıq standart diplomatik tərəfdaşlıq formatını çoxdan geridə qoyub.

İyulun 31-də Qırğızıstanın əfsanəvi və rəmzi məkanlarından sayılan İssık-Kul gölünün sahilində, Çolpon-Ata şəhərində keçirilən Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının 3-cü iclası bu strateji yüksəlişin ən parlaq zirvə nöqtəsi oldu. Prezident İlham Əliyevin Qırğızıstana rəsmi dövlət səfəri çərçivəsində baş tutan bu tarixi sammit, iki qardaş ölkə arasındakı əlaqələri keyfiyyətcə tamamilə fərqli, dönməz və strateji bir mərhələyə daşıdı. Çolpon-Ata görüşü yaxın gələcəyin iqtisadi-ticari xəritəsini cızan qərarlarla yanaşı, həm də bütün türk dünyasının vahid və qüdrətli bir güc mərkəzinə çevrilməsi yolunda atılmış ən qətiyyətli addım kimi tarixə düşdü.

Səfər zamanı Azərbaycanla Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanması, iqtisadiyyat, nəqliyyat, energetika, təhlükəsizlik, rəqəmsal inkişaf, maliyyə, regional əməkdaşlıq və humanitar sahələrini əhatə edən geniş sənədlər paketinin mübadilə edilməsi xüsusi yer tutur. Bu addımlar rəsmi Bakı və Bişkek arasında münasibətlərin artıq dostluq və strateji tərəfdaşlıq çərçivəsi ilə yanaşı, həm də uzunmüddətli institusional əməkdaşlıq modeli əsasında inkişaf etdirilməsinin sübutudur.

Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının Çolpon-Ata şəhərində keçirilən 3-cü iclası ikitərəfli münasibətlərin sistemli şəkildə idarə olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlətlərarası Şura son illər qəbul edilən qərarların icrasına nəzarət edən, yeni əməkdaşlıq istiqamətlərini müəyyənləşdirən və hökumətlərarası koordinasiyanı təmin edən ali siyasi platforma kimi çıxış edir. İclas zamanı hər iki dövlət başçısının çıxışları göstərdi ki, münasibətlər artıq klassik diplomatik əməkdaşlıq çərçivəsini aşaraq ortaq strateji baxış üzərində qurulur. Qırğızıstan Prezidenti Sadır Japarov vurğuladı ki, iki ölkə arasında "strateji tərəfdaşlığın inkişafına mane ola biləcək həll edilməmiş heç bir məsələ yoxdur" və tam etimad mühiti formalaşıb. Onun sözlərinə görə, məhz bu qarşılıqlı etimad yeni təşəbbüslərin irəli sürülməsinə və mühüm qərarların qəbuluna imkan yaradır. "Məhz belə bir ab-havada ikitərəfli əməkdaşlığın gələcəyini formalaşdıran mühüm prinsiplər və təşəbbüslər yaranır, qərarlar qəbul edilir. Əldə edilən bütün razılaşmaların birgə inkişafa və ortaq məqsədlərə çatmaq üzrə səmimi səylərə əsaslanması xüsusilə vacibdir. Qırğız-Azərbaycan əməkdaşlığı nəqliyyat, energetika, investisiya, təhlükəsizlik, təhsil və digər sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişlənməsi üçün əhəmiyyətli potensiala malikdir", - deyə Prezident Sadır Japarov xüsusi qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev isə münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu bildirərək vurğuladı ki, Azərbaycan və Qırğızıstan artıq qarşılıqlı əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldirlər və bu, əməkdaşlığın ən yüksək siyasi mərhələsidir. Prezidentin fikrincə, bu səviyyə həm münasibətlərin mahiyyətini, həm də xalqlar arasında mövcud olan qardaşlıq ruhunu ifadə edir: "Sizin dostlarınız və qardaşlarınız olaraq, hər bir uğurunuza daim sevinirik və həm inşaat sektorunda, həm də vəsaitlərin xalqın və ölkənin rifahına xərclənməsinə imkan verən maliyyə, büdcənin doldurulması sahəsində Sizin fəaliyyətinizin nəticələri aydın şəkildə görünür. Bu, bizdə sevinc hissi doğurur. Çünki biz dost, qardaşıq, xalqlarımızı ortaq köklər birləşdirir və qardaş ölkənin uğurunu öz uğurumuz hesab edirik".

### Tərəfdaşlığın yeni statusu

Dövlətlərarası Şuranın iclasının ən mühüm siyasi nəticəsi "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması oldu. Eyni zamanda şuranın 3-cü iclasının qərarı da dövlət başçıları tərəfindən təsdiq edildi.

Müttəfiqlik statusu Azərbaycan-Qırğızıstan münasibətlərini keyfiyyətcə yeni mərhələyə keçirir. Bu model tərəflərin beynəlxalq və regional məsələlərdə qarşılıqlı dəstəyini daha da gücləndirməklə yanaşı, ölkələrimiz arasında siyasi dialoqun davamlı xarakter almasını təmin edir. Beləliklə, münasibətlər artıq yalnız ortaq tarix, dil və mədəniyyət amillərinə deyil, həm də konkret siyasi və iqtisadi maraqların uzlaşdırılmasına əsaslanan institusional çərçivəyə malik olur.

Səfər çərçivəsində mübadilə edilən sənədlər arasında Azərbaycan-Qırğız İnkişaf Fonduna dair mailiyyə əlavəsinin xüsusi əhəmiyyəti var. Fondun fəaliyyətinin genişləndirilməsi ilə bağlı qərarlar iki ölkənin investisiya əməkdaşlığını daha da dərinləşdirməyə xidmət edir. Prezident İlham Əliyev də çıxışında fondun vəsaitlərinin artırılması barədə qərarın qəbul edildiyini və artıq bir sıra layihələrin həyata keçirildiyini bildirdi. Bu yanaşma göstərir ki, tərəflər iqtisadi əlaqələri yalnız ticarət dövriyyəsinin artırılması ilə məhdudlaşdırmır, birgə investisiyalar və ortaq layihələr vasitəsilə uzunmüddətli iqtisadi inteqrasiyanı hədəfləyirlər. Təbii ki, fond inkişaf etdikcə, layihələrin sayı da artacaq. Bu isə ölkələr arasında ortaq məqsədlərimizə xidmət edəcək.

Prezident İlham Əliyev çıxışında Qarabağın bərpasında köməyə görə qardaş ölkəyə təşəkkürünü bildirdi. Ağdam bölgəsində Manasın adını daşıyan məktəbin artıq fəaliyyət göstərdiyini, humanitar sahədə əlaqələrimizin uğurla inkişaf etdiyini, bu yaxınlarda Azərbaycanda keçirilən Qırğızıstan Mədəniyyəti Günləri və Qırğızıstanda Azərbaycan Günləri mədəniyyətimizin necə zəngin olduğunu və xalqlarımızın yaradıcılıq potensialını tam şəkildə üzə çıxaran belə tədbirlərin vacibliyi bir daha qeyd edildi.

### Nəqliyyat, logistika, rəqəmsallaşma sahəsində yeni perspektivlər

Səfər çərçivəsində imzalanan sənədlərin mühüm hissəsi nəqliyyat-kommunikasiya sahəsini əhatə edir. Beynəlxalq avtomobil əlaqələri haqqında saziş, yükdaşımaları, gəmiçilik və gəmiqayırma sahəsində əməkdaşlıq memorandumu Orta dəhliz boyunca yeni logistika imkanlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sənədlər Azərbaycanın Xəzər dənizi üzərindən həyata keçirdiyi beynəlxalq nəqliyyat infrastrukturunun Qırğızıstanın nəqliyyat strategiyası ilə daha sıx əlaqələndirilməsinə imkan yaradır. Beləliklə, iki ölkə regional tranzit və yükdaşımaları sahəsində bir-birini tamamlayan tərəfdaşlara çevrilir.

İmzalanan sənədlər sırasında energetika sahəsinə dair iki mühüm sənəd də xüsusi diqqət çəkir. Bunlardan biri neft məhsullarının tədarükü üzrə əməkdaşlıq haqqında memorandum, digəri isə 2026-2028-ci illəri əhatə edən energetika üzrə Yol Xəritəsidir. Bu sənədlər göstərir ki, tərəflər enerji əməkdaşlığını epizodik tədarüklər səviyyəsindən daha çox, orta və uzunmüddətli planlaşdırma əsasında inkişaf etdirmək niyyətindədirlər. Azərbaycanın enerji sektorunda malik olduğu təcrübə və Qırğızıstanın enerji sisteminin modernləşdirilməsi istiqamətindəki planları qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaradır.

Səfər zamanı kibertəhlükəsizlik, maliyyə bazarlarının tənzimlənməsi və statistika sahələrində də əməkdaşlıq sənədləri imzalandı. Bu sənədlər münasibətlərin artıq ənənəvi sahələrlə yanaşı, dövlət idarəçiliyinin müasir istiqamətlərini də əhatə etdiyini göstərir. Xüsusilə kibertəhlükəsizlik sahəsində əməkdaşlıq haqqında memorandum rəqəmsal təhlükəsizlik, informasiya mühafizəsi və dövlət qurumları arasında təcrübə mübadiləsi baxımından yeni perspektivlər açır.

### Geniş əməkdaşlıq imkanları

Şuşa-Çolpon-Ata, Qəbələ-Karakol və Gəncə-Oş şəhərləri arasında qardaşlaşma haqqında memorandumların imzalanması da münasibətlərin yalnız dövlətlər səviyyəsində deyil, regionlar və şəhərlər arasında da inkişaf etdirilməsinə xidmət göstərir. Bu əməkdaşlıq formatı turizm, mədəniyyət, təhsil və bələdiyyələrarası təcrübə mübadiləsini genişləndirməklə xalqlar arasında birbaşa əlaqələrin möhkəmlənməsinə imkan yaradır.

İmzalanmış sənədlərin ümumi təhlili göstərir ki, onlar ayrı-ayrı sahələr üzrə lokal razılaşmalardan daha çox, vahid strateji əməkdaşlıq modelinin elementləridir. Sənədlər siyasi münasibətlərdən başlayaraq iqtisadiyyat, investisiya, logistika, enerji, rəqəmsal transformasiya, təhlükəsizlik, maliyyə, statistika, sənaye və regional əməkdaşlığı əhatə edir. Bu isə Azərbaycan-Qırğızıstan əlaqələrinin institusional əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirir.

Eyni zamanda "AzerGold" ilə "Kyrgyzaltyn" arasında əməkdaşlıq memorandumunun imzalanması mineral ehtiyatların idarə olunması və dağ-mədən sənayesində də yeni əməkdaşlıq imkanlarının formalaşdığını göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri zamanı keçirilən Dövlətlərarası Şuranın 3-cü iclası və mübadilə edilən sənədlər Azərbaycan-Qırğızıstan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçdiyini nümayiş etdirdi. Müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi siyasi dialoqun yeni səviyyəsini müəyyənləşdirirsə, iqtisadiyyat, energetika, nəqliyyat, kibertəhlükəsizlik, maliyyə və humanitar sahələri əhatə edən çoxşaxəli sənədlər bu siyasi iradənin praktiki mexanizmlərlə təmin olunduğunu göstərir.

Beləliklə, həm Dövlətlərarası Şuranın 3-cü iclası, həm də müvafiq sənədlərin mübadiləsi Azərbaycan və Qırğızıstan arasında uzunmüddətli strateji tərəfdaşlığın institusional əsaslarını möhkəmləndirən, türk dünyasında inteqrasiyanın dərinləşməsinə xidmət edən mühüm siyasi hadisə kimi qiymətləndirilə bilər.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan önə keçir

## Ölkəmiz öz qətiyyətli siyasəti ilə türk dövlətləri arasında birliyi möhkəmləndirən aparıcı gücə, strateji mərkəzə çevrilib

**Eyni soy-kökü, dili, tarixi və mənəvi dəyərləri paylaşan türk xalqları üçün XXI yüzillik dirçəliş və həmrəylik əsridir. Zamanın burulğanında milli kimliyini qoruyub saxlamağı bacaran türk dünyası bu gün dünya siyasətində sözünü deyən, qərarları ilə regionun iqtisadi xəritəsini formalaşdıran mühüm mərkəzə çevrilir. Bu köklü inteqrasiya prosesinin, ideyaların reallığa çevrilməsinin əsas müəlliflərindən biri türk dünyasının lokomotivi sayılan Azərbaycandır. Ölkəmiz geosiyasi mövqeyi, liderlik iradəsi və prinsipial xarici siyasəti ilə türk dünyasının hərəkətverici qüvvəsi missiyasını ləyaqətlə icra edir.**




Türk birliyinin güclənməsi, strukturlaşması və qlobal miqyasda nüfuz sahibi olan Türk Dövlətləri Təşkilatının (TDT) yaranması da Azərbaycanın adı ilə sıx bağlıdır. 2009-cu il oktyabrın 3-də imzalanmış Naxçıvan sazişi, sadəcə, yeni təşkilatın əsasını qoymadı, həm də parçalanmış bir coğrafiyanın daha güclü şəkildə yeniden birləşməsinin təməlini atdı. Məhz Bakının fəal təşəbbüsləri və ardıcıl siyasi addımları sayəsində bu qurum illər ərzində məsləhətləşmə platformasından tamformatlı, qlobal güc mərkəzinə çevrilən beynəlxalq təşkilat pilləsinə yüksəldi. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi "Bizim ailəmiz türk dünyasıdır" strategiyası Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olmaqla, təşkilatın iqtisadi, hərbi və mədəni sütunlarının möhkəmlənməsinə xidmət etdi.

Azərbaycanın türk dünyasındakı liderlik rolu tarixi Zəfərimiz və Müzəffər Ali Baş Komandan İlham Əliyevin nümayiş etdirdiyi dəmir iradə ilə yeni keyfiyyət mərhələsinə qədəm qoydu. 44 günlük Vətən müharibəsində qazanılan Qələbə və torpaqlarımızın işğaldan azad edilməsi bütün türk dünyasında qürura, özünəqayıdış dalğasına səbəb oldu. Tarixi Şuşa Bəyannaməsinin imzalanması və Şuşanın türk dünyasının mədəniyyət paytaxtı, ardınca TDT-nin Zirvə görüşlərinə evsahibliyi edən siyasi mərkəzə çevrilməsi bu həmrəyliyin zirvə nöqtəsi oldu.

Ölkəmiz şərqlə qərb, Mərkəzi Asiya ilə Avropa arasında coğrafi körpü olmaqla yanaşı, eyni zamanda strateji Orta dəhliz layihəsinin mərkəzinə çevrilərək türk dövlətlərinin iqtisadi müstəqilliyini və logistik imkanlarını artırdı.

Azərbaycanın türk dünyasında aparıcı rolunu son günlərdə cərəyan edən mühüm geosiyasi proseslərdə aydın şəkildə görmək mümkündür. Dövlətimizin başçısının iyulun 30-da Qırğızıstana dövlət səfəri və Çolpon-Ata şəhərində keçirilən yüksəksəviyyəli danışıqlar, eləcə də Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının növbəti iclası türk birliyinin dərin geoiqtisadi və strateji məzmun kəsb edən müstəviyə keçdiyini sübut edir. Səfər çərçivəsində Azərbaycan ilə Qırğızıstan arasında Müttəfiqlik Münasibətləri haqqında Bəyannamənin və bir sıra mühüm sənədlərin imzalanması ikitərəfli əlaqələri keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu gün Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə formalaşdırdığı sıx inteqrasiya modeli türk dünyasının qlobal güc mərkəzi kimi formalaşmasını sürətləndirən əsas hərəkətverici qüvvədir. Tərəflər arasında ticarət dövriyyəsinin kəskin artırılması, investisiya fondlarının fəaliyyətinin genişləndirilməsi, Orta dəhlizin buraxılış qabiliyyətinin artırılması və enerji təhlükəsizliyi sahəsində atılan ortaq addımlar bu əməkdaşlığın real iqtisadi dayaqlarını təşkil edir.

Bu birliyin mənəvi köklərə və qardaşlığa söykəndiyini nümayiş etdirən ən mühüm məqamlardan biri isə azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində türk dövlətlərinin nümayiş etdirdiyi həmrəylikdir. Qardaş Qırğızıstan tərəfindən Ağdam rayonunun Xıdırlı kəndində inşa edilən tam orta məktəb binası, eləcə də Özbəkistanın Füzulidə tikdirdiyi məktəb, Qazaxıstanın inşa etdirdiyi Uşaq Yaradıcılıq Mərkəzi və Türkiyənin Qarabağda həyata keçirdiyi saysız-hesabsız infrastruktur layihələri bu birliyin qardaşlıq müstəvisində mövcudluğunun tarixi göstəricisidir.

Türk dövlətləri arasında əməkdaşlıq yeni dünyanın əsas trendi olan "yaşıl enerji" keçidinə də inteqrasiya olunur. Azərbaycan Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının Xəzər dənizinin dibi ilə Avropaya nəql edilməsində əsas tranzit və təşəbbüsçü ölkə kimi çıxış edir. Bu strateji xətt türk dünyasının qlobal enerji xəritəsindəki mövqeyini daha da möhkəmləndirir, iqtisadi asılılığı azaldaraq birliyin texnoloji və ekoloji müstəvidə də vahid güc mərkəzinə çevrilməsinə zəmin yaradır.

Əlbəttə, bu birliyin dayanıqlılığını şərtləndirən vacib amillərdən biri də hərbi-strateji və müdafiə sənayesi sahəsindəki əməkdaşlığın koordinasiyasıdır. Azərbaycanın Vətən müharibəsində sınaqdan çıxmış döyüş təcrübəsi TDT çərçivəsində təhlükəsizlik çətirinin formalaşması üçün unikal model ortaya qoyur. Müdafiə sənayesində ortaq istehsalatların qurulması, birgə hərbi təlimlərin keçirilməsinin müntəzəm xarakter alması türk dünyasını regionda yarana biləcək geofiziki və hərbi risklərdən qoruyan etibarlı qalxana çevirir.

Türk dünyasının fiziki və coğrafi baxımdan tam bütövləşməsini təmin edəcək Zəngəzur dəhlizinin (TRIPP)açılması Azərbaycanın irəli sürdüyü ən mühüm geostrateji təşəbbüslərdən biridir. Bu dəhliz yalnız Naxçıvanla Azərbaycanın əsas hissəsini deyil, bütün türk coğrafiyasını, Türkiyədən Mərkəzi Asiyaya qədər olan böyük bir məkanı quru yolu ilə birləşdirəcək. Zəngəzur dəhlizinin (TRIPP) reallaşması TDT-nin daxili ticarət dövriyyəsini dəfələrlə artıracaq və regionun qlobal logistikadakı rolunu möhkəmləndirəcək.

Türk birliyinin mənəvi dayaqlarının möhkəmləndirilməsi istiqamətində atılan addımlar da xüsusi çəkiyə malikdir. Azərbaycanın təşəbbüsü və fəal dəstəyi ilə həyata keçirilən ortaq əlifba layihələri, vahid tarix və ədəbiyyat dərsliklərinin hazırlanması, Türk Dövlətləri Təşkilatının Türk Universitetlər Birliyinin fəaliyyəti gənc nəsillərin milli ruhda yetişməsinə xidmət edir. Bu mənəvi inteqrasiya siyasi və iqtisadi birliyin təməlini daha da gücləndirir.

Göründüyü kimi, türk dünyası artıq vahid hədəflərə doğru inamla irəliləyən, iqtisadi, siyasi və hərbi potensialını bir nöqtəyə yönəldən qlobal güc mərkəzidir. Bu böyük geostrategiyanın mərkəzində dayanan Azərbaycan öz qətiyyətli siyasəti ilə türk dövlətləri arasında birliyi, təhlükəsizliyi və tərəqqini təmin edən əsas dayaq rolunu oynayır. Tarixdən süzülüb gələn köklərimiz, bu gün atılan cəsarətli siyasi addımlar və gələcəyə hesablanmış strateji tərəfdaşlıqlar fonunda Azərbaycan öz tarixi missiyasını şərəflə davam etdirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# *Alparslan BAYRAKTAR:* "Türkiyə Azərbaycandakı enerji layihələrində iştirak etməkdə maraqlıdır"

**Türkiyə ölkə xaricində, o cümlədən Azərbaycan, Bolqarıstan, İraq, Liviya, Somali və Pakistanda enerji layihələrində iştirak etməkdə maraqlıdır.**




AZƏRTAC xəbər verir ki, bu barədə **Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan BAYRAKTAR** "TRT Haber" telekanalının efirində bildirib.

O, müasir Türkiyənin enerji mərkəzinə çevrildiyini qeyd edib. "Ankara ilə əməkdaşlıq və ölkəmizin infrastrukturundan istifadə bütün tərəflər üçün real fayda gətirir. Suriyaya Azərbaycan qazının tədarükü bunun bariz nümunəsidir", - deyə enerji naziri bildirib, O, yeni qaz müqavilələrinin imzalanacağını istisna etməyib.

Nazir qeyd edib ki, Türkiyə regiondakı böhranlardan sığortalanmasa da, ölkədə enerji çatışmazlığı yoxdur. O əlavə edib: "Ankaranın düşünülmüş siyasəti enerji təchizatı məsələsini həll etməyə imkan verib. Yalnız xarici amillərlə bağlı əlavə maliyyə yükü var".

A. Bayraktar yerli neft və qaz yataqlarında fəal kəşfiyyat işlərinin və hasilatın artırılmasının vacibliyini də vurğulayıb. Nazir qeyd edib: "Qara dənizdə ölkənin ən böyük qaz yatağı olan "Sakarya"da hasilat həcminin bu ilin sonuna qədər gündə 20 milyon kubmetrə çatacağı və 8 milyon abonentin ehtiyacını ödəyəcəyi gözlənilir. 2028-ci ilə qədər 16-17 milyon abonenti yerli istehsal olan təbii qazla təmin etməyi planlaşdırırıq".

Türkiyəli nazir həmçinin ölkənin cənub-şərqində neft hasilatının artmasına diqqət çəkib. O bildirib: "Bölgədə terrorizm probleminin həlli üçün atılan vacib addımlar Anadoluda kəşfiyyat işlərinin intensivləşməsinə imkan verib. Şırnak vilayətinin Qabar dağı bölgəsində neft hasilatı rekord səviyyədə - gündəlik 83.200 barelə çatıb".

A.Bayraktar nüvə enerjisinin inkişafının vacibliyini də vurğulayıb. Onun sözlərinə görə, hazırda tikilməkdə olan "Akkuyu" Atom-Elektrik Stansiyasının ilk enerji blokunun bu ilin sonuna qədər istismara verilməsi planlaşdırılır. "Türkiyə və Rusiya tərəfləri Mersində qarşıya qoyulan məqsədlərə çatmaq üçün səy göstərir. Təhlükəsizlik amili bu baxımdan xüsusi əhəmiyyət kəsb edir", - deyə o əlavə edib.

Nazir həmçinin Sinop və Trakyada iki yeni atom-elektrik stansiyasının tikintisi ilə bağlı fəal müzakirələrin aparıldığını bildirib. "Bir neçə ölkə, o cümlədən Kanada və Cənubi Koreya ilə danışıqlar aparırıq. Həmçinin atom-elektrik stansiyası layihələrinə maliyyə dəstəyi məsələsini də nəzərdən keçiririk", - deyə o bildirib.



# Azərbaycanın şərti dəyişmir:

## Ermənistan konstitusiyasından qonşu dövlətlərə qarşı ərazi iddialarını nəzərdə tutan maddə çıxarılmalıdır

**Son dövrlər regionda siyasi və diplomatik anlamda müşahidə olunan dinamika göstərir ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi tarixi zəfərdən və suverenliyin tam bərpasından sonra Cənubi Qafqaz prinsipcə yeni geopolitik mərhələyə qədəm qoyub. Uzun illər davam edən münaqişənin tarixin arxivinə gömülməsi ilə bölgədə barış, sabitlik və iqtisadi tərəqqi üçün misilsiz imkanlar yaranıb.**

Bu yeni reallığın, postmünaqişə dövründə formalaşan dayanıqlı təhlükəsizlik arxitekturasının baş memarı və təşəbbüskarı isə uzaqgörən, qətiyyətli diplomatiya yürüdən rəsmi Bakıdır. Azərbaycanın nümayış etdirdiyi strateji təmkin, hərbi-siyasi iradə və konstruktiv sülh gündəliyi regionda de-fakto sülh mühitini artıq təmin edib. Lakin bu müsbət mühitin de-yure və dönməz sülhə çevrilməsi üçün həlledici addım İrəvandan gözlənilir.

### Praktiki sülh addımları

Ərazilərinin işğal altında olduğu illərdə də hər zaman münaqişənin danışıqlar yolu ilə həll olunması tərəfdarı olan Azərbaycan, BMT Təhlükəsizlik Şurasının qətnamələrini hərb yolu ilə özü yerinə yetirərək torpaqlarını azad etdikdən sonra da bölgədə normallaşma, sülh istiqamətində qətiyyətli addımlar atmağa başladı. Vətən müharibəsi başa çatandan sonra məhz ölkəmiz, şəxsən Prezident İlham Əliyev sülh danışıqlarının başlanmasının təşəbbüskarı oldu. Ermənistana təkmil sülh modeli təklif edən Bakının səylərinin nəticəsi olaraq, xüsusilə 2024-cü ildən etibarən bu istiqamətdə müsbət nəticələr əldə olundu.

Azərbaycan sülh gündəliyini yalnız bəyanatlarla məhdudlaşdırmayıb, dərhal bu istiqamətdə hərəkətə keçdi. Bu reallıq cari ilin iyul ayında Prezident İlham Əliyevin Almaniyaya səfəri zamanı bir daha diqqətə çatdırıldı. Almaniya Federal Kansleri Fridrix Merts ilə mətbuata bəyanatı zamanı dövlətimizin rəhbəri dedi ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu. Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi: "Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir. Xüsusilə nəzərə alsaq ki, bu gün neft məhsullarının ixracı və idxalı ilə bağlı bir çox problemlər müəyyən səbəblərə görə mövcuddur və eyni zamanda Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin göndərilməsi də artıq geniş vüsət alıb. Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib".

Dövlətimizin başçısının da vurğuladığı kimi, Vaşinqtonda sülh sazişi mətninin paraflanması və Birgə Bəyannamənin imzalanmasından dərhal sonra Bakı humanitar və iqtisadi sahədə real addımlar atıb. Azərbaycan tərəfindən İrəvana göndərilən benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə birbaşa töhfə verir. Bakının Ermənistana yük tranziti üzrə bütün məhdudiyyətləri götürməsi bu ölkəni onilliklər boyu davam edən regional izolyasiyadan xilas edən "nəfəslik" rolunu oynayır.

Sərhəd delimitasiyası bu prosesdə xüsusi önəm daşıyır. Qazaxın 4 kəndinin qaytarılması və sərhədlərin delimitasiyası ikitərəfli formatın effektivliyini sübut edir.

Azərbaycanın sülhməramlı liderliyinin ən mühüm göstəricilərindən biri "Sülh körpüsü" təşəbbüsüdür. Aprelin 10-12-də ölkəmizdə keçirilən növbəti ikitərəfli "dəyirmi masa", Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında kənar vasitəçilər olmadan birbaşa əlaqələrin qurulmasına xidmət edirdi. Erməni nümayəndə heyətinin Azərbaycana quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olması regionda faktiki sülhün və hüquqi qaydaların işlədiyinin bariz nümunəsidir.

Vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq isə 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ iderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

Atılan bütün konstruktiv addımlara baxmayaraq, yekun sülh sazişinin imzalanması üçün əsas şərt Ermənistanın ana qanunvericiliyi ilə bağlıdır və bu hüquqi maneədir.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Türkiyənin "Haber Global" televiziya kanalına verdiyi son açıqlama məsələnin mahiyyətini aydın şəkildə ortaya qoyur: "Ermənistan konstitusiyasında Azərbaycana, həmçinin Türkiyəyə qarşı ərazi iddialarını nəzərdə tutan maddə çıxarılmalıdır".

Hikmət Hacıyevin sözlərinə görə, bu xüsusda alınan siqnallar ondan ibarətdir ki, Ermənistanda yeni konstitusiyanın qəbulu üçün proses başlamaqdadır: "Bu ərazi iddiaları konstitusiyadan çıxarıldıqdan sonra Azərbaycan yekun sülh sazişinin imzalanması üçün problem görmür. Bunun fövqündə bölgəmizdə artıq de-fakto sülh vəziyyəti mövcuddur".

Ermənistan konstitusiyasının preambula hissəsində yer alan Müstəqillik Bəyannaməsinə istinadlar qonşu dövlətlərin ərazi bütövlüyünə birbaşa təhdiddir. Əgər bu bəndlər ləğv edilməzsə, gələcəkdə Ermənistanda hakimiyyətə gələ bilər hər hansı revanşist qüvvə həmin konstitusiya normasına istinad edərək sülh sazişini ləğv edə və ya yenidən ərazi iddiası irəli sürə bilər. Bu səbəbdən hüquqi baza dəyişmədən imzalanacaq hər hansı sənəd kövrək olaraq qalacaq.

### Qonşularla inteqrasiya, yoxsa "dalan ölkə"

Hazırda Ermənistanda Nikol Paşinyan hökumətinin qarşısında daxili siyasi müqavimətə, kilsə ilə yaşanan gərginliyə və radikal müxalifətin təzyiqlərinə baxmayaraq, cəsarətli siyasi iradə göstərmək tapşırığı durur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistanın keçmişdə "böyük Ermənistan" xülyasına qapılaraq özünü tranzit imkanlarından məhrum etməsi onların öz strateji səhvi olub.

Bu gün isə gündəmdə olan Zəngəzur dəhlizi (TRIPP) və regional layihələr Ermənistana iqtisadi dirçəliş imkanı təklif edir. Azərbaycan sülh çərçivəsini bərqərar edib və bütün şərtlərini beynəlxalq hüquq normaları əsasında təqdim edib. Seçim artıq Ermənistan tərəfinindir. Ya konstitusiya dəyişikliyi ilə tarixi fürsətdən yararlanıb regional inteqrasiyanın bir hissəsi olacaq, ya da revanş hisslərinə qapılıb özünü yenidən dərin demoqrafik böhran və təcrid olunmuş "dalan ölkə" statusuna məhkum edəcək.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Çolpon-Ata Bəyannaməsi Azərbaycan-Mərkəzi Asiya münasibətlərinin institusional əsaslarını gücləndirəcək

**Çolpon-Ata Bəyannaməsi Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini nümayiş etdirən mühüm siyasi sənəddir. Bəyannamə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, Avrasiyanın yeni geosiyasi və geoiqtisadi arxitekturasında Azərbaycanın rolunun daha da gücləndiyini göstərir.**

**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, Çolpon-Ata Bəyannaməsinin əsas strateji nəticələrindən biri Azərbaycanın Mərkəzi Asiya ölkələri üçün etibarlı tranzit və geoiqtisadi tərəfdaş kimi mövqeyinin daha da möhkəmlənməsidir. Son illər formalaşan əməkdaşlıq göstərir ki, Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında siyasi, iqtisadi və logistik körpü funksiyasını yerinə yetirən əsas aktorlardan biridir. "Bu baxımdan Orta dəhlizin inkişafı, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Xəzər dənizi üzərindən multimodal daşımaların genişləndirilməsi Azərbaycanı regionun ayrılmaz logistika mərkəzinə çevirir. Bəyannamə də məhz bu reallığı siyasi səviyyədə təsdiqləyir. Çolpon-Ata Bəyannaməsi Türk Dövlətləri Təşkilatı çərçivəsində formalaşan inteqrasiya proseslərinin praktiki məzmun qazanmasına xidmət edir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan arasında son illərdə yaranmış yüksək siyasi etimad iqtisadi layihələr, enerji əməkdaşlığı, rəqəmsal əlaqəlilik və nəqliyyat infrastrukturu vasitəsilə real nəticələrə çevrilməkdədir. Azərbaycan inteqrasiya proseslərinin əsas təşəbbüskarlarından biri kimi çıxış edir. Bakı tərəfindən həyata keçirilən enerji, nəqliyyat və kommunikasiya layihələri Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına daha təhlükəsiz və şaxələndirilmiş çıxış imkanlarını artırır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində Mərkəzi Asiya böyük güclərin rəqabət məkanlarından birinə çevrilib. Belə şəraitdə Azərbaycan ba-



lanslaşdırılmış xarici siyasəti, etibarlı tərəfdaş imici və müstəqil qərarvermə qabiliyyəti ilə region dövlətləri üçün cəlbedici model kimi çıxış edir. Çolpon-Ata Bəyannaməsi göstərir ki, Bakı Mərkəzi Asiya ölkələri ilə münasibətləri hər hansı geosiyasi bloklaşma üzərində deyil, qarşılıqlı maraqlar, suverenliyə hörmət və praqmatik əməkdaşlıq prinsipləri əsasında inkişaf etdirir. Bu isə uzunmüddətli sabitlik üçün mühüm zəmin yaradır.

E.Mirzəbəyli bildirib ki, bəyannamədə enerji və "yaşıl inkişaf" istiqamətlərinin xüsusi yer tutması təsadüfi deyil: "Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinin mühüm iştirakçılarından biridir və Mərkəzi Asiya ölkələrinin enerji resurslarının dünya bazarlarına çıxarılmasında da strateji rol oynaya bilər. Eyni zamanda Xəzər dənizi üzərindən "yaşıl enerji" dəhlizlərinin yaradılması perspektivləri Azərbaycan ilə Mərkəzi Asiya arasında əməkdaşlığın yeni iqtisadi ölçüsünü formalaşdırır. Bu istiqamət yaxın onillikdə regionun ən mühüm strateji layihələrindən biri hesab olunur".

Çolpon-Ata Bəyannaməsinin Azərbaycanın son illərdə həyata keçirdiyi çoxşaxəli Mərkəzi Asiya siyasətinin məntiqi nəticəsi olduğunu qeyd edən deputat vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılan xarici siyasət kursu Azərbaycanın Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan ilə münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bu gün Mərkəzi Asiya dövlətləri Azərbaycanı yalnız Cənubi Qafqaz ölkəsi kimi deyil, türk dünyasını, Xəzər hövzəsini və Avropa bazarlarını birləşdirən etibarlı siyasi və iqtisadi mərkəz kimi qəbul edirlər. Bu isə Azərbaycanın beynəlxalq nüfuzunun və diplomatik çəkisinin əhəmiyyətli dərəcədə artdığını göstərir.

Deputat hesab edir ki, bütövlükdə, Çolpon-Ata Bəyannaməsi Azərbaycan-Mərkəzi Asiya münasibətlərinin institusional əsaslarını gücləndirən və yeni strateji əməkdaşlıq mərhələsini rəsmiləşdirən mühüm siyasi sənəddir: "Bəyannamə Azərbaycanın Avrasiyanın əsas nəqliyyat, enerji və geosiyasi qovşaqlarından biri kimi rolunu daha da möhkəmləndirir, türk dünyasında inteqrasiyanın dərinləşməsinə töhfə verir və ölkəmizin regional diplomatiyada artan təsir imkanlarını təsdiqləyir. Məhz bu baxımdan Çolpon-Ata Bəyannaməsi təkcə diplomatik sənəd deyil, Azərbaycanın Mərkəzi Asiya siyasətinin strateji yol xəritəsini əks etdirən mühüm geosiyasi platforma kimi qiymətləndirilə bilər".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# *Cənubi Qafqazda yeni geosiyasi reallıqlar:*

## sülh sazişi regionun gələcəyini necə dəyişəcək

**XXI əsr yeni geosiyasi reallıqların formalaşdığı mürəkkəb bir mərhələyə qədəm qoyub. Qlobal güc mərkəzləri arasında rəqabət kəskinləşir, iqtisadi maraqlar siyasi qərarlara əvvəlkindən daha çox təsir göstərir, enerji və nəqliyyat marşrutları dövlətlərin təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilir. Bir vaxtlar iqtisadi layihə kimi nəzərdən keçirilən dəhlizlər bu gün geosiyasi çəkisi olan strateji arteriyalarla əvəz olunur.**




Dünya siyasətində yeni reallıq budur - artıq hər bir ölkənin gücü yalnız hərbi potensialla deyil, onun yerləşdiyi coğrafiyanın imkanları, enerji resursları, nəqliyyat bağlantıları, iqtisadi tərəfdaşlıqları və diplomatik manevr qabiliyyəti ilə də ölçülür. Yaranmış bu şəraitdə Cənubi Qafqazın əhəmiyyəti də yüksək dərəcədə artıb. Avropa ilə Asiyanı birləşdirən yolların yenidən qurulduğu, enerji təhlükəsizliyinin prioritetə çevrildiyi, ənənəvi təchizat zəncirlərinin şaxələndirildiyi bir dövrdə Azərbaycan, Ermənistan və Gürcüstanın yerləşdiyi coğrafiya təkcə regional məsələ deyil. Cənubi Qafqaz Xəzər hövzəsini Avropa ilə, türk dünyasını qərblə, "Şimal-Cənub" və "Şərq-Qərb" marşrutlarını bir-biri ilə əlaqələndirən mühüm məkan kimi yeni geosiyasi dəyər qazanır. Bu coğrafiyanın qarşısında uzun müddətdir süni surətdə yaradılmış maneə nəticəsində böyük iqtisadi və nəqliyyat potensialına malik region siyasi parçalanma, münaqişə və qarşılıqlı etimadsızlıq səbəbindən öz imkanlarını tam reallaşdıra bilməyib.

Qarabağ münaqişəsi bunun ən ağır nümunəsi idi. 30 il davam edən işğal və nəticəsiz danışıqlar Cənubi Qafqazın inkişafının qarşısında yalnız siyasi deyil, həm də iqtisadi və kommunikasiya səddi yaratmışdı. 2020-ci ilin 44 günlük Vətən müharibəsi vəziyyəti kökündən dəyişdi. Azərbaycanın hərbi Zəfəri yalnız ərazi bütövlüyünün bərpası ilə nəticələnmədi, eyni zamanda Cənubi Qafqazda qüvvələr nisbətini dəyişərək regionun gələcək inkişafı üçün tamamilə yeni siyasi şərait yaratdı. 2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirlərinin nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edilməsi bu prosesin mühüm yekun mərhələsi oldu. Beləliklə, uzun illər regionun gələcəyini müəyyənləşdirən əsas problem artıq başqa məzmun aldı. Bakı hərbi üstünlüyü yeni qarşıdurmaların başlanğıcına deyil, sülh və əməkdaşlığın təməl daşına çevirmək xəttini seçdi. Azərbaycanın sülh gündəliyinin mahiyyəti də bundan ibarətdir - keçmiş münaqişənin səhifəsini bağlamaq, dövlətlərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyi, sərhədlərin qarşılıqlı tanındığı, kommunikasiya xətlərinin açıldığı və iqtisadi maraqların qarşıdurmanı əvəz etdiyi yeni regional düzən yaratmaq.

Prezident İlham Əliyevin Şuşada keçirilən IV Qlobal Media Forumunda səsləndirdiyi bir fikir bu yanaşmanın mahiyyətini olduqca dəqiq ifadə edir: "Cənubi Qafqaz sülh, qarşılıqlı fəaliyyət regionu olmalı və geosiyasi rəqabətdən mümkün qədər azad olmalıdır". Bu tezis təkcə siyasi çağırış olmaqla yanaşı, həm də regionun gələcəyinə dair strateji baxışdır. Çünki Cənubi Qafqazın problemlərinin əsas səbəblərindən biri uzun illər onun ayrı-ayrı xarici güclərin rəqabət meydanı kimi qəbul edilməsi olub. Bu gün isə dəyişən reallıq region dövlətlərin öz maraqlarını daha müstəqil müəyyənləşdirməsini tələb edir.

Azərbaycanın yaratdığı yeni reallığın mühüm xüsusiyyətlərindən biri də geosiyasi rəqabətdə hansısa düşərgənin aləti olmamasıdır. Bakı müxtəlif güc mərkəzləri ilə münasibətlərində milli maraqları, suverenliyi və qarşılıqlı faydanı əsas götürür. Bunun nəticəsində bir tərəfdən Türkiyə ilə strateji müttəfiqliyini dərinləşdirir və Avropa ilə enerji və nəqliyyat əməkdaşlığını genişləndirir, digər tərəfdən Rusiya və İranla münasibətlərdə öz maraqlarını qoruyur, Mərkəzi Asiya və Türk Dövlətləri Təşkilatı ilə əlaqələrini gücləndirir. Bu çoxvektorlu siyasət Azərbaycanın regional çəkisinin artmasına xidmət edən başlıca amillərdir.

Bu mənzərədə Azərbaycan-Türkiyə müttəfiqliyinin ayrıca çəkisi var. Şuşa Bəyannaməsi ilə siyasi və təhlükəsizlik müstəvisində daha yüksək səviyyəyə qalxan bu münasibətlər iki dövlət arasındakı qardaşlıq əlaqələrindən daha geniş məna daşıyır. Enerji, müdafiə sənayesi, nəqliyyat, ticarət və regional təhlükəsizlik sahələrində əməkdaşlıq Bakı-Ankara tandemini Cənubi Qafqazın yeni geosiyasi düzəninin əsas dayaqlarından biri edib.

Azərbaycanın regional çəkisini artıran digər mühüm amil onun Avrasiya nəqliyyat və enerji xəritəsindəki mövqeyidir. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi", Xəzər üzərindən keçən nəqliyyat bağlantıları və Orta dəhliz ölkəmizin coğrafi üstünlüyünü real siyasi-iqtisadi kapitala çevirir. Şərqdən qərbə gedən yüklərin alternativ marşrutlara ehtiyac duyduğu bir vaxtda Azərbaycan artıq, sadəcə, xəritədə yerləşən tranzit ölkə deyil, yeni bağlantıların formalaşmasına təsir göstərən əsas aktorlardan biridir. Burada Ermənistanın qarşısında da düzgün seçim etməsi qaçılmaz şəkildə ortaya çıxır. Yeni şərait İrəvanı ölkəmizlə münasibətlərin normallaşdırılmasına, qarşılıqlı suverenliyin tanınmasına və regionun iqtisadi imkanlarından yararlanmasına sövq edən daha real yanaşma tələb edir. Bu baxımdan sülh sazişi Azərbaycan və Ermənistan arasında hüquqi sənəd olmayacaq. Onun əsl tarixi əhəmiyyəti daha genişdir - bu saziş Cənubi Qafqazın siyasi fəlsəfəsini dəyişə, müharibə ehtimalını əməkdaşlıq imkanları ilə əvəz edə bilər. Sərhədlərin tanınması və qarşılıqlı suverenliyin qəbul edilməsi siyasi sabitliyin hüquqi əsasını yaradacaqsa, nəqliyyat əlaqələrinin açılması həmin siyasi razılaşmanı iqtisadi məzmuna çevirəcək. Elə bu səbəbdən də Zəngəzur istiqamətində kommunikasiyaların açılması məsələsi, sadəcə, bir nəqliyyat layihəsi kimi qiymətləndirilə bilməz. Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında bağlantının təmin olunması Türkiyə ilə Azərbaycanı daha sıx birləşdirəcək, Xəzər hövzəsi və Mərkəzi Asiya ilə əlaqələri gücləndirəcək, Orta dəhlizin imkanlarını genişləndirəcək. Başqa sözlə, sülh sazişinin ən böyük nəticələrindən biri siyasi xəritədə görünməyən, lakin iqtisadi həyatı kökündən dəyişə biləcək yeni bağlantıların meydana çıxmasıdır.

Bu gün Cənubi Qafqazın qarşısında tarixi seçim dayanır - region yenidən geosiyasi rəqabətin sərt toqquşma xəttinə, yoxsa öz coğrafiyasının yaratdığı imkanlardan istifadə edərək sülh, nəqliyyat, enerji və iqtisadi əməkdaşlıq məkanına çevriləcək? Azərbaycanın irəli sürdüyü sülh gündəliyi ikinci istiqamətə aparan yolun siyasi əsaslarını artıq ortaya qoyub. İndi əsas məsələ bu yeni reallığın bütün region dövlətləri tərəfindən nə dərəcədə düzgün qiymətləndiriləcəyidir. Bu şəraitdə Azərbaycanın sülh təşəbbüsünün məzmunu xüsusi anlaşılır. Bakı sülhü yalnız iki ölkə arasında münasibətlərin normallaşmasından savayı, həmçinin bütün regionun gələcəyinə təsir edəcək daha geniş proses kimi nəzərdən keçirir. Siyasi razılaşma sərhəddə sabitlik yaradacaqsa, açılan yollar həmin sabitliyi iqtisadi dividendlərə çevirəcək, ölkələr arasında iqtisadi əlaqələr gücləndikcə isə yeni müharibəyə başlamağın həm siyasi, həm də iqtisadi zərərini tərəflər daha düzgün qiymətləndirə biləcəklər. Beləliklə, sülh özünü qoruyan bir sistemə çevriləcək.

Bu sistemin mühüm dayaqlarından biri nəqliyyat bağlantılarının bərpasıdır. Zəngəzur istiqamətində kommunikasiyaların açılması Azərbaycan üçün Naxçıvanla birbaşa əlaqənin gücləndirilməsi deməkdirsə, daha geniş miqyasda bu, Türkiyə ilə Xəzər hövzəsi və Mərkəzi Asiya arasında yeni bağlantının yaranması anlamına gəlir. Burada söhbət yalnız bir yolun çəkilməsindən getmir, eləcə də Avrasiyanın nəqliyyat xəritəsində yeni bir xəttin formalaşmasından gedir.

Orta dəhlizin əhəmiyyəti də məhz burada üzə çıxır. Qlobal ticarət yollarının şaxələndirildiyi, ənənəvi marşrutların siyasi risklərlə üzləşdiyi bir vaxtda Xəzər üzərindən keçən "Şərq-Qərb" bağlantısı Azərbaycanı daha böyük iqtisadi sistemin mühüm halqasına çevirir. Zəngəzur bağlantısının Orta dəhlizlə tamamlanması isə Türkiyədən Azərbaycan ərazisi ilə Xəzərə, oradan Mərkəzi Asiyaya uzanan xəttin səmərəliliyini artıra bilər. Bunun nəticəsində Azərbaycan təkcə enerji ixracatçısı yox, həm də Avrasiya ticarətinin mühüm tranzit mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirə bilər.

Burada enerji amili də xüsusi yer tutur. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşlardandır. "Cənub qaz dəhlizi" ilə yanaşı, bərpaolunan enerji potensialının inkişafı Xəzər regionunun Avropaya enerji bağlantısında Azərbaycanın rolunu daha da genişləndirə bilər. Belə bir şəraitdə Cənubi Qafqazın sabitliyi enerji təhlükəsizliyində maraqlı olan daha geniş coğrafiyanın strateji marağına daxil olur. Bütün bunlar Azərbaycanın 2020-ci ildən sonrakı siyasətinin mühüm xüsusiyyətini göstərir - hərbi qələbə siyasi məqsədə, siyasi nəticə isə iqtisadi və kommunikasiya üstünlüyünə çevrilir.

Bu mərhələdə Ermənistanın qarşısında da tarixi seçim dayanır. Ölkə ya Cənubi Qafqazın yeni iqtisadi xəritəsinə qoşularaq qonşuları ilə münasibətlərini normallaşdıracaq, ya da köhnə geosiyasi təsəvvürlərin yaratdığı təcrid və asılılıq dövrünü uzadacaq. Ermənistanın Avropaya yaxınlaşmaq cəhdləri, Rusiya ilə münasibətlərində yaranan ziddiyyətlər və regional kommunikasiyaların gələcəyi ilə bağlı müzakirələr göstərir ki, İrəvan öz xarici siyasətinin əvvəlki vərdişlərini yenidən qiymətləndirməli olduğu mərhələyə daxil olub.

Buradan belə nəticəyə gəlmək olur ki, artıq Cənubi Qafqazda heç bir xarici güc əvvəlki təsir mexanizmləri ilə regiona yanaşa bilməz. Yeni reallıq daha çoxsaylı aktorların iştirak etdiyi, Azərbaycan və Türkiyənin, Avropa İttifaqının, Rusiyanın, İranın, ABŞ-nin və digər tərəflərin maraqlarının kəsişdiyi mürəkkəb bir siyasi məkan formalaşdırır. Bu reallıqda region dövlətlərin öz milli maraqlarını qorumaq qabiliyyəti daha böyük əhəmiyyət qazanır.

Elə Azərbaycanın həyata keçirdiyi siyasi xəttin əsas üstünlüyü də məhz burada üzə çıxır. Bakı Cənubi Qafqazın hər hansı güc mərkəzinin rəqabət meydanına çevrilməsini deyil, region ölkələrin öz aralarında əməkdaşlıq edə bildiyi bir məkan olmasını müdafiə edir. Prezident İlham Əliyevin "Cənubi Qafqaz sülh, qarşılıqlı fəaliyyət regionu olmalı və geosiyasi rəqabətdən mümkün qədər azad olmalıdır" fikri bu baxımdan həm çağırış, həm də gələcəyə hesablanmış siyasi konsepsiyadır. Bu konsepsiyanın həyata keçməsi üçün regionda yeni əməkdaşlıq mexanizmlərinə ciddi ehtiyac var. Azərbaycan, Ermənistan və Gürcüstanın, eləcə də regionun digər qonşularının iqtisadi və nəqliyyat layihələrində iştirakının genişlənməsi Cənubi Qafqazı ayrı-ayrı geosiyasi blokların sərhəd zonası olmaqdan çıxarıb qarşılıqlı maraqların birləşdiyi məkana çevirə bilər. Azərbaycan rəhbərliyinin regionun problemlərinin regional dövlətlərin iştirakı ilə həllinə verdiyi önəm də məhz bu yanaşmadan qaynaqlanır. Əgər sülh sazişi tam hüquqi və siyasi nəticəyə çevrilərsə, onun təsiri Bakı ilə İrəvan arasındakı münasibətlərdən daha çox kənara çıxacaq. Qarşılıqlı sərhədlərin tanınması təhlükəsizlik mühitini dəyişəcək, kommunikasiyaların açılması iqtisadi xəritəni yeniləyəcək, enerji və nəqliyyat layihələri Azərbaycanın strateji əhəmiyyətini artıracaq, Ermənistanın regional sistemə inteqrasiyası isə yeni iqtisadi imkanlar yaradacaq. Türkiyə-Azərbaycan bağlantısı daha da möhkəmlənəcək, Mərkəzi Asiyanın Avropa ilə əlaqələri üçün yeni imkanlar yaranacaq.

Cənubi Qafqazın gələcəyi məhz bu seçimdən asılıdır: keçmişin münaqişə, yaxud gələcəyin əməkdaşlıq xəritəsi. Azərbaycanın irəli sürdüyü Sülh Gündəliyi ikinci yolu göstərir. Bu yolun reallaşması isə regionun bütün dövlətlərinə yeni imkanlar açmaqla yanaşı, Cənubi Qafqazı Avrasiyanın qarşıdurma xəttindən əməkdaşlıq və bağlantı məkanına çevirmək potensialına malikdir.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

● Şahlar Əsgərov - 85

# Elmə və dövlətçiliyə həsr olunmuş ziyalı ömrü

**Ziyalı adı hər dövrdə cəmiyyətin mənəvi kompası, qaranlıqlara işıq salan mayak rolunu oynayıb. Lakin həqiqi ziyalılıq yalnız zəngin biliyə sahib olmaqla bitmir. O, həm də xalqın taleyi ilə nəfəs almaq, tarixi sınaqlardan alnıaçıq çıxmaq və qazandığı elmi həqiqətləri millətin mənəvi tərəqqisinə yönəltmək bacarığıdır.**



Ömrün elə məqamları, elə zirvələri var ki, orada illərin sayı, sadəcə, təqvim vərəqlərinin dəyişməsi deyil, millətə, elmə və dövlətçiliyə həsr olunmuş şərəfli bir salnamənin ifadəsidir. Görkəmli fiziklər sırasından boy göstərib mənəviyyat və düşüncə fəlsəfəmizin xiridarına çevrilən, "91-lər"in ön cərgəsində addımlayan Əməkdar elm xadimi, "Şöhrət" ordenli professor Şahlar Əsgərovun 85 illik yubileyi məhz belə müdrik zirvənin təntənəsidir.

Onun anadan olduğu 15 iyun tarixi də sanki taleyin mistik bir rəmzidir. Azərbaycan xalqının Milli Qurtuluş Günü ilə eyni günə təsadüf edən bu təvəllüd, sonralar Şahlar müəllimin həyat amalında, dövlətçilik mübarizəsində öz əksini tapacaqdı.

1941-ci ildə Azərbaycanın ən füsunkar guşələrindən biri olan Kəlbəcərdə dünyaya göz açan Şahlar Əsgərovun doğulduğu torpağın əsrarəngiz təbiəti onun erkən yaşlarından təbiət elmlərinə həvəs göstərməsində mühüm rol oynayıb. Alimin zəngin elm yoluna qısa nəzər salaq: orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra 1958-ci ildə Bakıya üz tutan Şahlar Əsgərov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Fizika fakültəsinə qəbul olub və 1963-cü ildə həmin fakültəni bitirdikdən sonra - 1964 - 1967-ci illərdə ADU-nun əyani aspirantı kimi Leninqrad Sabit Cərəyan İnstitutunda elmi işi üzərində çalışıb. Aspiranturanı bitirdikdən sonra ömür yolunu universitetlə bağlayaraq əvvəlcə müəllim, sonra dosent, dekan müavini və prorektor vəzifələrində çalışıb. 1970-ci ildə "Alçaq enerjili ionlarla metalların katod tozlanması" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini alıb. Elmi tədqiqatlarını uğurla davam etdirən Şahlar Əsgərov 1992-ci ildə Bakı Dövlət Universitetində "Toxunma sərhədinin qeyri-bircinslilik dərəcəsinin metal-vakuum və metal-yarımkeçirici strukturlarının elektrofiziki xassələrinə təsiri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1993-cü ildə BDU-nun professoru seçilən Şahlar Əsgərov elmi fəaliyyəti dövründə bir sıra böyük nailiyyətlərə imza atıb. Katod tozlanması və onun tozlanma əmsalının ən kiçik qiyməti məhz Şahlar Əsgərov tərəfindən ilk dəfə dəqiqliklə ölçülmüş, habelə bir çox metallar üçün astana enerjisinin qiyməti təcrübi təyin edilmişdir. Bundan başqa, alim Danimarka Texniki Universitetindən birillik ezamiyyətdən qayıtdıqdan sonra respublikada ilk dəfə metal-yarımkeçirici kontaktı mövzusunun tədqiqinə başlamışdır. Kontaktın parametrləri üçün ilk dəfə ölçü effekti müəyyənləşdirmiş, real metal-yarımkeçirici kontaktı üçün qeyri-bircins model təklif etmişdir. Amorf metal-yarımkeçirici kontaktların hazırlanmasının dəqiq texnologiyasını hazırlamış, bu kontaktların fiziki parametrlərini öyrənmiş, metal-vakuum, metal-yarımkeçirici kontaktların emission parametrləri arasında ilk dəfə olaraq korrelyasiyanı müəyyən etmiş və nəticədə "Amorf təbəqələr" Elmi-Tədqiqat Laboratoriyası yaratmışdı.

Professorun hələ onilliklər öncə başladığı tədqiqat sahəsinin böyük nailiyyətlərindən bu gün NASA və Amerika Aeronavtika və Astronavtika İnstitutu (AIAA) öz tədqiqatlarında geniş istifadə edirlər. 2000-ci ildən bəri ion mühərrikləri vasitəsilə kosmosa bir çox aparat çıxardılıb. Belə mühərriklərin hazırlanmasında professor Şahlar Əsgərovun elmi nəticələrindən geniş istifadə edilir. Tozlanma ilə bağlı onun əldə etdiyi nəticələrdən, dövrün birnömrəli problemi sayılan idarə oluna bilən termonüvə qurğularının "plazma-divar" kimi tanınan problemin həllində də geniş istifadə edilir.

Bu gün qürurla vurğulamağa dəyər ki, azərbaycanlı alimin hələ onilliklər öncə kəşf etdiyi fiziki qanunauyğunluqlar XXI əsrin kosmik texnologiyalarında tətbiq olunur. Bu kəşflər bir daha göstərir ki, böyük elmin sərhədləri olmur. O, laboratoriyadan başlayaraq kainatın dərinliklərinə qədər uzanan zəka işığıdır. Şahlar Əsgərovun ion fizikası sahəsindəki tapıntıları zamanın sınağından çıxaraq, müasir dünyanın ən mürəkkəb texnoloji layihələrinin təməl sütunlarından birinə çevrilmişdir.

NATO-nun Levis Araşdırmalar Mərkəzinin (Klivlend, ABŞ) mütəxəssislərinin öz rəsmi məruzələrində Şahlar müəllimin nəticələrinin etibarlığını xüsusi vurğulaması, onun elmi işlərinin ABŞ Energetika Departamentinin (OSTI) məlumat bazasında (OSTI ID: 4707515 və 4074900) qorunması dünya elminə vurulmuş azərbaycanlı imzasıdır.

ABŞ-nin Klivlend şəhərində NATO-nun Levis Araşdırmalar Mərkəzinin mütəxəssisi Maris A.Mantenieks özünün hazırladığı "Ağır ionlarla tozlanmanın astana enerjisi" məruzəsində professor Şahlar Əsgərovun tədqiqatlarına geniş yer ayırıb. Tədqiqatçı qeyd edib ki, ağır ionlarla katod tozlanmasının öyrənilməsi hələ ötən əsrin 60-cı illərində Şahlar Əsgərov və L.Sena tərəfindən başlanılıb. Məruzə müəllifi yazır ki, Ş.Əsgərovun və L.Senanın nəticələrinin etibarlığı bu sahədə mühüm nailiyyətlər əldə etmiş nüfuzlu alimlərin nəticələrini üstələyir.

Daim axtarışda olan, dünya elminə dəyərli töhfələr verən Şahlar Əsgərov L.Sena (Leninqrad), L.Praneviçyus (Kaunas), V.Yurasova (Moskva), V.Strixa (Kiyev), P.Prehn (Kopenhagen), M.Lukkala (Helsinki), L.Şelyakin (Moskva), A.Şkavro (Kiyev), A.Arş (Ryazan) və dünyanın digər nüfuzlu alimləri ilə əməkdaşlıq edərək birgə məqalələr çap etdirmişdir.

Dəyərli alimin numizmatika, kriminalistika və tətbiqi incəsənət sahələrində ixtira və patentləri var. Bu fərqli sahələrdəki uğurları onun zəkasının çoxşaxəliliyini, məsələlərə yaradıcı və gözlənilməz bucaqlardan baxmaq qabiliyyətini aydın şəkildə nümayiş etdirir.

Şahlar Əsgərov yalnız laboratoriya divarları arasında qapanıb qalan alim olmadı. O, xalqının və dövlətinin taleyüklü məqamlarında bir ziyalı kimi cəsarətlə önə çıxdı.

1990-cı illərin əvvəllərində ölkənin xaos, vətəndaş müharibəsi və parçalanma təhlükəsi ilə üz-üzə qaldığı, dövlətçiliyimizin beşiyində tufanlar qopduğu ən mürəkkəb anlarda o, məsuliyyəti çiyinlərinə götürməkdən çəkinmədi. 1992-ci ilin 16 oktyabrında Azərbaycanın 91 nəfər cəsarətli, uzaqgörən ziyalısı ilə birlikdə Naxçıvan Ali Məclisinin Sədri Ulu Öndər Heydər Əliyevə müraciət edərək, onu ölkəni fəlakətdən xilas etməyə səsləyən tarixi addımın müəlliflərindən biri oldu. "91-lər" hərəkatı yalnız Yeni Azərbaycan Partiyasının yaranmasının təşəbbüskarı olmadı, həm də müasir Azərbaycanın qurtuluş salnaməsinə çevrildi. Ümummilli Lider Heydər Əliyevin "Mən "91-lər"in hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm" kəlamı Şahlar müəllimin siyasi prinsiplərinə və dövlətçilik əqidəsinə verilən ən ali dəyər idi.

1995-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2000-2005-ci illərdə Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri, sonrakı illərdə Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, UNEC İctimai Nəzarət Şurasının üzvü və YAP Veteranlar Şurasının üzvü kimi fəaliyyət göstərən alim hər zaman təhsilimizin islahatlarına, milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət etmişdir. Bu müstəsna xidmətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək "Şöhrət" ordeni, "Əməkdar elm xadimi" fəxri adı və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə mükafatlandırılmışdır.

Şahlar Əsgərovun fenomenliyi ondadır ki, o, dəqiq elmlərin məntiqini sosial fəlsəfəyə, milli düşüncə sisteminə gətirə bildi. Bir fizikin kəskin analitik zəkası ilə bir filosofun dərin mənəvi baxışını özündə birləşdirən alim cəmiyyət həyatındakı proseslərə həmişə orijinal kəşflər işığında yanaşdı. Yüzlərlə elmi və publisistik məqalənin, ondan çox kitabın müəllifi olan alimin qələmindən çıxan "Keçid dövrünə fəlsəfi baxış", "Düşüncə tərzi", "Yonulmuş daş yolda qalmaz", "Heydər Əliyevin həyatının unikal səhifələri"... kimi kitabları cəmiyyətin mənəvi mənzərəsini çəkir.

Lakin bir kəlbəcərli ziyalı, doğma yurdunun nisgilini illərlə qəlbində gəzdirən vətənpərvər insan kimi onun qələmindən süzülən ən müqəddəs sətirlər Zəfər tariximizlə bağlı oldu. Otuz ilə yaxın bir müddətdə doğma Kəlbəcərin işğalı ilə barışmayan, hər zaman qələmi ilə cəmiyyətə milli birlik və qurtuluş ruhu aşılayan Şahlar müəllim üçün 44 günlük Vətən müharibəsi ömrün ən böyük mənəvi zirvəsinə çevrildi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun rəşadəti sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunması, Kəlbəcərin və digər torpaqlarımızın azadlığa qovuşması alimin uzun illər qəlbində yaşatdığı ən böyük arzunun gerçəkləşməsi idi. Məhz bu böyük tarixi qələbədən sonra yazdığı "Düzgün qərarın hikməti" kitabı onun həmin şanlı Zəfərə, dövlətimizin tam suverenliyinə və milli birliyimizin fəlsəfəsinə həsr etdiyi ən dəyərli töhfəsi oldu. Doğma yurdunu azad, Azərbaycanı isə bütöv və qüdrətli görmək bir ziyalı kimi Şahlar Əsgərovun ömür səhifələrinə yazılan ən gözəl yazı idi.

Alim özünün müdriklik çağında da yazır, yaradır və gənc nəslə yol göstərir. Rəhbərliyi altında yetişən onlarca elmlər doktoru və fəlsəfə doktoru bu gün elmin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir. Tələbələri üçün Şahlar müəllim, sadəcə, elmi rəhbər deyil, eyni zamanda qayğıkeş bir ata, mənəvi dayaq və həyat məktəbidir.

İnsan var ki, illəri yaşayır, insan da var ki, illərə məna qatır. 85 illik ömür yolunu halallıqla, yorulmaz zəhmətlə və zəngin irslə naxışlayan Şahlar Əsgərov məhz illərə dəyər qatan ziyalılarımızdandır.

Onun qazandığı ən böyük sərvət isə dövlətinə göstərdiyi sadiqliyin qarşılığı, yetirmələrinin, həmkarlarının və Azərbaycan ictimaiyyətinin ona bəslədiyi tükənməz xalq sevgisi və ehtiramıdır. Bu əlamətdar yubiley günündə böyük alimimizə, dəyərli ziyalımıza möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi və yeni-yeni elmi uğurlar arzulayırıq!

***Qurban SADIQOV,***
***Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının sektor müdiri***

# Bakı ilə Roma arasında qarşılıqlı güvən artır

## Azərbaycanın İtaliya ilə enerji əməkdaşlığı daha da genişlənir

**İtaliya illərdir Azərbaycan məhsullarının, xüsusən də neft-qaz sektoru məhsullarının dünyadakı ən böyük alıcısı və əsas ticarət tərəfdaşımızdır. Ötən il ölkəmizdən İtaliyaya 9,5 milyard kubmetr təbii qaz və təxminən 10 milyon ton neft tədarük olunub. Göründüyü kimi, İtaliya Azərbaycandan əsasən enerji daşıyıcıları idxal edir.**



"Cənub qaz dəhlizi"nin Avropa qolu olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə nəql edilən təbii qaz İtaliyanın enerji təhlükəsizliyində əsas rol oynayır və Azərbaycan bu ölkənin ən böyük qaz təchizatçılarından biridir. Başqa sözlə, İtaliyaya milyardlarla kubmetr "Şahdəniz" təbii qazı nəql olunur və bu, həmin ölkənin qaz balansında ikinci yeri tutur.

Lakin enerji sahəsində əməkdaşlıq bunlarla bitmir, illər keçdikcə daha da genişlənir və enerji sektorunun digər sahələrinə şaxələnir. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) hazırda İtaliyada yeni investisiya layihələri və ya əlavə aktivlərin əldə olunması ilə bağlı məsələləri formalaşdırılan investisiya planı çərçivəsində qiymətləndirir. Mövcud layihələrin icrası isə plan üzrə davam etdirilir.

Bu istiqamətdə mühüm misallardan biri keçən ilin iyununda İtaliyanın SARPOM neft emalı zavodunda "yaşıl hidrogen" istehsalına xidmət edən ölkənin ilk "Hydrogen Valley" layihəsi üzrə işlərə başlanılmışdır. Layihə şirkətin enerji keçidi, innovasiya və dayanıqlı inkişaf yönümündə həyata keçirdiyi fəaliyyətin mühüm nümunələrindən biridir.

Xatırladaq ki, SOCAR 2025-ci ilin sentyabrında İtaliyanın aparıcı enerji şirkətlərindən biri olan "Italiana Petroli"(İP) şirkətinin 99,82 faiz səhmlərinin "API Holding"dən alınması barədə saziş imzalayıb. Səhmlərin alınması prosesi bu ilin mayında tamamlanıb. Romada "SOCAR İtaliya" şirkətinin bu il mayın 28-də rəsmi təqdimatı da olub.

"SOCAR İtaliya" Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İtaliyanın ən böyük downstream (paylama və satış) şirkəti olan "Italiana Petroli"nin alınmasından sonra Romada rəsmi təqdim edilən nümayəndəliyidir və yeni törəmə şirkətidir.

"Italiana Petroli"nin alınması beynəlxalq diversifikasiya strategiyamızın həyata keçirilməsində mühüm addımdır. Bu, rəqabətədavamlı, innovativ və sosial məsuliyyətli biznesin inkişafına uzunmüddətli sadiqliyimizi göstərir, Avropanın enerji təhlükəsizliyinə töhfə verir və Azərbaycanla İtaliya arasında tərəfdaşlığı daha da gücləndirir". Bu, SOCAR-ın prezidenti Rövşən Nəcəfin fikirləridir.

Qeyd edək ki, "Italiana Petroli" şirkəti İtaliya üzrə 4500-dən çox IP-brendli yanacaqdoldurma məntəqəsinə malikdir. O, iki neftayırma zavodu vasitəsilə illik təxminən 10 milyon ton neft emalı gücünə sahibdir. Şirkət ölkəni əhatə edən geniş logistika və təchizat şəbəkəsinə nəzarət edir.

"Italiana Petroli" 1933-cü ildən mobillik və downstream sahəsində fəaliyyət göstərir. 1600 işçisi var.

SARPOM neft emalı zavodu isə İtaliyanın şimalında, Novara əyalətinin Trecate şəhərində yerləşən mühüm yanacaq istehsalı müəssisəsidir. Müəssisə SOCAR-ın sahibləndiyi İtaliyanın İP şirkətinə daxildir. Bu zavod əsasən neft məhsulları və yanacaq istehsalı həyata keçirir. Zavodda ölkənin "yaşıl hidrogen" istehsalına yönəlmiş ilk "Hydrogen Valley" layihəsi çərçivəsində günəş enerjisi ilə işləyən elektrolizator quraşdırılaraq ekoloji təmiz hidrogen istehsalına başlanılıb.

Həmçinin bu ilin iyulunda SOCAR ilə "Technip Energies Italy S.p.a." arasında Anlaşma Memorandumu imzalanıb. Sənəd "Petkim Master Plan" layihəsi çərçivəsində potensial əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsini nəzərdə tutur. Bu, iyulun 9-da SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Technip Energies Italy S.p.a."nın baş icraçı direktoru Karlo Korsi ilə görüş zamanı baş tutub.

Görüşdə şirkətlər arasında ötən illər ərzində formalaşmış uğurlu tərəfdaşlıqdan məmnunluq ifadə olunub, potensial əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi ilə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb. Söhbət zamanı neft-kimya sahəsində yüksək xammal çevikliyinə malik istehsal həllərinin tətbiqi, eləcə də məhsuldarlığın artırılması və enerji səmərəliliyinin yüksəldilməsi istiqamətlərində mümkün əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Tərəflər SOCAR-ın xarici ölkələrdə icra etdiyi layihələrdə "Technip Energies Italy S.p.a." şirkətinin iştirakı imkanlarına," yaşıl enerji" və dekarbonizasiya layihələri üzrə tərəfdaşlığa dair fikir mübadiləsi aparıblar. Anlaşma Memorandumu da elə bu görüş çərçivəsində imzalanıb.

Qeyd edək ki, "Technip Energies Italy S.p.A." İtaliyada yerləşən, qlobal mühəndislik və texnologiya şirkəti olan "Technip Energies" qrupuna daxil olan aparıcı qurumdur. Şirkət aşağı karbonlu enerji, təbii qaz, neft-kimya, "yaşıl texnologiya"lar və karbonsuzlaşdırma sahələrində layihələrin layihələndirilməsi, mühəndisliyi və icrası ilə məşğuldur. Həmçinin neft-kimya müəssisələri üçün qabaqcıl və çevik istehsal həlləri, eləcə də enerji səmərəliliyinin artırılması, karbon tullantılarının azaldılması, tullantıların innovativ emalı və dairəvi iqtisadiyyat texnologiyaları üzrə fəaliyyət göstərir.

Şirkət qaz və aşağı karbonlu enerji sistemlərinin qurulmasında 60 ildən artıq qlobal təcrübəyə malikdir. SOCAR-ın tərəfdaşıdır. Tərəflər arasında "Petkim Master Plan" və enerji səmərəliliyi istiqamətində anlaşma memorandumları imzalanıb. Azərbaycan İnvestisiya Şirkəti və yerli sənaye parkları ilə "Piroliz yağı istehsalı" kimi ekoloji və tullantıların emalına yönəlmiş "yaşıl texnologiya" layihələrində iştirak edir. Əvvəlki illərdə isə "Azərkimya" İB-nin yenidənqurma və modernizasiya işlərində də mühüm mühəndislik xidmətləri göstərib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Qərbi Azərbaycana qayıdış zamanın və ədalətin tələbidir"

**Vətən müharibəsində qazanılan tarixi Zəfər regionda yeni reallıqlar yaratmaqla yanaşı, illərdir ürəklərimizdə qubar etmiş arzularımızın həyata keçirilməsi istiqamətində də mühüm mərhələnin əsasını qoydu. Məhz tarixi Zəfərdən sonra Qərbi Azərbaycana qayıdış məsələsi daha geniş müstəvidə aktuallaşdı, tarixi, hüquqi və humanitar aspektləri ilə dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi ön plana çıxdı.**



Əsrlər boyu azərbaycanlıların yaşayıb-yaratdıqları doğma yurd yerlərinə qayıdış ideyası bu gün dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq gündəmdə saxlanılır. 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşən Prezident İlham Əliyev demişdir: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar... Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq".

XIX əsrin əvvəllərindən başlayaraq erməni şovinistləri düşünülmüş, məqsədyönlü şəkildə azərbaycanlıları öz tarixi torpaqlarından, ata-baba yurdlarından didərgin salmış, əmlaklarını talamış, evlərini yandırmış, özlərinə divan tutaraq deportasiya etmişlər. Erməni vandalları bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı, yalnız milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar. Prezident İlham Əliyev bu barədə demişdir: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi 1905, 1918-ci illərdə Azərbaycan əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".

Müsahibim - əslən Göyçə mahalının Bala Məzrə kəndindən olan Amin Cəfərov dedi: "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun İkinci Qarabağ müharibəsində qələbə qazanması qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdacaqlarına ümidlərini birəbeş artırıb. Mənim böya-başa çatdığım Basarkeçər rayonu 1922-ci ilə qədər Azərbaycanın tərkibində olub. Göyçə gölünün ətrafında bir neçə rayon yerləşsə də, yalnız Basarkeçər Göyçə sayılırdı. Burada azərbaycanlılar kompakt yaşayırdılar. Bu səfalı mahalın əsrarəngiz və füsunkar təbiəti, bərəkətli torpaqları, yaşıl yamacları, ecazkar yaylaqları, buzlu bulaqları, nadir qızıl balıqları, min bir dərdin dərmanı olan bitkiləri hər kəsi məftun edirdi. Göyçə gölündən 3-4 kilometr məsafədə yerləşən Bala Məzrə kəndi müasirliyi, əhalisinin zəhmətsevərliyi, təhsilə xüsusi önəm verməsi ilə seçilirdi. Kəndimizin gəncləri təhsil almaq, peşəkar mütəxəssis olmağa çox meyilli idilər. İstər gənclər, istərsə valideynlər tərəfindən təhsilə qayğı və tələb yüksək səviyyədə idi. Müəllimlər tələbkar, habelə məsuliyyətli idilər. Məhz bunun nəticəsi idi ki, hər il məzunların 97-98 faizi müxtəlif ali məktəblərə qəbul olunurdular. Bu il Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Bala Məzrə kənd orta məktəbinin 100 illiyini keçirmək niyyətindəyik. Bunun üçün arxiv sənədləri əsasında texniki işlər görülür, kitablar, bukletlər hazırlanır".

Müsahibim bildirdi ki, ötən əsrin 80-ci illərindən başlayaraq ermənilər azərbaycanlıları sıxışdırmağa başladılar: "Rayonda rəhbər vəzifələrdə işləyən azərbaycanlıları zorla, yaxud müxtəlif yollarla ləkələməklə işdən çıxarır, yerinə qatı şovinist erməniləri təyin edirdilər. Paralel olaraq, xarici ölkələrdən - Kipr, Misir, Suriya, İran, ABŞ, Türkiyə, Uruqvay və Argentinadan olan erməniləri bölgələrdə yerləşdirməyə başladılar. 1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti "Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibindən çıxarılaraq, Ermənistan SSR-nin inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında" qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi. Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra erməni şovinistləri, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il iyunun 15-də Göyçə mahalında azərbaycanlılar ermənilərin özbaşınalıqlarına qarşı etiraz səslərini qaldırdılar. Əfsuslar ki, ovaxtkı səriştəsiz Azərbaycan rəhbərliyinə müraciət edilsə də, heç bir nəticəsi olmadı. Yeganə çarəmiz özümüzü, ailəmizi, qohum-əqrəbamızı qorumaq üçün gecə-gündüz ayıq-sayıq dayanmaq idi.

Onu da deyim ki, ermənilər məqsədyönlü olaraq kənddə yaraşıqlı, böyük evlərin tikilməsinə mane olmurdular. Bu baxımdan kənddə yaşamaq üçün hər bir şərait yaradılmışdı. Nə biləydik ki, xain, xəbis qonşular gizli plan hazırlayıb bizləri vətəndən didərgin salacaqlar.

Basarkeçərin bütün kəndlərində olduğu kimi, bizim kəndin sakinləri də haqlı tələblərlə mitinqlərdə iştirak edirdilər. Həmin günlər rayonda bir erməni də qalmamış, qorxudan İrəvana qaçmışdılar. Biz dədə-baba yurdumuzdan, torpaqlarımızdan çıxmaq istəmir, Bakıdan dəstək gözləyirdik. Bizi köməksiz görən ermənilər çox harınladılar. Evlərə soxulur, yolları kəsir, rayon mərkəzinə gedənləri döyür, daşa basırdılar. Rayon rəhbərliyi də erməni idi. Kəndlilərə xəbər göndərirdi ki, Göyçədən çıxın, yoxsa hamınız qırılacaqsınız. Ermənilər azğınlaşır, bizim sıralarımız isə seyrəlirdi. Dəstək olmadığından müqavimətimiz də uzun müddət davam edə bilmədi. Beləcə, Göyçədən kütləvi köç başladı. 350-dən çox yaşayış məntəqəsindən 250 min azərbaycanlı, 85 min Azərbaycan kürdü qovuldu.

1988-ci il noyabr ayının sonu, dekabrın əvvəli idi. Şaxtalı, boranlı havada minlərlə ailə evini, yurdunu tərk etməli oldu. Nə qədər uşaq yolda şaxtadan dondu. Ermənilərin mərkəzi yolu bağladığından Kəlbəcər yolu ilə hərəkət edilirdi. Beləliklə, ürəyimizi, əmlakımızı Göyçədə qoyub min bir əziyyətlə Gəncəyə pənah gətirdik. Bu şəhər minlərlə ailəyə qucaq açdı. Gəncədə məskunlaşdıq. Amma Göyçə həsrəti, niskili ilə yaşayırıq. Açığını desək, əvvəllər Göyçəyə qayıdacağımıza ümidimiz yox idi. Amma bu gün var. Qalib Prezidentimizin dediyi kimi, işğaldan azad olunan kəndlərin sakinləri indi doğma yurdlarında yaşayırlar. Oranı heç vaxt görməyən uşaqlar belə ata yurdlarına qayıdıblar.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Əfsuslar olsun ki, ermənilər Göyçə mahalında olduğu kimi, hər yerdə bizim bütün tarixi, dini abidələrimizi yerlə yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər. Bütün dünyaya məlumdur ki, Qərbi Azərbaycanın bütün kəndlərinin, obalarının, çaylarının, göllərinin, dağlarının, dərələrinin və s. adları Azərbaycan mənşəlidir, ermənilərin burada bir qarış yeri və torpağı olmayıb. Görünən odur ki, icma bu işləri daha məqsədyönlü şəkildə aparır. Biz, azərbaycanlılar, o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Qərbi Azərbaycana qayıdış zamanın, haqqın-ədalətin tələbidir. Əminəm ki, Göyçəmizə qayıdacağıq. Bu sözlər hər bir qərbi azərbaycanlının illərlə ürəyində yaşatdığı istəkdir".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycanda söz və fikir azadlığı tam təmin olunub

## Milli mətbuatımızın inkişafının təməli 1998-ci il avqustun 6-da senzuranın ləğvi ilə qoyulub

**Demokratik və hüquqi cəmiyyətin dayaqlarını söz, fikir və mətbuat azadlığı olmadan təsəvvür etmək mümkünsüzdür. Zəngin tarixi keçmişə və qabaqcıl ənənələrə malik olan Azərbaycan mətbuatı hər zaman vətəndaş cəmiyyətinin qurulmasında mühüm vasitə olub. Cəmiyyətdə aşkarlığın bərqərar olunmasında, ictimai problemlərin açıq müzakirəsində və sosial ədalətin müdafiəsində medianın rolu danılmazdır. Bu mənada, 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman milli mətbuatımızın inkişafında mühüm mərhələdir. Məhz həmin tarixi qərarla ölkəmizdə mətbuata dövlət qayğısının təməli qoyulub, senzura birdəfəlik ləğv edilib.**



Azərbaycan mətbuatının inkişaf tarixini dörd əsas mərhələyə ayırmaq olar. 1875-1920-ci illər Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə başlayan maarifçilik və milli şüurun oyanışı dövrüdür. Həmin illərdə Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə və Üzeyir bəy Hacıbəyli kimi böyük mütəfəkkirlər mətbuat vasitəsilə xalqın maariflənməsinə böyük töhfələr veriblər. Xüsusilə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə "İstiqlal", "Azərbaycan" kimi qəzetlərin nəşri ilə müstəqil mətbuatın ilk parlamentarizm və dövlətçilik ənənələri formalaşıb. 1920-1991-ci illəri əhatə edən sovet dönəmində mətbuat ideoloji çərçivələrə salınsa da, jurnalistikada peşəkarlığın formalaşması baxımından mühüm təcrübə toplanılıb. Xüsusilə 1969-cu ildən sonra Heydər Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlərin qorunmasına diqqət artırılıb, Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsi tələbələrinin Moskvaya təhsil almağa göndərilməsi milli media məktəbinin inkişafına güclü təkan verib. Bununla yanaşı, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması mətbuatda milli ruhun və ana dilimizin qorunmasında müstəsna rol oynayıb. Ötən əsrin 90-cı illərinin əvvəli müstəqilliyin ilk dövrünə təsadüf edərək hərbi senzura və müxtəlif inzibati maneələrlə yadda qalıb. 1998-ci ildən sonrakı mərhələ isə senzuranın tam ləğvi, həyata keçirilən hüquqi islahatlar və azad mətbuatın bərqərar olunması ilə xarakterizə olunur.

Əvvəla, qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində ölkədə mövcud olan hərbi və inzibati nəzarət azad sözün inkişafına böyük maneələr törədirdi. 1992-ci ilin aprelində tətbiq edilən hərbi nəzarət və 1993-cü ildə informasiya yayımına qoyulan məhdudiyyətlər mətbuatın sərbəst fəaliyyətini iflic etmişdi. Nəhayət, 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv olundu. Bununla da postsovet məkanında ilk dəfə məhz Azərbaycan mətbuat üzərindəki dövlət nəzarətinə tamamilə son qoydu. Bu fərman böyük siyasi iradənin nəticəsi kimi tarixdə qaldı.

Senzuranın ləğvindən dərhal sonra media sahəsində mühüm güzəştlər tətbiq olundu. Kütləvi informasiya vasitələri üzərindən ƏDV ləğv edildi. Ölkəyə gətirilən qəzet kağızı üçün tətbiq olunan rüsumlar aradan qaldırıldı. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" qanuna edilən dəyişikliklərlə yeni media orqanlarının təsis edilməsi proseduru sadələşdirildi. Həmçinin 2001-ci ildə KİV-ə dövlət qayğısının artırılması barədə imzalanan sərəncam mətbuatın maliyyə müstəqilliyini daha da möhkəmləndirdi. Mətbuata göstərdiyi davamlı diqqətə görə Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" elan olundu.

Ulu Öndərin əsasını qoyduğu bu mütərəqqi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qərarları ilə mətbuat orqanlarının maddi-texniki bazası mütəmadi olaraq möhkəmləndirilir. Prezident İlham Əliyev ölkəmizin inkişaf strategiyasını açıqlayarkən azadlıqların təmin edilməsinin vacibliyini bu sözlərlə ifadə edib: "Bizim ümumi məqsədimiz ondan ibarət olmalıdır ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha da böyük addımlar ataq. Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər".

Dövlətimizin media sahəsinə göstərdiyi dəstəyi illər üzrə həyata keçirilən tədbirlərdə aydın görmək mümkündür. 2005-ci ildə mətbuatın 130 illiyi ərəfəsində qəzetlərin Azərbaycan Nəşriyyatına olan borcları silindi, 30-dək media orqanına maliyyə köməyi göstərildi, 140-dan çox jurnalist təltif edildi. 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5000 manat, 2009-cu ildə isə 39 qəzet redaksiyasının hər birinə 10 min manat birdəfəlik maliyyə yardımı oldu. Dövlət dəstəyinin təsisatlaşması istiqamətində atılan mühüm addımlardan biri kimi 2009-cu ildə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Milli mətbuatın 135 illik yubileyində isə Mətbuat Şurasının müasir inzibati binası istifadəyə verildi. Mətbuatın 140 və 145 illik yubileyləri çərçivəsində də kütləvi informasiya vasitələrinə yüz minlərlə manat həcmində birdəfəlik yardım ayrıldı, jurnalistlərin sosial müdafiəsi və peşəkarlığının artırılması istiqamətində kompleks tədbirlər görüldü.

Son illərdə Azərbaycan mediasının müasir dövrün çağırışlarına uyğunlaşdırılması istiqamətində köklü institusional və hüquqi islahatlar həyata keçirilib. Prezident İlham Əliyevin 2021-ci il 12 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) publik hüquqi şəxs yaradılıb, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması və rəqəmsal transformasiyanın sürətləndirilməsi dövlət siyasətinin prioritetinə çevrilib. Həmçinin 2022-ci il fevralın 8-də qüvvəyə minən yeni "Media haqqında" qanun sahənin müasir standartlara uyğun hüquqi əsaslarını və fəaliyyət qaydalarını müəyyənləşdirib. Həmin ilin oktyabr ayından etibarən fəaliyyətə başlayan Media Reyestri sistemi media subyektlərinin və jurnalistlərin fəaliyyətində şəffaflığı təmin edib, vahid "Jurnalist vəsiqəsi" standartını tətbiq edərək media mühitinin sağlamlaşdırılmasına müstəsna töhfə verib. 2025-ci ilin iyul ayında milli mətbuatımızın 150 illik yubileyinin dövlət səviyyəsində təntənəli şəkildə qeyd edilməsi, silsilə yubiley tədbirlərinin keçirilməsi, media orqanlarına, jurnalistlərə növbəti dövlət dəstəyinin göstərilməsi bu sahəyə diqqətin davamlı xarakter daşıdığını bir daha sübut edir.

Hazırda ölkəmizdə çoxsaylı mətbuat orqanı, televiziya və radio kanalları, informasiya agentliyi sərbəst fəaliyyət göstərir. Yazılı media təsis etmək üçün heç bir dövlət qurumundan icazə almağa ehtiyacın olmaması Azərbaycanın söz azadlığına verdiyi dəyərin göstəricisidir. 1998-ci il 6 avqust fərmanı ilə əsası qoyulan azadlıq zənciri bu gün də müstəqil medianın ən böyük təminatçısıdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# *Hüsamettin İNANÇ:* "TDT-nin gələcəyi Türkiyə-Azərbaycan strateji sinerjisi üzərində formalaşır"

**"Türk Dövlətləri Təşkilatının (TDT) formalaşmasının və bugünkü inkişafının əsasında Azərbaycan ilə Türkiyə arasında yaranmış strateji sinerji dayanır. Xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra bu əməkdaşlığın yaratdığı geosiyasi təsir Cənubi Qafqazda yeni reallıqlar formalaşdırdı və digər türk dövlətləri üçün də nümunəyə çevrildi".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk politoloq Hüsamettin İNANÇ** deyib.

Politoloq bildirib ki, Vətən müharibəsi zamanı və sonrakı dövrdə Azərbaycan ilə Türkiyənin birgə hərəkət etməsi iki qardaş ölkənin strateji əməkdaşlığının nə qədər böyük geosiyasi təsir gücünə malik olduğunu nümayiş etdirdi.

"Bu sinerji zaman keçdikcə digər türk dövlətləri üçün də örnək oldu. İnteqrasiya prosesinə ən yaxın qoşulan ölkələrdən biri Özbəkistandır. Çünki Özbəkistan uzun illər Rusiya, Çin və Avropa təsirlərindən daha qapalı siyasi xətt yürüdüb. Digər tərəfdən, Qazaxıstan, Qırğızıstan və Türkmənistan müxtəlif geosiyasi səbəblərdən bu prosesə daha ehtiyatla yanaşıblar", - deyə o bildirib.

Hüsamettin İnanç qeyd edib ki, bunun obyektiv səbəbləri mövcuddur. "Sovet dövründən qalan qapalı idarəçilik sistemi türk dövlətləri arasında dərin əməkdaşlığın formalaşmasını uzun müddət çətinləşdirib. Lakin zaman keçdikcə münasibətlərin inkişafı, TDT-nin institusional əsaslarının möhkəmlənməsi və təhlükəsizlik sahəsində əməkdaşlığın genişlənməsi bu tərəddüdləri tədricən aradan qaldırmağa başlayıb. Türkmənistan uzun illər neytrallıq siyasəti yürüdərək bu inteqrasiya proseslərindən müəyyən qədər kənarda qalmağa üstünlük verib. Belə proseslər ancaq zamanla, qarşılıqlı etimad və təcrübə ilə formalaşır. Qırğızıstanla müttəfiqlik münasibətlərinin qurulması da bu baxımdan mühüm mərhələdir. Bu, ölkənin uzun illər davam edən geosiyasi məhdudiyyətlərdən çıxaraq daha geniş beynəlxalq inteqrasiyaya istiqamətlənməsinin göstəricisidir", - deyə Hüsamettin İnanç bildirib.

H.İnanç qeyd edib ki, yeni geosiyasi reallıqlar türk dövlətləri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini zəruri edir. Xüsusilə nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi və TDT-nin praktiki əməkdaşlıq imkanlarının artırılması vacibdir. Formalaşan yeni əməkdaşlıq modeli yalnız iqtisadi inteqrasiyanı deyil, həm də nəqliyyat, enerji və təhlükəsizlik arxitekturasının yenidən qurulmasını nəzərdə tutur. Rusiya-Ukrayna müharibəsi nəticəsində Şimal marşrutu, Qəzza bölgəsində baş verən hadisələr fonunda isə cənub istiqamətindəki marşrutlar əvvəlki effektivliyini itirib. Belə şəraitdə Orta dəhlizin sürətlə inkişaf etdirilməsi artıq strateji zərurətə çevrilib. Bunun üçün isə türk dövlətləri arasında inteqrasiyanın daha da gücləndirilməsi, xüsusilə Qazaxıstan, Qırğızıstan və Türkmənistanın bu prosesə daha fəal qoşulması mühüm əhəmiyyət daşıyır.

Ekspert hesab edir ki, Mərkəzi Asiya türk dövlətlərinin tam müstəqil və güclü inteqrasiya modeli yaratması müəyyən vaxt tələb edəcək. "Bu, asan proses deyil. Burada Azərbaycan və Türkiyənin formalaşdırdığı strateji nüvə əsas rol oynayacaq. Hər iki ölkə digər türk dövlətlərinin inteqrasiyasını təşviq edən, onları bu istiqamətdə dəstəkləyən və qarşılıqlı etimadı gücləndirən siyasət həyata keçirir. Sovet İttifaqının dağılmasından sonra türk dövlətləri əməkdaşlıq baxımından mühüm vaxt itkisi yaşayıblar. Artıq yeni onillikləri itirməyə haqqımız yoxdur. Dövlət idarəçiliyi modelləri, tarixi təcrübə və formalaşmış siyasi mədəniyyət səbəbindən bu inteqrasiya istənilən sürətlə getməsə də, proses davam edir. Qarşılıqlı etimadın artması, iqtisadi və siyasi əlaqələrin genişlənməsi, bir-birinə dəstəyin güclənməsi və təhlükəsizlik sahəsində ortaq siyasi iradənin möhkəmləndirilməsi nəticəsində Türk Dövlətləri Təşkilatı daha güclü institusional quruma çevriləcək", - deyə ekspert bildirib.

Sonda Hüsamettin İnanç vurğulayıb ki, belə strateji inteqrasiya prosesləri qısa müddətdə nəticə vermir. "Bu, zaman, səbir, qarşılıqlı etimad və ardıcıl siyasi iradə tələb edən uzunmüddətli prosesdir. Lakin bu istiqamətdə atılan addımlar göstərir ki, türk dövlətləri ortaq gələcəyin qurulması yolunda inamla irəliləyirlər", - deyə türk ekspert əlavə edib.

# Etibarlı tərəfdaş və strateji mərkəz

## Azərbaycanın məqsədyönlü strategiyası qlobal nəqliyyat və enerji layihələrində ölkəmizin həlledici mövqeyini daha da möhkəmləndirir

**Şərqlə qərbin, şimalla cənubun qovşağında, unikal coğrafi məkanda yerləşən Azərbaycan logistik və resurs potensialını reallaşdırmaqla beynəlxalq nəqliyyat və enerji zəncirində həlledici mövqeyini ardıcıl şəkildə möhkəmləndirir. Xüsusən, dünya nizamının yenidən formalaşdığı dövrdə Qərbin, Avropa İttifaqının Azərbaycana artan marağının və bunun yüksək səviyyədə ifadə olunması ölkəmizin geostrateji nüfuzunun təzahürüdür.**

Bu reallıq neytrallığı və iqtisadi praqmatizmi ilə seçilən Avropa dövlətlərinin və aparıcı xarici şirkətlərin də diqqət mərkəzindədir. İsveçrənin Federal Xarici İşlər Departamentinin rəhbəri İqnasio Kassis ölkəmizdə səfərdə olarkən vurğulayıb ki, Azərbaycanın coğrafi mövqeyi ona şərqlə qərb arasında körpü rolunu oynamağa kömək edir. Onun sözlərinə görə, İsveçrə Orta dəhlizin inkişafında maraqlıdır, çünki etibarlı və şaxələndirilmiş ticarət yolları açıq və dayanıqlı qlobal iqtisadiyyat üçün çox əhəmiyyət kəsb edir: "Cenevrədə yerləşən "Mediterranean Shipping Company" (MSC) tərəfindən ötən il Bakıda nümayəndəliyin açılması Azərbaycanın regional nəqliyyat mərkəzi kimi roluna artan marağın bariz nümunəsidir". Bu qiymətləndirmə Azərbaycanın təhlükəsiz, etibarlı və dayanıqlı logistik mərkəz kimi beynəlxalq aləmdə qəbul olunduğunun növbəti göstəricisidir.

Azərbaycanın qlobal layihələrdəki rolu coğrafi mövqe ilə məhdudlaşmır və müstəqil, ardıcıl və çoxşaxəli dövlət siyasətinə söykənir. Ölkəmiz regional daşımaların fəal iştirakçısı olmaqla bərabər, bir çox halda qlobal əhəmiyyətli təşəbbüslərin də müəllifidir. "Şərq-Qərb" və "Şimal-Cənub" tranzit dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan həm yaxın qonşuları, həm də kənar region dövlətləri ilə balanslaşdırılmış münasibətlər quraraq hər bir iştirakçıya fayda verən unikal əməkdaşlıq modeli formalaşdırıb.

Xüsusilə Orta dəhlizin əhəmiyyətinin sürətlə artması, Çinlə strateji tərəfdaşlığın dərinləşməsi və Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin tamamilə yeni müstəviyə keçməsi ölkəmizin tranzit missiyasına yeni məzmun qazandırır. Ənənəvi marşrutların risklərlə üzləşdiyi bir vaxtda Azərbaycan üzərindən keçən təhlükəsiz və dayanıqlı yollar bütövlükdə Avrasiya məkanı üçün strateji qarant rolunu oynayır.

Dəyişən iqtisadi vəziyyəti vaxtında qiymətləndirən dövlətimiz daxili imkanları hesabına nəqliyyat infrastrukturuna, dəniz limanlarına və




dəmir yollarına sərmayələr yatırır, mövcud imkanlarının genişləndirilməsini planlı şəkildə həyata keçirir. Avropa rəsmilərinin Cənubi Qafqazı Avropa, Xəzər və Mərkəzi Asiya regionlarını birləşdirən mühüm mərkəz kimi dəyərləndirməsi və bu fonda Azərbaycanın rolunun qabardılması təsadüfi deyil. Ölkəmizin yaratdığı müasir logistik baza, genişləndirilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, modernləşdirilən dəniz və dəmir yolu şəbəkəsi qitələrarası yükdaşımaların təhlükəsiz və çevik şəkildə həyata keçirilməsinə zəmanət verir. Bakının irəli sürdüyü bağlantı tərəfdaşlığı təşəbbüsləri və beynəlxalq investisiya dialoqları Azərbaycanı böyük iqtisadi layihələrin idarəetmə mərkəzi kimi təsdiqləyir.

Bağlantı xətlərinin inkişafı ilə yanaşı, Azərbaycan enerji siyasətini də uğurla həyata keçirir. Müasir dövrdə enerji təhlükəsizliyi dövlətlərin iqtisadi müstəqilliyi və siyasi sabitliyi ilə birbaşa bağlıdır. Müstəqilliyin ilk illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan neft strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da zənginləşdirilib. "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri Xəzər hövzəsinin resurslarını beynəlxalq bazarlara etibarlı şəkildə çatdıran əsas arteriyaya çevrilib. Hazırda Azərbaycan 16 ölkəyə təbii qaz ixrac edir və boru kəmərləri vasitəsilə qaz tədarükünün coğrafi əhatəsinə görə dünyada lider mövqedə qərarlaşıb. Ölkəmizin Avropa qitəsinə enerji ixrac etdiyi 12 ölkədən 10-u Avropa İttifaqının üzvüdür. Avropanın enerji xəritəsini "Cənub qaz dəhlizi" olmadan təsəvvür etmək qeyri-mümkündür. Müqavilə öhdəliklərinə tam riayət olunması ölkəmizin etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir.

Azərbaycanın enerji strategiyası yalnız ənənəvi karbohidrogen resurslarla məhdudlaşmır. Dövlətimiz "yaşıl enerji"yə keçidi prioritet elan edərək regional liderliyini bu sahədə də nümayiş etdirir. Xəzər dənizinin külək potensialı, ölkə üzrə günəş enerjisi layihələri, eləcə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan "yaşıl zona" infrastrukturu yeni dövrün tələblərinə tam cavab verir. Mövcud 2 giqavatlıq gücün 2032-ci ilədək imzalanmış müqavilələr hesabına əlavə 7-8 giqavat artırılması planı Azərbaycanı yaxın gələcəkdə Avropanın əsas yaşıl elektrik enerjisi təchizatçılarından birinə çevirəcək.

Azərbaycan böyük güc mərkəzləri və beynəlxalq təsisatlarla münasibətlərində hər zaman qarşılıqlı hörmət, bərabərhüquqluluq və milli maraqların qorunması prinsiplərindən çıxış edir. Enerji ixracından əldə olunan gəlirlər daxili infrastrukturun modernləşdirilməsinə, qeyri-neft sənayesinin yüksəlişinə və sosial rifahın artırılmasına yönəldilərək iqtisadiyyatın dayanıqlığını təmin edir. Logistika, rəqəmsallaşma və enerji sahələrinin paralel inkişafı Azərbaycanın qlobal çəkisini artırmaqla yanaşı, onu regionda sülhün, təhlükəsizliyin və iqtisadi tərəqqinin başlıca hərəkətverici qüvvəsinə çevirir.

Ölkəmizin beynəlxalq müstəvidə artan çəkisi təkcə iqtisadi faydalarla kifayətlənmir, həm də Azərbaycanı humanitar və siyasi dialoqun əsas ünvanlarından birinə çevirir. Bakının möhtəşəm beynəlxalq tədbirlərə, diplomatik sammitlərə və sülh təşəbbüslərinə evsahibliyi etməsi Azərbaycanın geosiyasi mövqeyini gücləndirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və balanslaşdırılmış dövlət siyasəti Azərbaycanı Avrasiyanın əvəzolunmaz strateji mərkəzi səviyyəsinə yüksəldib. Ölkəmzin müəllifi olduğu böyük layihələr, yeni əməkdaşlıq formatları və təhlükəsizlik arxitekturası gələcək onilliklərin də geostrateji mənzərəsini müəyyən edəcək. Azərbaycan öz milli maraqlarını qətiyyətlə qoruyaraq qlobal enerji, nəqliyyat və siyasi-humanitar mərkəz kimi dünya siyasətindəki həlledici rolunu daha da möhkəmləndirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Nikol Paşinyan yeni hökuməti regional reallıqlara uyğunlaşdırmağa çalışır

**Tarixi zəfərimizdən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Cənubi Qafqazda tamamilə yeni geosiyasi reallıq formalaşıb. Azərbaycan beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini hərbi-siyasi müstəvidə təmin etməklə, regionda uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni imkanlar yaradıb. Məhz bu reallıq fonunda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və sülh sazişinin imzalanması regional gündəliyin əsas mövzularından birinə çevrilib.**



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, iki ölkə arasında ikitərəfli danışıqlar formatında müəyyən irəliləyişlər əldə olunub. Sərhədlərin delimitasiyası istiqamətində mühüm addımlar atılıb, bir sıra sərhəd məsələsi üzrə razılaşmalar əldə edilib. "Ötən ilin avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda Cənubi Qafqazın gələcəyini dəyişdirəcək tarixi hadisə baş verdi. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan görüşərək sülh yolunda mühüm addım atdılar. Bu görüşün nəticəsində "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətni razılaşdırıldı və xarici işlər nazirləri tərəfindən paraflandı. Bu, regionda uzun illər davam edən gərginliklərin aradan qalxmasına dair atılan real və tarixi bir addım oldu. Bununla belə davamlı və hüquqi baxımdan etibarlı sülhün əldə olunması üçün hələ də həllini gözləyən məsələlər qalmaqdadır", - deyə o bildirib.

Deputat qeyd edib ki, əsas məsələ Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasıdır. Bir dövlətin əsas qanununda digər dövlətə qarşı ərazi iddiası xarakteri daşıyan müddəalar saxlanıldığı halda imzalanacaq istənilən sülh sazişi gələcək üçün möhkəm hüquqi təminat yarada bilməz. Bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi qəti və dəyişməz olaraq qalır. Xarici işlər naziri Ceyhun Bayramov da İsveçrə Konfederasiyasının federal xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassis ilə Bakıda keçirdiyi birgə mətbuat konfransında vurğuladı ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır. Nazir qeyd etdi ki, hazırda Azərbaycanla Ermənistan arasında de-fakto sülh əldə olunub. Sadalanan irəliləyişlər Azərbaycan və Ermənistan arasında ikitərəfli danışıqlar əsasında baş verir və biz bundan sonra da müzakirələr aparacağıq. Sülh sazişinə gəlincə, bu məsələdə Azərbaycanın mövqeyi eynidir. Sülh sazişi Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılacağı təqdirdə mümkündür.

V.Rəhimzadə deyib ki, Ermənistanda yeni hökumətin formalaşmasından sonrakı siyasi mənzərə Baş nazir Nikol Paşinyanın ölkəni yeni regional reallıqlara uyğunlaşdırmağa çalışdığını göstərir: "Hökumət bir tərəfdən Avropa İttifaqı və digər Qərb institutları ilə əməkdaşlığı genişləndirməyə, digər tərəfdən isə Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması yolu ilə Ermənistanın uzun illər davam edən regional təcrid vəziyyətindən çıxmasına nail olmağa çalışır. Lakin bu siyasət Ermənistan daxilində birmənalı qarşılanmır. Müharibədən sonrakı dövrdə revanşist qüvvələr, radikal dairələr və bəzi dini institutlar hökumətin sülh təşəbbüslərinə qarşı çıxaraq ictimai rəydə narazılıq yaratmağa çalışırlar".

Deputat bildirib ki, sülh prosesinin qarşısında duran ən mühüm hüquqi maneə Ermənistanın mövcud konstitusiyasıdır. Təsadüfi deyil ki, Paşinyan son dövrlərdə dəfələrlə yeni konstitusiyanın qəbul edilməsinin zəruriliyini vurğulayıb. İrəvan hökumətinin yeni konstitusiya layihəsini referendum yolu ilə qəbul etmək niyyəti də məhz bu yanaşmadan irəli gəlir. "Növbəti il ərzində Ermənistan konstitusiyasına dəyişikliklərin edilməsi və bunun ardınca sülh sazişinin imzalanması ehtimalını tam istisna etmək olmaz. Lakin bu prosesin reallaşması üçün konstitusiya islahatlarının həyata keçirilməsi əsas şərtdir. Hazırkı geosiyasi mənzərə də göstərir ki, Cənubi Qafqazda sabitliyin və inkişafın alternativi yoxdur. Ermənistan da gec-tez yeni regional reallıqları hüquqi və siyasi müstəvidə tam qəbul etməli olacaq", - deyə Vüqar Rəhimzadə əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Təhlükəsizliyin insan kapitalı ilə möhkəmləndirilməsi

**Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına köç prosesini milli təhlükəsizliyinin insan resursları əsasında gücləndirilməsini təmin edən amil kimi diqqətdə saxlayır.**









Çünki milli təhlükəsizlik hərbi, müdafiə qabiliyyəti ilə yanaşı, demoqrafik artımın, iqtisadi inkişafın, sosial harmoniyanın və siyasi sabitliyin bərqərar olmasına yönəlmiş səylərə əsaslanır. Yüksək təhlükəsizlik səviyyəsini təmin etmək üçün insan resursları milli müdafiənin və ictimai asayişin son dərəcə vacib mənbəyi kimi çıxış edir. Bu yanaşma Qarabağ və Şərqi Zəngəzurda aparılmış işlərdə də özünü bariz şəkildə göstərir.

AZƏRTAC xatırladır ki, azad edilmiş ərazilərdə planlı məskunlaşdırma dinamikası Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" əsasında uğurla icra olunur. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərdə hazırda yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 90 mini ötüb.

Qeyd olunanlar Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının praktiki tərəflərini tamamlayan hadisədir. Konsepsiyaya əsasən, Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır.

Konsepsiyaya görə, Azərbaycanın təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycanın çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsi, eləcə də bütün regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Qarabağ və Şərqi Zəngəzurda da təhlükəsizliyin təmini üçün insan kapitalına önəm verilməsinə geniş prizmadan baxmaq lazımdır. Bunu konseptual olaraq üç aspekt üzrə qeyd etmək olar:

*- Qarabağda və Şərqi Zəngəzurda inkişafın, yenidənqurmanın və bərpanın parametrləri təhlükəsizlik subyektləri ilə məhdudlaşmır. Məsələyə yanaşmada daha genişölçülü səylər prioritetləşdirilir;*

*- Azərbaycanın müdafiəsinin təmin olunmasında və təhlükəsizliyinin qorunmasında əhali amili ümumi təhlükəsizlik konsepsiyasının elementi kimi önə çıxır;*

*- Regiona Böyük qayıdış Azərbaycanın geosiyasi mövqeyinin gücləndirilməsinə, xarici investisiyaların cəlb edilməsinə və nəqliyyat-logistika layihələrinin (o cümlədən Zəngəzur dəhlizi (TRIPP marşrutu)) təhlükəsizliyinin beynəlxalq səviyyədə təminatına xidmət edir.*

❖ ❖ ❖

Məskunlaşdırma siyasətinə uyğun olaraq avqustun 5-də Xocavənd şəhəri, Qırmızı Bazar qəsəbəsi və Xocavənd kəndinə növbəti köç prosesi reallaşıb, yola salınan ailələr yurdlarına qovuşublar.

Xocavənd şəhərinə 20 ailə - 81 nəfər, Qırmızı Bazar qəsəbəsinə 2 ailə - 9 nəfər, Xocavənd kəndinə isə 5 ailə - 17 nəfər köçürülüb.

Şəhər, qəsəbə və kənddə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Növbəti köç karvanı ilə Xocavənd şəhəri, Qırmızı Bazar qəsəbəsi və Xocavənd kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Ruben Vardanyanın cinayətləri ilə əlaqədar Nyu York Universitetinin professoruna açıq məktub

**Amerika Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri tərəfindən istifadə edilən ixtisaslaşdırılmış materiallar istehsal edən yeganə türk mühəndis, "Integrated Polymer Industries" şirkətinin qurucusu, B-2 bombardmançı təyyarələri üçün görünməzlik təmin edən örtük materiallarının müəllifi, tədqiqatçı-yazıçı Ergün Kırlıkovalı Nyu York Universitetinin professoru yazıçı Nassim Nikolas Talebə Ruben Vardanyanın xeyriyyəçiliklə bağlı sistemli illüziyalarına dair məktub ünvanlayıb.**

AZƏRTAC məktubu təqdim edir.

"Hörmətli Nassim Nikolas Taleb,

Sizə "X" sosial şəbəkəsində Ruben Vardanyanın həbsdə qaldığı müddətdə Bakıda mühazirə oxumaqdan imtina etdiyinizi bildirdiyiniz son ictimai bəyanatınızla əlaqədar müraciət edirəm.

Karyerasını gizli maliyyə riskləri, narrativ yanlışlıqlar və sistemli "korluq" barədə dünyanı xəbərdar etməyə həsr etmiş bir müəllifin diqqətlə formalaşdırılmış bir illüziyanın təsiri altına düşməsini müşahidə etmək dərin ironiyadır.

Vardanyanın maliyyə şəbəkəsinin, fəaliyyət tarixçəsinin və qəfil siyasi manevrlərinin hərtərəfli təhlili göstərir ki, onun geniş tanınan xeyriyyəçi imici məhz sizin klassik şəkildə "narrativ sipər" adlandıracağınız bir vasitədir və qanunsuz maliyyə fəaliyyətini, eləcə də geosiyasi sabitliyin pozulmasını gizlətməyə xidmət edir.

Gəlin, faktlara nəzər salaq. Vardanyanın "Troika Dialog" bankı "Troika Laundromat" kimi tanınan çirkli pulların yuyulması sxeminin mərkəzində fəaliyyət göstərirdi. Qlobal maliyyə qurumlarının və hüquq-mühafizə orqanlarının araşdırmalarına əsasən, bu şəbəkə əsas və ikinci dərəcəli "təbəqələşdirmə" üsullarından istifadə etməklə mürəkkəb ofşor sxemləri, vasitəçi bankları və saxta şirkətləri idarə edib, Rusiyadan milyardlarla dolların qanunsuz şəkildə çıxarılmasını təmin edib və benefisiar mülkiyyətçilərin kimliyini sistemli şəkildə gizlədib.

Bundan əlavə, bank auditləri göstərir ki, bu şəbəkə adi və heç nədən xəbəri olmayan vətəndaşlardan hüquqi şəxslərin hesablarını rəsmiləşdirmək üçün istifadə edib, onların şəxsiyyət məlumatları vasitəsilə vəsaitləri mürəkkəb beynəlxalq maliyyə sxemləri ilə köçürüb.

Sistemli maliyyə pozuntularından əlavə, Vardanyanın fəaliyyəti qanunvericilik və təhlükəsizlik baxımından da ciddi nəticələr doğurur.

Rusiyanın Ukraynaya genişmiqyaslı hücumundan sonra o, Rusiyanın müharibə məqsədlərinə xidmət edən əsas sənaye sahələrinə maddi, texniki və logistik dəstək göstərməkdə ittiham olunaraq, bir sıra beynəlxalq monitorinq mexanizmlərinə daxil edilib.

Onun adının Ukraynanın "Peacemaker" (Sülhməramlı) bazasına rəsmi daxil edilməsi onu, sadəcə, müşahidəçi deyil, dövlət təcavüzünü maliyyə baxımından dəstəkləyən şəxs kimi xarakterizə edir.



Beynəlxalq səviyyədə ciddi sanksiyalarla üzləşmiş bir şəxsin qeyd-şərtsiz azadlığa buraxılmasını tələb etməklə siz regional zorakılığı maliyyələşdirən mexanizmləri faktiki olaraq müdafiə etmiş olursunuz.

Onun həbsi ilə bağlı yanaşmanız həm də iştirakının yaratdığı ciddi siyasi qeyri-sabitliyi nəzərə almır. Onun 2022-ci ilin sonlarında Qarabağa qəfil gəlişi yerli sabitliyi birbaşa pozdu, nəticədə terrorçuluğun maliyyələşdirilməsi və qanunsuz silahlı birləşmələrin yaradılması ittihamları ilə 2026-cı ilin fevralında Bakı Hərbi Məhkəməsinin çıxardığı 20 il müddətinə azadlıqdan məhrumetmə hökmü ilə nəticələndi.

Vardanyanın keçdiyi yolu, sadəcə, humanitar missiya kimi qiymətləndirmək yazılarınızda xəbərdarlıq etdiyiniz "kor nöqtələr"in qurbanına çevrilmək deməkdir.

Bundan əlavə, ictimai mövqeyiniz bu münaqişənin qurbanlarına qarşı tarixi empatiyanın ciddi çatışmazlığını nümayiş etdirir. Otuz ildən artıq müddətdə Azərbaycan xalqı öz torpaqlarında ağır faciələr yaşayıb. Bu faciələrə 1992-2020-ci illərdə baş vermiş amansız hərbi işğal, silah gücünə doğma yurdlarından didərgin salınmış təxminən bir milyon azərbaycanlı mülki şəxs və 1992-ci ildə baş vermiş Xocalı qətliamının sənədləşdirilmiş dəhşətləri daxildir.

Bu ərazilərin azad olunması və 2020-ci ilin noyabrında əldə edilmiş atəşkəs, nəhayət, davamlı sülh sazişinə aparan yolu açsa da, uzunmüddətli sülh yalnız beynəlxalq məsuliyyət və hüququn aliliyinin təmin olunması ilə mümkündür.

Kölgə iqtisadiyyatı, qanunsuz qlobal maliyyə əməliyyatları və müharibə logistikası ilə sıx əlaqələri olan bir oliqarxı müdafiə etmək üçün qlobal platformanızdan istifadə etməklə siz etik mövqe nümayiş etdirmirsiniz. Əksinə, siz süni şəkildə hazırlanmış bir piar kampaniyasının intellektual dürüstlüyünüzə kölgə salmasına icazə verirsiniz.

Əsl humanizm bizdən əziyyətlərdən qazanc götürən nüfuzlu maliyyəçilərin deyil, məcburi köçkünlərin və təcavüz qurbanlarının tərəfində olmağı tələb edir.

Sizi real və ya təxəyyül məhsulu olan şəxsi rəğbətinizi bir kənara qoymağa, Vardanyanın fəaliyyət şəbəkəsini özünüzün tətbiq etdiyiniz ciddi skeptisizm meyarları ilə qiymətləndirməyə və müdafiənizin doğurduğu ciddi etik nəticələri yenidən nəzərdən keçirməyə çağırıram".

# Bakı Təşəbbüs Qrupu ilə əməkdaşlıq edən şəxs Hindistan kəşfiyyatının hədəfində: BMT qanlı sui-qəsd planını ifşa etdi

**Bakı Təşəbbüs Qrupu (BTQ) ilə sıx əməkdaşlıq edən Kanada Siqh Federasiyasının sədri, tanınmış hüquq müdafiəçisi Moninder Singh Bualın beynəlxalq təşkilatlara ünvanladığı müraciət və təqdim etdiyi rəsmi sənədlər, habelə onun və ailəsinin həyatına yönəlmiş birbaşa sui-qəsd planları və transmilli repressiya faktları beynəlxalq müstəvidə ciddi müzakirələrə səbəb olub.**



Bu barədə AZƏRTAC-a Bakı Təşəbbüs Qrupundan məlumat verilib.

Məlumatda həmçinin bildirilib: "BMT Xüsusi məruzəçilərinin hesabatına əsasən, Moninder Singh Bual siqhlərin öz müqəddəratını təyinetmə hüquqlarını beynəlxalq platformalarda müdafiə etdiyi üçün 2022-ci ildən bəri Kanada təhlükəsizlik orqanlarından rəsmi olaraq dörd dəfə "ölüm təhlükəsi barədə xəbərdarlıq" alıb. Sonuncu dördüncü rəsmi bildiriş 2026-cı il fevralın 22-də birbaşa onun evinə göndərilib və Kanada kəşfiyyat orqanlarının kifayət qədər ciddi qiymətləndirdiyi bu sui-qəsd planlarında ilk dəfə olaraq təkcə fəalın özü deyil, onun həyat yoldaşı və iki azyaşlı övladı da birbaşa hədəf olaraq göstərilib. Hesabata əsasən, bu gizli sui-qəsd cəhdi Hindistan dövlətinin BMT xüsusi mexanizmləri ilə əməkdaşlıq edən dissidentləri və hüquq müdafiəçilərini istənilən coğrafiyada fiziki olaraq məhv etmək strategiyasının bariz nümunəsidir və fəalın BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyasında iştirak etmək üçün Cenevrəyə yola düşməsindən əvvəl olması təsadüfi xarakter daşımır.

Yaranmış kritik vəziyyətlə bağlı BMT-nin insan hüquqları, terrorizmlə mübarizə, sərbəst toplaşmaq azadlığı və din azadlığı üzrə 5 xüsusi məruzəçisi və eksperti Kanada hökumətinə rəsmi etiraz və çağırış məktubu ünvanlayıb. BMT rəsmiləri Moninder Singh və ailəsinin üzləşdiyi təhlükəni birbaşa Hindistan hakimiyyətinin və kəşfiyyat orqanlarının xarici ölkələrdə həyata keçirdiyi qanunsuz transmilli repressiyanın, sifarişli qətllərin və intiqam tədbirlərinin bir hissəsi adlandırıblar. Məktubda eyni xəbərdarlığı alan digər siqh fəalı Hardeep Singh Nijjarın 2023-cü ildə Kanada torpağında Hindistanın gizli agentləri və mütəşəkkil cinayətkar qrupları tərəfindən qətlə yetirilməsi xatırladılaraq, rəsmi Dehlinin suveren ölkələrin ərazisində həyata keçirdiyi dövlət terroruna qarşı Kanadanın davamlı sayıqlıq nümayiş etdirməməsindən ciddi narahatlıq ifadə olunub. Sənədlər sübut edir ki, Hindistan hökuməti öz daxilindəki etnik və dini azlıqların fundamental haqlarını boğmaqla kifayətlənməyərək, qərb ölkələrində yaşayan və fəaliyyət göstərən siqh fəallarını da qeyri-qanuni casusluq, şantaj və terror metodları ilə susdurmağa çalışır.

BMT ekspertlərinin rəsmi sənədinin tam mətni ictimaiyyətə açıqlandıqdan sonra dünya mətbuatının əsas gündəm mövzusuna çevrilib. Böyük Britaniyanın "The Guardian" qəzeti, eyni zamanda Kanadanın "CBC News", "Global News" və Britaniyanın "The Independent" kimi aparıcı media agentlikləri də mövzuya geniş yer ayıraraq, Hindistan kəşfiyyat şəbəkələrinin suveren dövlətlərin daxili təhlükəsizliyini pozmasını, siqh fəallarına qarşı Avropa və Şimali Amerikada gizli sui-qəsd və təhdid şəbəkələri qurmasını kəskin tənqid atəşinə tutublar".

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupunun sosial şəbəkə profilləri və saytı da mütəmadi olaraq Hindistan mənşəli kiberhücumlara məruz qalır.



# Mədəniyyət



**Musiqi dünyamız**

## Qəbələ festivalı bu il də musiqi bayramına çevrildi

**Azərbaycanın qədim tarixini, zəngin mədəni irsini və təbiət gözəlliklərini özündə yaşadan Qəbələ bu gün təkcə turizm məkanı deyil, eyni zamanda mədəniyyət ünvanlarımızdan biridir. Bir zamanlar Qafqaz Albaniyasının paytaxtı olmuş, füsunkar dağların qoynunda yerləşən Qəbələ şəhəri uzun illərdir ki, həm də musiqisevərlərin diqqət mərkəzindədir. Hər yay burada səslənən klassik musiqi qədim şəhərin əsrlərin yaddaşını yaşadan ruhu ilə vəhdət təşkil edir.**

Qəbələ Beynəlxalq Musiqi Festivalı ilk dəfə 2009-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilib. Həmin il təşkil edilən festival Azərbaycanın musiqi tarixində yeni bir ənənənin başlanğıcı idi. Dünyanın 16 ölkəsindən tanınmış musiqiçilərin iştirak etdiyi ilk festival Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının uvertürası ilə açılıb və bir neçə gün ərzində tədbirdə klassik musiqinin ən gözəl nümunələri səsləndirilib. Festival çərçivəsində keçirilən beynəlxalq gənc pianoçular müsabiqəsi isə istedadların üzə çıxarılması və beynəlxalq musiqi əlaqələrinin genişləndirilməsi baxımından mühüm hadisə kimi tarixə düşüb. Həmin gündən etibarən Qəbələ dünyanın tanınmış musiqiçilərinin görüş ünvanına çevrilməyə başlayıb.

Sonrakı illərdə festivalın miqyası daha da genişləndi. Avropa, Asiya və Amerikanın nüfuzlu musiqi kollektivləri, dünyaşöhrətli dirijorlar, opera və balet ulduzları, görkəmli pianoçular, skripkaçılar və vokal ifaçıları Qəbələ səhnəsində çıxış etdilər. Muğam gecələri, simfonik konsertlər, kamera musiqisi axşamları, caz proqramları və gənc ifaçıların təqdimatları festivalın ayrılmaz hissəsi oldu.

Ötən illər ərzində Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyanın tanınmış dirijorlarını, solistlərini, orkestr və musiqi kollektivlərini bir araya gətirən nüfuzlu sənət platformasına çevrilib. Artıq iki ildir ki, festivalın "Qış nağılı" layihəsi də təşkil olunur ki, bu da Qəbələnin ilboyu mədəniyyət mərkəzi kimi fəaliyyət göstərməsinə xidmət edir.

İldən-ilə iştirakçı ölkələrin sayının artması, tamaşaçı auditoriyasının genişlənməsi və proqramın zənginləşməsi nəticəsində Qəbələ Beynəlxalq Musiqi Festivalı Cənubi Qafqazın ən nüfuzlu musiqi tədbirlərindən biri statusunu qazanıb. Bu layihə Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq aləmdə tanıdılmasına və mədəniyyətlərarası əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

Bu möhtəşəm ənənə bu il də uğurla davam etdi. İyulun 29-dan avqustun 3-dək Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı




Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən XV Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Avstriya, Qazaxıstan, Moldova, Özbəkistan, Vyetnam, Almaniya, Niderland və digər ölkələrdən gələn musiqiçilər, dirijorlar, balet artistləri və rəqs kollektivləri iştirak edirdilər.

Açılış mərasimində çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli vurğuladı ki, 15 il ərzində Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyanın aparıcı musiqiçilərini bir araya gətirən nüfuzlu beynəlxalq mədəniyyət layihəsinə çevrilib, festival hər il zəngin proqramı ilə fərqli musiqi janrlarını bir araya gətirərək sənətsevərlərə unudulmaz anlar yaşadır.

Festivalın ilk günü açıq səma altında keçirilən möhtəşəm balet qala-konserti xüsusi maraq doğurdu. Mariinski, Bolşoy, Vyana Dövlət, Bavariya Dövlət və Niderland Milli Balet teatrlarının aparıcı solistlərinin çıxışları tamaşaçılar tərəfindən böyük alqışlarla qarşılandı. Lüdviq Minkusun "Don Kixot", Sergey Prokofyevin "Romeo və Cülyetta", Adolf Adanın "Jizel" və digər dünyaşöhrətli baletlərdən təqdim olunan parçalar Qəbələ səmasında klassik sənətin əsl təntənəsinə çevrildi.

Festival günlərində Vyetnamın "Bronze drum" ansamblının milli vokal proqramı, Özbəkistanın "Daşkənd Zeboları" Xalq Rəqs Ansamblı və "Bek" Doyraçılar Ansamblının çıxışları, "Yalla" ansamblının bədii rəhbəri, canlı əfsanə Fərrux Zakirovun konserti tamaşaçılar tərəfindən böyük maraqla qarşılandı. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Kamera Orkestrinin təqdim etdiyi konsert isə festivalın humanist mahiyyətini və inklüziv dəyərlərini bir daha nümayiş etdirdi.

Ənənəyə sadiq qalaraq festival proqramında Azərbaycanın milli sərvəti olan muğama da geniş yer ayrıldı. Əməkdar artistlər Bəyimxanım Vəliyeva və Təyyar Bayramov, muğam müsabiqəsinin laureatları Mirələm Mirələmov, Kamilə Nəbiyeva və başqalarının ifasında səslənən "Segah", "Bayatı-Şiraz", "Şur", "Dilkəş" və "Qarabağ şikəstəsi" tamaşaçılarda dərin təəssürat yaratdı.

Kamera musiqisi axşamı, Azərbaycan və dünya kinofilmlərindən məşhur musiqilərin səsləndirildiyi xüsusi layihə, Bakı Musiqi Akademiyası tələbələrinin konserti, Moldovanın "Fluieraş" Xalq Mahnı və Rəqs Ansamblı ilə "Millenium" etnoestrada qrupunun çıxışları festivalın proqramına xüsusi rəng qatdı. Beləliklə, Qəbələ səhnəsində klassik musiqi ilə folklor, Avropa musiqi ənənələri ilə Şərq mədəniyyəti eyni sənət məkanında qovuşdu.

Avqustun 3-də festival çərçivəsində Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin möhtəşəm konserti təşkil olundu. Xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, Əməkdar artist Elnarə Məmmədova və digər tanınmış solistlərin çıxışları festivalın yüksək sənət səviyyəsini bir daha nümayiş etdirdi.

Artıq on beş ildir ki, Qəbələdən səslənən musiqi sədaları daha da uzaqlara yayılaraq Azərbaycanın zəngin mədəniyyət salnaməsinə yeni uğurlu səhifələrini yazır. Bu festival həm milli musiqi irsimizin dünyaya təqdim olunmasına, həm gənc istedadların inkişafına, həm də Azərbaycanın tolerantlıq və multikulturalizm dəyərlərinin beynəlxalq aləmdə təbliğinə mühüm töhfələr verməkdə davam edir. Qəbələ Beynəlxalq Musiqi Festivalı bir daha göstərir ki, musiqi həqiqətən sərhəd tanımır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Muzeylərimiz**

## Dünya sükuta dalıb Müşfiqin şeirini dinləyirdi




**Dağlar qoynunda yerləşən Xızının Altıağac qəsəbəsinə gedən yollar kəmər kimi ilk baxışdan görənlərdə xoş təəssürat oyadan rəngbərəng dərələrin gah ətəyindən, gah da sinəsindən keçib gedirdi. Ətrafdakı gözəlliyə tamaşa edə-edə xeyli irəliləyəndən sonra hələ uzaqdan suyu çox da bol olmayan çayın o tərəfində, yoldan bir az kənarda balaca bir tikili gözümüzə dəydi. Getdikcə sanki həmin tikili böyüyüb zirvələrə ucalırdı. Yolun kənarına vurulmuş lövhənin yanına çatanda bu tikilinin nakam taleli görkəmli şairimiz Mikayıl Müşfiqin ev-muzeyi olduğunu gördük.**

Muzeyin həyətinə ayaq qoyan kimi bizi Müşfiqin büstü qarşıladı. Büstün önündəki daşlaşmış "1109" nömrəsi qəlbimizi yandırdı, ürəyimizi yerindən çıxardı. Bu rəqəm ürəyi doğulduğu dünyaya sevgi, məhəbbətlə dolub-daşan şairin dustaqlığının qeydiyyat nömrəsi idi. Həmin an xatırladıq ki, şairin dustaqlıqda sinəsində bu nömrəsi olan şəklini vaxtilə çox populyar olan "Gənclik" jurnalında görmüşdük.

İndi şairin ev-muzeyindəki büstündə nömrəni görəndə həmin illəri yenidən yada saldıq. Səhər-səhər əsən meh yenə də şairin saçını sığallayırdı. Müşfiq yenə də həyatdan, yaşamaqdan doymayan baxışlarını uzaqlara dikərək dərin fikrə getmişdi. Sanki yeni şeirlərini, poemalarını yazmağa hazırlaşırdı. Şairin büstünün böyründəki mərmər lövhəyə hopdurulmuş əzbər bildiyimiz misraları təkrar-təkrar oxuyuruq.

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?!
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim?!

Azərbaycan poeziyasının heç vaxt sönməyəcək parlaq ulduzu Mikayıl Müşfiq (əsl adı Mikayıl Əbdülqadir oğlu İsmayılzadə) 5 iyun 1908-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Onun həyata gəlişi doğmalarını sevindirsə də, təəssüflər olsun ki, bu sevinc uzun çəkməyib. Taleyi gələcəyin görkəmli şairinin üzünə gülməyib. Həyat ona sanki xoş yox, sərt üzünü göstərib. Mikayıl Müşfiq iki aylığında anasını itirib. 6 yaşında isə atasız qalıb. Valideynlərini belə erkən itirməsinə baxmayaraq, sanki şair qismətinə düşmüş taleyi ilə barışıb, ürəyində, qəlbində güc taparaq ömrünün sabahlarına boylanıb. Qarşılaşdığı acıları dəf etmək üçün özünü gələcəyə hazırlayıb. Hələ kiçik yaşlarından onun istedadlı olduğu müəllimlərinin, doğmalarının diqqətini cəlb edib. Gənc yaşlarından ədəbiyyatın, poeziyanın sehrinə düşüb. Ömrünün sonuna qədər bu sehrdən çıxa bilməyib.

Mikayıl Müşfiq ibtidai təhsilini rus-tatar məktəbində alıb. Ədəbiyyata, poeziyaya olan marağı onu Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) gətirib. Bu ali təhsil ocağının dil-ədəbiyyat fakültəsini bitirəndən sonra Mikayıl ürəyində coşub-daşan arzularla müəllim kimi əmək fəaliyyətinə başlayıb. Ədəbiyyatımızı şagirdlərə öyrədib və sevdirib. Şairin son iş yeri Bakıdakı 18 nömrəli orta məktəb olub. Hazırda həmin təhsil ocağı Mikayıl Müşfiqin adını daşıyır.

Görkəmli şairin 1926-cı ildə "Gənc işçi" qəzetində "Bir gün" adlı şeiri dərc olunub. Bununla da Müşfiqin poeziya aləminə gedən yollarında bahar təravətli güllər, çiçəklər bitib. İlk yaradıcılıq nümunəsi işıq üzü görəndən sonra şair bir-birinin ardınca şeirlər, poemalar yazıb, dəyərli bədii tərcümələr edib. Getdikcə cəmiyyətdə tanınıb, oxucular tərəfindən sevilib. 1931-ci ildə Dilbər Axundzadə ilə ailə həyatı qurub. Bir övladı olub, adını Yalçın qoyublar. Amma burada da tale onun üzünə gülməyib, övladı körpə ikən dünyasını dəyişib.

Yaşadığı dövrünün çətinliklərinə, dəhşətlərinə baxmayaraq, Mikayıl Müşfiq bütün ürəyi və qəlbi ilə, vətənə sevgi ilə yazıb-yaradıb. Gənc yaşlarından bütün zamanların nəsillərinə örnək olub. Ölkəsini, vətənini, torpağını, onun insanlarını sevib. Şeirlərində də bu sevgini, bu məhəbbəti tərənnüm edib. Ölkəmizin, insanlarımızın gələcəkdə daha da yaxşı yaşayacağına böyük ümidlər bəsləyib. Bu ümidlərini də sözə, şeirə hopdurub. Şairin "Ölkəm" şeirində bu sevgini, bu ümid işığını aydın görmək mümkündür.

*Vicdanları pək şəffaf, insanları nurani,*
*Müşfiq, bilə bildinmi, aləmdə şu dövranı?!*
*Qaplar yarın artıq sağ dünyaları ürfanı.*
*Hər yer güləcək, nura mötad olan ölkəmdə.*
*Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə.*

Qoynunda dünyaya göz açdığı yurdunu, el-obasını sonsuz məhəbbətlə sevən Mikayıl Müşfiq onu həmişə abad, müstəqil, xalqımızı isə azad görmək istəyirdi. Ölkəsinin istiqlalına sevinən, onun əbədiliyini arzulayan şair Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını alqışlayır və bu münasibətlə dillər əzbəri olan bir-birindən gözəl şeirlər yazırdı. Bu şeirlərində cümhuriyyəti sevə-sevə təbliğ edir, onu oxucularına da sevdirirdi. Mikayıl Müşfiq "Ey Dan ulduzu" deyib Azərbaycanın dünyaya doğan yeni baharını alqışlayırdı.

Xalqımızın Mikayıl Müşfiq şəxsiyyətinə, yaradıcılığına, vətənpərvərliyinə sevgisi, məhəbbəti əbədidir, tükənməzdir. Fitri istedadı, incə ruhlu şeirləri ilə adını poeziyamızın tarixinə qızıl hərflərlə yazmış şairin şeirləri yaşından asılı olmayaraq, hamının dillər əzbəridir. Yəqin ki, az adam tapılar ki, onun hansısa bir şeirini əzbər bilməsin. Və yaxud bu şeirlərə bəstələnmiş mahnılara qulaq asmasın. Bu da təbiidir. Axı Müşfiqin yazdıqları bulaq suyu kimi dupdurudur, ürəyəyatandır, qəlbləri oxşayandır, könülləri tellənditəndir. M.Müşfiqin "Yenə o bağ olaydı", "Oxu, tar!", "Qurban olduğum", "Zəfər səsləri", "Ayrılıq", "Səni düşünürəm" və başqa şeirləri, poemaları bu gün də sevilə-sevilə oxunur.

Müşfiq 1937-ci ilin iyun ayında "xalq düşməni" damğası ilə həbs edildi. Həyatının ən gözəl çağlarında keçmiş ittifaqı qanlı caynaqlarında saxlayan Stalin repressiyasının ən gənc və istedadlı qurbanlarından birinə çevrildi. 1938-ci ildə cəmi 20 dəqiqə davam edən sorğu-sualdan sonra Müşfiqə saxta ittihamlarla yanvarın 5-də güllələnmə cəzası kəsildi.

Bütün bunları təəssüf hissi ilə xatırlaya-xatırlaya Mikayıl Müşfiqin evmuzeyinə də şairin uşaqlıq, yeniyetməlik şəkillərindən tutmuş həbs olunanda çəkilmiş sonuncu fotosuna qədər diqqətlə baxdıq. Şəkillər bir anlıq əlimizdən tutub bizi o illərə apardı. Muzeydəki eksponatların hamısından Müşfiq poeziyasının qoxusu gəlirdi. Saralmış tarixi sənədlərdə, kitablarda, şəkillərdə şairin izi qalmışdı. O sənədlərdə, o şəkillərdə Müşfiq ölməmişdi, yaşayırdı, yaşayacaq da!

Muzeydən həyətə çıxanda üzbəüz dərədə tar abidəsi gördük. Abidənin üstündə böyük hərflərlə "Oxu, tar" sözləri yazılmışdı. Bu anlarda qulağımıza tar səsi gəldi. Kimsə asta və məlahətli səslə Müşfiqin "Oxu, tar" şeirini oxuyurdu:

*Oxu, tar, oxu, tar!*
*Səsindən ən lətif şeirlər dinləyim.*
*Oxu, tar, bir qadar!*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unutar?*
*Ey geniş kütləmin şirini, şərbəti -*
*Alovlu sənəti!...*

Bu məlahətli səs əsən mehə qoşularaq, dalğa-dalğa çöllərə, düzlərə, oradan da bütün Yer üzünə yayılırdı. Sanki dünya bu anlarda ayaq saxlayıb, sükuta dalıb tarın sədaları altında Müşfiqin şerini dinləyirdi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

**Memarlıq tariximiz**

## Mədəni irsimizin əvəzsiz tədqiqatçısı

**Akademik Əbdülvahab Salamzadə Azərbaycan sənətşünaslıq məktəbinin tanınmış simalarından biri, memarlıq tariximizin görkəmli tədqiqatçısı kimi adını incəsənət tariximizə əbədi həkk etmişdir.**

Qədim Şamaxı şəhərində dünyaya göz açan Ə.Salamzadə hələ 2 yaşı olanda ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Orta təhsilini bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun Memarlıq-inşaat fakültəsinə qəbul olmuşdur. Ali təhsilini başa vurduqdan sonra "Azərdövlətlayihə"də memar, Xalq Kommunal Təsərrüfatı Komissarlığında və Azərbaycan Sənaye Şurasında baş mühəndis vəzifələrində çalışmışdır. 1944-cü ildən AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda aspirant olan Ə.Salamzadə ömrünün sonuna kimi orada kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri və direktor müavini vəzifələrində fəaliyyət göstərmişdir.

Akademik Ə.Salamzadə ömrünü Azərbaycanın memarlıq sənətinə həsr etmişdir. O, memarlıq sənətimizin tədqiqi və tarixinə, qədim memarlıq abidələrimizin bərpası və rekonstruksiyasına dair fundamental elmi əhəmiyyətə malik monoqrafiya və kitabların müəllifi olmuşdur. Sənətşünas alim "Azərbaycanın günbəzli məqbərələrinin memarlığı" mövzusunda namizədlik, "XVI-XIX əsrlər Azərbaycan memarlığı" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1967-ci ildə professor elmi dərəcəsi alan alim sonralar AMEA-nın müxbir üzvü (1968) və həqiqi üzvü (1983) seçilmişdir. O, həmçinin Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü olmuşdur.

Ə.Salamzadə həmçinin səmərəli pedaqoji fəaliyyət göstərmiş, Azərbaycanda sənətşünaslıq elminin formalaşması və inkişafına, peşəkar sənətşünas kadırların yetişməsinə əmək sərf etmişdir. Alim bu barədə deyirdi: "Mən çox sevinirəm ki, 1940-cı illərdə







Azərbaycan Dövlət Universitetində dərs dediyim bir sıra sənətşünaslar indi respublikamızda sənətşünaslığımızın özəyini təşkil edirlər. Ölkəmizin elm və tədris ocaqlarında müvəffəqiyyətlə elmi-tədqiqat işləri ilə məşğuldurlar. Bunlardan sənətşünaslıq üzrə Kərim Kərimovu, Nəsir Rzayevi, Cəmilə Novruzovanı, Rəfiqə Kərimovanı, Nadir Zamanovu, memarlıq tarixi sahəsində Vidadi Muradovu, Elturan Avalovu, Nərgiz Əsgərovanı, Roza Salayevanı və başqalarını göstərmək olar".

Tanınmış sənətşünas alim, memar və sənət adamları Ə.Salamzadənin həyat və yaradıcılığı haqqında yüksək fikirlər söyləyib, yazılar dərc ediblər. Ə.Salamzadənin nəşr olunmuş monoqrafiya və kitabları barədə çoxsaylı resenziyalar dərc olunub. Akademik Mikayıl Hüseynov "Görkəmli alim" adlı məqaləsində yazırdı ki, Ə.Salamzadənin elmi-tədqiqat əsərləri bir qayda olaraq faktiki materialın zənginliyi, abidələrə və incəsənət əsərlərinə verilən qiymətin obyektivliyi, bədii təhlilin və elmi ümumiləşdirmələrin dərinliyi ilə fərqlənir. "Ə.Salamzadə çoxcildli "Azərbaycan incəsənəti tarixi"nin birinci cildini imzalayıb nəşriyyata göndərəndə bir uşaq sevinci ilə gülümsəyib bildirdi ki, qalan cildlər də yazılıb tamamlanmışdır, nəşrə hazırlanır". Bu



fikirləri akademik Məmməd Cəfər "Unudulmaz sənətşünas" adlı xatirə yazısında qeyd etmişdir.

AMEA-nın müxbir üzvü K.Kərimov yazırdı: "Ə.Salamzadə Azərbaycan sənətşünaslığında yeni istiqamət, yeni cığır açmışdır. Azərbaycan memarlığı tarixində ilk olaraq Aran me-




marlıq məktəbinin mövcudluğunu əsaslandırmaqdan daha böyük kəşf olarmı?"

"Ə.Salamzadə Azərbaycan xalqının çoxəsrlik bədii irsinə yaxşı bələddir. Heç də təsadüfi deyil ki, onun elmi əsərlərində təsviri və dekorativ divar rəsmləri və klassik miniatür sənətimizin tarixi, görkəmli sənətkarlarımızın yaradıcılıq fəaliyyəti öz əksini tapmışdlr. Alimin ardıcıl axtarışları nəticəsində keçən əsrlərdə yaşayıb-yaratmış onlarca memarın, nəqqaşın, xəttatın adı aşkara çıxarılmışdır". Bu fikirləri isə sənətşünaslıq doktoru Mürsəl Nəcəfov və memarlıq doktoru Nəriman Əliyev söyləmişlər. Sənətşünas alim haqqında qeyd olunan bu fikirlər bir daha sübut edir ki, Ə.Salamzadə Azərbaycan təsviri sənət tarixində unudulmaz fəaliyyəti ilə özündən sonra zəngin irs qoyub.

Alimin çoxşaxəli elmi, bədii və ictimai fəaliyyəti yüksək qiymətləndirilib. O, Əməkdar inşaatçı (1960), Əməkdar elm xadimi (1982) və Dövlət mükafatı (1984) laureatıdır.

Akademik Ə.Salamzadənin çoxşaxəli elmi və bədii yaradıcılıq irsi incəsənət tariximizdə özünə əbədi yer qazanıb. Alimin memarlıq tarixi, bərpa və rekonstruksiya istiqaməti üzrə dəyərli elmi əsərləri, həmçinin müəllifi olduğu memarlıq abidələri var olduqca o da daim xatırlanacaq. Ə.Salamzadənin E.Kanukovla birgə memarı olduqları Vaqifin Şuşa şəhərindəki möhtəşəm məqbərəsi (1982) artıq bərpa olunaraq özünün əvvəlki əzəmətinə qovuşmuşdur. Bu, bir daha sübut edir ki, sənətkar öz işıqlı əməlləri ilə ölməzdir.

Yazımızı akademik Ə.Salamzadənin yarım əsr bundan əvvəl ürək yanğısı ilə söylədiyi fikirlərlə tamamlamaq istərdik: "Memarlıq nəzəriyyəçiləri surət və stil məsələsini ağına-bozuna baxmadan aradan çıxarmışdılar. Bunun arxasında memarlığın ideya-bədii əhəmiyyətini rədd edənlər özlərinə yer tapmışdılar. Memarlıqda da dəb (moda) var. Öz yaradıcılıq mövqeləri olmayanlar gəlmə, qondarma dəblərə tez uyurlar. Hər dəb yenilik demək deyil... Xalq memarlığını öyrənmək memar qarşısında duran daimi vəzifələrdəndir. Deyərdim ki, burada da sənətkardan çox şey asılıdır".

***Əsəd QULİYEV,***
***sənətşünas, AMEA-nın dissertantı,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü***

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QAYĞI

## ŞƏHİD AİLƏLƏRİNİN PROBLEMLƏRİ HƏLL OLUNDU



**44 günlük haqq savaşımızda sinəsini Vətənə sipər edib şəhidlik zirvəsinə ucalan qəhrəman oğullardan biri də Amid Salayevdir. Masallı elində boya-başa çatan, 18 yaşında şərəfli ölümü ilə milyonların ürəyində özünə əbədi məkan quran Amid Vətən müharibəsində Füzuli uğrunda gedən döyüşlərdə, sözün əsl mənasında, tarix yazıb.**

Oktyabrın 4-də şəhadətə qovuşan Amid ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarla təltif olunub. Amma Amid Salayev cismən aramızdan getsə də, heç vaxt unudulmur, xətri həmişə əziz tutulur.

Bu günlər rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov Sığdaş kəndində yaşayan Vətən müharibəsi şəhidi Amid Salayevin ailəsini ziyarət edib. Görüş zamanı şəhidin xatirəsi dərin ehtiramla yad olunub, ailə üzvləri ilə səmimi söhbət aparılıb, onların qayğı və problemləri dinlənilib. Bildirilib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dövlət tərəfindən şəhid ailələrinə və müharibə iştirakçılarına böyük diqqət və qayğı göstərilir.



Rayon rəhbərliyi şəhid ailəsinin qayğılarını dinləyib, qaldırdığı məsələlərin araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib. Şəhidin ailə üzvləri öz növbəsində onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Zəfər ORUCOĞLU,*
*Masallı rayonu*

● TƏHSİL

## FİDAN SUMQAYIT TƏHSİLİNİN FƏXRİDİR

**Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin məzunları növbəti dəfə qəbul imtahanlarında yüksək nailiyyətləri ilə fərqləniblər. Cari tədris ilində III ixtisas qrupu üzrə qeydə alınan ən yüksək nəticələrdən biri Sumqayıt şəhər 12 nömrəli tam orta məktəbin məzunu Fidan İlham qızı Hüseynzadəyə məxsusdur.**



Fidan Hüseynzadə Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarının hər iki mərhələsində yüksək bilik və hazırlıq nümayiş etdirərək ümumilikdə 690 bal toplayıb. O, imtahanın birinci mərhələsində 293,8, ikinci mərhələsində isə 396,2 bal nəticə göstərərək III ixtisas qrupu üzrə regionun ən yüksək nəticə əldə edən məzunlarından biri kimi fərqlənib.

Bu uğur gənc məzunun uzunmüddətli zəhmətinin, məqsədyönlü hazırlığının və təhsilə məsuliyyətli yanaşmasının nəticəsi, məktəbdə həyata keçirilən keyfiyyətli tədris prosesinin, müəllimlərin peşəkarlığının və şagird-müəllim əməkdaşlığının göstəricisidir.

Son illər Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində nailiyyətlərin yüksəlməsi, qəbul imtahanlarında yüksək bal toplayan məzunların sayının artması regionda təhsilin inkişafı istiqamətində görülən məqsədyönlü tədbirlərin nəticəsi kimi diqqət çəkir. Bu baxımdan Fidan Hüseynzadənin qazandığı uğur həm məktəbin, həm də region təhsilinin nailiyyətləri sırasına əlavə olunan mühüm göstəricilərdən biridir.

Təhsil ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanan bu nəticə gənclərin elmə və biliyə marağının artırılması, onların gələcək uğurlar üçün ruhlandırılması baxımından da xüsusi əhəmiyyət daşıyır. Fidan Hüseynzadənin əldə etdiyi yüksək göstərici digər şagirdlər üçün nümunə olmaqla yanaşı, Azərbaycan gəncliyinin intellektual potensialının və ölkədə təhsilin keyfiyyətinin daha bir təsdiqi kimi dəyərləndirilir.

*İlhamə MƏMMƏDOVA,*
*Sumqayıt şəhər sakini*

● MİNNƏTDARLIQ

## YAŞADIĞIMIZ KÜÇƏYƏ YENİ ASFALT ÖRTÜYÜ SALINDI

**Bölgələrdə həyata keçirilən quruculuq işləri davam edir. Bunu son bir neçə ildə Qazaxın timsalında görmək mümkündür.**



Rayon mərkəzinin içməli su və tullantı su sistemlərinin yenidən qurulması layihəsinin icrasından sonra prospekt və küçələrin asfaltlanması, səkilərə yeni tamet, bardür düzülməsi, qaz, elektrik, rabitə xətlərinin cari və əsaslı təmiri, küçələrin işıqlandırılması, çoxmənzilli yaşayış binalarının həyətində abadlıq işləri aparılaraq "abad məhəllə" kimi sakinlərin istifadəsinə verilməsi həmin işlərin kiçik siyahısıdır.

Hörmətli redaksiya! Bizim bina Qazaxın Süleyman Rüstəm küçəsində yerləşir. Uzun illər idi ki, abadlıq və quruculuq işləri aparılmadığından küçə yararsız hala düşmüşdü. Bu yaxınlarda bizim küçədə də yenidənqurma işlərinə başlanıldı. Küçəyə asfalt döşəndi, səkilər təmir olundu. İndi sakinlər rahatlığa çıxıblar. Görülən işlərdə əməyi olan hər kəsə qəzetiniz vasitəsi ilə təşəkkür edirik.

*Əlövsət QASIMOV,*
*Qazax şəhər S.Rüstəm küçəsinin sakini*

● FOTO

## Günəş, dəniz, qum...

**Yay ilin ən sevilən və səbirsizliklə gözlənilən fəslidir. Bu fəsil insanlara yalnız isti hava deyil, həm də istirahət etmək, gündəlik həyatın yorğunluğundan uzaqlaşmaq və təbiətlə daha çox ünsiyyətdə olmaq imkanı yaradır. Günəşli günlər, uzun axşamlar və təmiz hava insanın həm fiziki, həm də mənəvi cəhətdən özünü daha yaxşı hiss etməsinə kömək edir.**

Yayın ən gözəl tərəflərindən biri isə çimərliklərdə keçirilən vaxtdır. Çimərliklər yay mövsümünün ayrılmaz hissəsidir. İnsanlar ailələri, dostları və yaxınları ilə birlikdə dəniz sahilinə gedərək həm istirahət edir, həm də yaddaqalan xatirələr toplayırlar. Dənizin sərin suyu yayın istisindən qorunmağın ən xoş yollarından biridir. Qumda oynayan uşaqlar, günəş vannası qəbul edərək dəniz suyunda sərinlənən böyüklər yayın yaratdığı fürsətdən zövq alırlar. Belə anlar insanın əhvalını yüksəldir, stresini azaldır və onu gündəlik qayğılardan bir müddət uzaqlaşdırır.

Çimərliklər istirahət məkanı olmaqla yanaşı, həm də sağlam həyat tərzini təşviq edən mühitdir. Dəniz havası və günəş şüaları düzgün vaxt və ölçüdə qəbul edildikdə sağlamlıqdır. Təbii ki, günün ən isti saatlarında birbaşa günəş altında qalmamaq və günəşdən qoruyucu vasitələrdən istifadə etmək şərti ilə. Üstəlik, çimərliklərdən istifadə edərkən məsuliyyətli davranmaq lazımdır.

Eyni zamanda ətraf mühiti çirkləndirməmək, tullantıları xüsusi qutulara atmaq, dənizi və sahili təmiz saxlamaq da unudulmamalıdır. Təbiəti qorumaq gələcək nəsillərin də bu gözəlliklərdən istifadə edə bilməsi üçün vacib şərtdir.







Yay mövsümü insanlara yeni enerji, xoş emosiyalar və unudulmaz xatirələr bəxş edir. Çimərliklər isə bu mövsümün ən çox üz tutulan ünvanlarından biri kimi insanların bir araya gəlməsinə, istirahət etməsinə və yayın ləzzətindən dadmağa imkan yaradır. Dəniz ləpələrinin səsi, qumun istiliyi və günəşin parlaq şüası yayın özünəməxsus gözəlliyini tamamlayır. Məhz buna görə də yay fəsli insanlara həmişə sevinc, rahatlıq və xoş anlar bəxş edir.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● TARİXİMİZ

## SUBABA TÜRBƏSİ

**Quba zəngin tarixi və mədəni irsi ilə seçilən bölgələrimizdəndir. Bu qədim diyarın tarixi abidələri sırasında Subaba türbəsi xüsusi yer tutur.**

XVI əsrdə tikildiyi bildirilən Subaba türbəsinin qalıqları Qubanın Alpan kəndi ərazisində yerləşir. Türbə Səfəvilərin hökmranlığı dövründə Şah İsmayıl Xətainin qoşununun bu kənddən keçərkən vəfat etmiş sərkərdələrindən biri olan, sufi Mikayılın məzarı üzərində tikilib.



Onun divarları yumurta ağı ilə hörülüb. Türbənin adı zaman keçdikcə Sufibaba, Sufbaba, Subbaba kimi dəyişərək Subaba adını alıb.

Hazırda pir kimi ziyarət edilən Subaba türbəsi həm tarixçilərin, həm də turistlərin maraq göstərdiyi məkanlardan biridir. Buranı ziyarət edənlər abidənin tarixi ilə də tanış olurlar. Türbənin yerləşdiyi sakit təbii mühit isə ziyarətçilərdə xoş təəssürat yaradır.

Tarixi abidələrin qorunması hər birimizin borcudur. Subaba türbəsi də Azərbaycanın zəngin mədəni irsinin bir hissəsi kimi gələcək nəsillərə çatdırılmalıdır. Belə abidələrin öyrənilməsi və təbliği xalqımızın tarixinin və milli-mənəvi dəyərlərinin yaşadılması baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, yaxın gələcəkdə türbənin bərpa olunacağı gözlənilir.

*Abutalib TURABOV,*
*Quba rayonu*

● MƏNƏVİYYAT

## İNANC YERLƏRİNƏ HÖRMƏTLƏ YANAŞILMALIDIR

**Xalqımız həmişə dinə hörmətlə yanaşıb. Bu, bir inanc, bir qəlb, bir ruh məsələsidir. Ölkəmizin bölgələrindəki tarixi dini məbədlər, məscidlər qorunur, islam dininə və digər tolerant inanclara hörmət göstərilir. Təbiidir ki, bu gün müstəqil respublikamızda yaşayan azsaylı xalqlar da sərbəst şəkildə dini sitayişlərini edirlər.**

Lakin bəzən qarşılaşdığımız hallar bizdə böyük təəssüf hissi yaradır. Birini misal gətirmək istərdim. Paytaxtdan Qusar istiqamətinə gedən yoldan hər gün minlərlə insan istifadə edir. Yolun abadlığına söz ola bilməz, rahat və demək olar ki, maneəsizdir. Lakin Siyəzən rayonu ərazisində yerləşən "Beşbarmaq" pirinin magistral yolda olan hissəsində xoşagəlməz hal yaşanır. Məlumdur ki, hər həftənin şənbə və bazar günləri Quba, Qusar və Xaçmaza yol alan turistlərin sayı daha çox olur. Burada maşınlarını saxlayan-






lar ilk növbədə natəmizliklə və qanunsuz küçə ticarəti ilə üzləşirlər.

Yəqin ki, hər axşam kommunal xidmət işçiləri ərazidə təmizlik işləri aparırlar. Amma nə fayda? Az qala səhərdən ətrafı bürüyən manqal tüstüsü, ticarət qaydalarına uyğun olmayan satış köşkləri ərazidə dözülməz mənzərə yaradır. Qaynayan qarğıdalı qazanları, məktəbyaşlı uşaqların müştəri səsləmələri ötən əsrin əvvəllərində kinolarda gördüyümüz mənzərəni xatırladır.

Xarici ölkələrdən gələn turistlərə məlumat verilir ki, bura müqəddəs bir ərazidir. Onlar da aralıdan zirvədəki möhtəşəm qayalıqlarla yanaşı, ərazidə təsvir etdiyimiz mənzərəni də lentə köçürürlər.

Təəssüf ki, "Beşbarmaq"dakı bu cür vəziyyət uzun illərdir yaşanır. Başa düşürük ki, insanlar burada ticarəti ailələrinin dolanışığı üçün edirlər. Lakin bunu normal qaydada, müasir tələblərə cavab verən formada etmək olmazmı? Yəqin ki, olar, sadəcə, istək və bir də dini inanc yerlərinə hörmətlə yanaşmaq lazımdır.

*Həmid QULİYEV,*
*Sabirabad rayon sakini*

Beynəlxalq iqtisadi icmal

# "Atılan toplara diksinməyiriz"

## Müharibələrin qlobal iqtisadiyyata vurduğu ziyanın dəyəri trilyonlarla dollara çatıb

**İki-üç il əvvəl "bəşəriyyət yeni dünya müharibəsi astanasındadır" ifadəsi çox işlədilirdi. Buna səbəb baş verən geosiyasi mübarizənin tədricən hərbi müstəviyə keçməsi idi. İndi artıq üçüncü dünya müharibəsinin getdiyi barədə hərbi və siyasi ekspertlər açıq şəkildə danışırlar.**



Yeni dünya düzəninin yaranması üçün aparılan siyasət diplomatik gərginlikdən çıxıb hərbi qarşıdurma ilə əvəz olunub. Qəribəsi isə odur ki, üçüncü dünya müharibəsinin ilk qığılcımı da əvvəlki kimi Avropa qitəsində alovlanıb. Artıq 5 ildir ki, Rusiya-Ukrayna müharibəsi insan itkisi və dağıntılarla davam edir. Müharibənin əvvəlində Rusiya hərbi, Ukrayna isə siyasi üstünlüyə malik idi. İndi vəziyyət dəyişib. Ukrayna hərb meydanında Rusiya ilə bərabərliyə nail olub, üstəlik, siyasi üstünlüyünü də qoruyub saxlayır.

Rusiya-Ukrayna müharibəsinin davam etdiyi dövrdə İsraillə qonşuları arasında sonu görünmüəyən müharibə yenidən alovlanıb və aparılan hərbi əməliyyatlar nəticəsində 100 minə yaxın insan həlak olub, bundan bir neçə dəfə çox insan yaralanıb, böyük dağıntılardan da ki, danışmağa dəyməz.

İsrailin İrana 12 günlük hücumu Yaxın Şərqdə yeni bir dağıdıcı müharibənin başlamasına səbəb oldu. Bu gərginlik isə cari il fevralın 28-də ABŞ-nin İrana hücumu ilə pik həddə çatdı. Bu müharibə hazırda müəyyən fasilələr, eləcə də qarşılıqlı raket və dron zərbələri ilə davam edir.

Bu fonda isə yeni vəziyyət yaranıb. Artıq Körfəz ölkələri özlərini müdafiə etmək üçün hərbi qüvvələrini birləşdirmək qərarına gəliblər. Bu yaxınlarda Bəhreyndə keçirilən irimiqyaslı hərbi təlim bunun ilk işarəsidir. Körfəz Əməkdaşlıq Şurasına daxil olan Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Küveyt, Bəhreyn və Omman "Bəhreyn qartalı" adlı birgə hərbi təlimləri keçirməklə güc nümayiş etdirdilər.

Bundan başqa, Səudiyyə Ərəbistanı nüvə silahına malik Pakistanla hərbi müqavilə imzalayıb. Həmin sənəddə açıq yazılıb ki, ittifaq dövlətlərdən birinə hərbi təcavüz olarsa, bu, hər iki ölkəyə hərbi müdaxilə sayılacaq və düşmənə qarşı birlikdə savaş açılacaq.

ABŞ ilə İran arasında başlanmış müharibənin əvvəlində regionu yaxından bilən nüfuzlu ekspertlər müharibənin daha geniş coğrafiyaya yayıla bilməsi barədə fikirlərini bildirmişlər. Artıq müharibə Fars körfəzindən Qırmızı dənizə yayılmağa başlayıb. İranın dəstəklədiyi husilər isə Səudiyyə Ərəbistanının Qırmızı dənizdəki Yandu limanından neft daşıyan tankerlərinə hücum edirlər. Bundan sonra Səudiyyə Ərəbistanının husilərə qarşı birgə mübarizə aparmaq üçün başqa ölkələrə müraciət etməkdən savayı əlacı qalmayıb.

Yəmən mərkəzi hakimiyyəti də separatçı husilərin qanunsuz hərəkətlərinə son qoymaq üçün Bab-əl-Məndəd boğazının müdafiəsi üçün beynəlxalq koalisiya yaratmaq barədə çağırış edib. Bu ölkənin xarici işlər naziri Mustafa Noman husilərin boğazda beynəlxalq ticarətə mane olmasına son qoymağın vaxtı çatdığını bildirib. Onu da vurğulayaq ki, bu boğaz üzərindən dünya ticarətinin 33 faizi aparılır və boğazda baş verən neqativ proseslər qlobal ticarətə, həmçinin təchizat zəncirinə ziyan vurur.

Dünyanın tanınmış ekspertləri faktiki üçüncü dünya müharibəsinin başlamasını bir çox arqumentlə əsaslandırırlar. Məsələn, Rusiya-Ukrayna müharibəsində Avropa ölkələri birbaşa döyüş meydanında savaşmasalar da, Ukraynaya hərbi və maliyyə dəstəyi verirlər. Yaxın Şərqdəki müharibə isə artıq Afrika qitəsində sıçrayıb. Belə ki, İran Misir ərazisindəki qaz təchizatı mərkəzinə zərbə endirib. Yəməndə husilərə qarşı aparılmış əməliyyatların Bab-əl-Məndəd boğazının Afrika sahilini də ağuşuna alacağı an məsələsidir. Ekspertlər qeyd edirlər ki, hazırda münaqişə gedən ərazilərdə istifadə olunan silah-sursatın dağıdıcı gücü İkinci Dünya müharibəsindəkindən çoxdur. Bugünkü savaşlarda (Yaponiyaya atılan nüvə bombalarını çıxmaq şərti ilə) istifadə edilən bombalar daha böyük dağıdıcı gücə malikdir. Həmin fikirdə olan mütəxəssislər həm də müharibənin əhatə etdiyi coğrafiya və həmin ərazilərdə yaşayan əhalinin sayına da diqqət yetirməyin vacibliyini xüsusi qeyd edirlər: hazırda dünya əhalisinin 1 milyardı və ya qlobal iqtisadiyyatın ən azı 30 faizi bu müharibənin girovuna çevrilib.

Bu gərginlik fonunda indi ən çox müzakirə edilən məsələ enerji resurslarının qiymətinin baha olmasıdır. Məlumdur ki, enerji qiymətləri iqtisadiyyatın bütün sahələrinə təsir göstərir. Ancaq unutmayaq ki, bundan da dəhşətlisi ərzaq böhranıdır. Dünyanın buğda, qarğıdalı və duru yağlara olan tələbatının 30 faizə qədərini Rusiya ilə Ukrayna təmin edir. Digər tərəfdən, kənd təsərrüfatı üçün zəruri olan gübrələrin ən böyük ixracatçılarından biri Rusiyadır. Üstəlik Körfəz ölkələrinin də dünyanın gübrəyə olan ehtiyacının ödənilməsində az payı yoxdur. Hazırda Hörmüz boğazında baş verən proseslər üzündən dünya bazarına gübrə ixracı ən aşağı səviyyəyə düşüb. Bu da sözsüz ki, qlobal səviyyədə məhsul istehsalının aşağı düşməsinə səbəb olacaq. Onsuz da son illər dünyada baş verən quraqlıq nəticəsində buğda istehsalı xeyli azalıb. Belə davam edərsə, yaxın aylarda dünya buğda qıtlığı ilə üzləşə bilər.

Mütəxəssislərin hesablamalarına görə, müharibə nəticəsində İran iqtisadiyyatına dəyən zərər 500 milyard dollardan çoxdur. Ümumilikdə Körfəz müharibəsinin başlamasından bəri qlobal iqtisadiyyata dəyən ziyanın 2 trilyon dollardan çox olduğu bildirilir. Bunun üzərinə Rusiya ilə Ukrayna müharibəsinin iqtisadiyyata vurduğu ziyan da əlavə edilərsə, acınacaqlı bir mənzərənin şahidi olarıq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Bakıda və Abşeron yarımadasında az yağış yağacağı gözlənilir

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**



Lakin səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 22-25, gündüz 29-32 dərəcə isti olacağı bildirilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 24-29 dərəcə isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 34-39 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 25-30, bəzi yerlərdə 33-36 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 25-30, bəzi yerlərdə 33-36 dərəcə isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-37 dərəcə isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22, gündüz 30-35, dağlarda gecə 14-18, gündüz 25-29 dərəcə isti olacağı proqnozlaşdırılır.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 34-39 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25, gündüz 32-37, dağlarda gecə 18-20, gündüz 25-30 dərəcə isti olacağı gözlənilir.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Xəzərdə qüdrətli dəniz qüvvələrindən sayılan Azərbaycan Hərbi Donanmasının qurucusu Ali Baş Komandan İlham Əliyevdir
Mavi sərhədlərimizin ayıq-sayıq keşikçiləri
57 il əvvəl Azərbaycanın tarixində yeni dövr başladı
Çolpon-Ata Bəyannaməsi strateji tərəfdaşlığı gücləndirən mühüm yol xəritəsidir
Burada günəşin istisi "yaşıl enerji"yə çevriləcək
Mərkəzi Asiya və Azərbaycan vahid geosiyasi və geoiqtisadi məkana çevrilib
Rəqəmsal platforma xəbərləri necə idarə edir?
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


BEYNƏLXALQ HƏYAT

# Mamdani Nyu Yorkda biznes liderləri şurasını ləğv etdi

## Bəzi şirkətlər əməliyyatlarının bir hissəsini digər ştatlara köçürməyi düşünürlər

**Nyu Yorkun meri Zohran Mamdani şəhərin ən böyük şirkətlərinin, maliyyə sektorunun və daşınmaz əmlak bazarının nümayəndələrini bir araya gətirən Məşvərət Şurasını ləğv edib. Onun yerinə yeni bir məsləhət orqanının yaradılması planlaşdırılır.**




"The Wall Street Journal" qəzetinin məlumatına görə, yeni şuraya əvvəllər xeyriyyə ianələri və şəhər siyasəti məsələləri ilə bağlı müzakirələrdə az və ya heç bir iştirakı olmayan təşkilatların və icmaların nümayəndələri daxil olacaqlar.

Qərar biznes liderlərinin kəskin reaksiyasına səbəb olub. Məşvərət Şurasındakı yerini itirənlərdən biri - Nyu York Daşınmaz Əmlak Şurasının prezidenti Ceyms Uilan bildirib ki, sənaye nümayəndələri əvvəllər şəhərin qərar qəbul etməsində əhəmiyyətli təsirə malik olsalar da, indi vəziyyət dəyişib. Onun fikrincə, administrasiyanın siyasətinin düşünülmüş siyasi strategiya olub-olmadığı sual altındadır. Nyu York Şəhər Tərəfdaşlığı təşkilatının rəhbəri Stiven Fulop da şəhər administrasiyasının biznesə qarşı ritorikasının xeyli sərtləşdiyini qeyd edib. Manhetten Ticarət Palatasının baş direktoru Cessika Uoker isə bildirib ki, şəhər özəl sektorun maliyyə dəstəyinə güvənməyə davam edir və eyni zamanda bu cür layihələrin həyata keçirilməsində ənənəvi olaraq iştirak edənlərdən uzaqlaşır.

Meriyada bizneslə münasibətlərin pisləşməsi ilə bağlı ittihamları rədd ediblər. Administrasiya sözçüsü vurğulayıb ki, şəhər biznes icmasının Nyu York iqtisadiyyatındakı mühüm rolunu tanıyır və onunla əməkdaşlığı davam etdirmək niyyətindədir.

Mamdaninin siyasəti artıq şəhər administrasiyasının Nyu Yorkun ən böyük maliyyə və inkişaf şirkətləri ilə münasibətlərində əhəmiyyətli dəyişikliklərə səbəb olub. "The Wall Street Journal" qəzetinin məlumatına görə, bəzi şirkətlər əməliyyatlarının bir hissəsini digər ştatlara köçürməyi düşünürlər.

# Yəmən sahillərində Hindistan gəmisinə hücum edilib

**Hindistan bayrağı altında üzən "Faize Noore Oliya" gəmisi Bab əl-Mandeb boğazından keçdikdən sonra Qırmızı dənizdə Əl-Hudaydah limanından təxminən 13 dəniz mili məsafədə batıb.**



İlkin məlumatlara görə, gəmiyə məsafədən idarə olunan partlayıcı maddələrlə dolu qayıq hücum edib. "Reuters" Agentliyi xəbər verir ki, Hindistanın 13 vətəndaşı və bir yəmənli də daxil olmaqla 14 heyət üzvünün hamısı sağ qalıb. Hindistan gəmiçilik naziri Sarbananda Sonoval xilasetmə əməliyyatının uğurla başa çatdığını təsdiqləyib: "Hindistan müdafiəsiz mexanikləşdirilmiş yelkənli gəmiyə edilən bu təxribatçı hücumu qətiyyətlə pisləyir. Vətəndaşlarımızın təhlükəsizliyi bizim ən yüksək prioritetimizdir. 13 hindistanlı da daxil olmaqla 14 dənizçinin hamısının Yəmən Sahil Mühafizəsi tərəfindən təhlükəsiz xilas edildiyini və Mokha limanına gətirildiyini bildirməkdən məmnunam".

Nazir həmçinin qeyd edib ki, Hindistan Dəniz Administrasiyası Baş Müdirliyinə (DGA) bölgədəki hind dənizçilərinin təhlükəsizliyini təmin etmək və heyətə lazımi yardım göstərmək üçün digər qurumlarla birlikdə təcili tədbirlər görməyi tapşırıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Səyyad Arana qardaşı
**ELÇAY SALAHLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri parlament Aparatı rəhbərinin xidmətinin əməkdaşı Arzu Babayevaya atası
**DAVUD BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səyyad Arana qardaşı
**ELÇAY SALAHLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Xanlar Fətiyev Milli Məclisin deputatı Səyyad Arana qardaşı
**ELÇAY SALAHLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı Səyyad Arana qardaşı
**ELÇAY SALAHLININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Vəkillər Kollegiyası Ağsaqqallar Şurasının sədri, respublikanın Əməkdar hüquqşünası
**İKRAM KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin sabiq prorektoru Qafar Atayevə əzizləri
**ARİS ƏLİHƏSƏNOVUN və HƏSƏN ƏLİHƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3270
Sifariş 979

Qiyməti 60 qəpik